Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 232 (7959) ÇƏRŞƏNBƏ AXŞAMI, 16 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiymət i 40 qəpik





# Azərbaycan sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf bütün bölgələrdə özünü büruzə verir

## İLHAM ƏLİYEV:

## "Biz iqtisadi baxımdan heç kimdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik"

## Azərbaycan Prezidenti İlham Əliyevin Lənkəran, Astara və Lerik rayonlarına səfəri

## Ulu öndərin xatirəsinə ehtiram



Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran rayonuna səfərə gəliblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran şəhərindəki Heydər Əliyev xatirə parkında ulu öndərin yeni ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular. Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov dövlət başçısına və xanımına Heydər Əliyev xatirə parkında görülən abadlıq işləri barədə məlumat verdi.

Bildirildi ki, xatirə parkında şəhər sakinlərinin və qonaqların istirahəti üçün hərtərəfli şərait yaradılıb.

## Lənkəran İstisu və Sağlamlıq Mərkəzi

*182 nömrəlik hotel binası, 2 mərtəbəli tibb mərkəzi, 12 aktiv su mənbəyi*

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkərana səfəri çərçivəsində İstisu və Sağlamlıq Mərkəzinin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, son illər bölgələrdə müasir mehmanxana və sağlamlıq komplekslərinin istifadəyə verilməsi Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, ölkəyə gələn turistlərin sayının artmasına da böyük təkan verir. Lənkəranın Haftoni qəsəbəsində inşası yenicə başa çatan Lənkəran İstisu və Sağlamlıq Mərkəzi də bu istiqamətdə həyata keçirilən əsaslı addımlardan biridir. Bu kompleksin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Təxminən 11 hektar sahəsi olan kompleksdə hotel, tibb mərkəzi və müxtəlif termal hamamlar fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərkəzdə görülən işlərlə tanış oldular.

Layihə rəhbəri Nəriman Topçubaşov məlumat verdi ki, Lənkəran İstisu Sanatoriyası ilk dəfə 1958-ci ildə istifadəyə verilib. 1974-cü ildə ərazidə dördmərtəbəli sanatoriya binası inşa edilib.

Bildirildi ki, Lənkəran İstisu və Sağlamlıq Mərkəzinin inşasına 2016-cı ilin noyabrında başlanılıb. Mərkəzin 182 nömrəlik hotel binası ən yüksək standartlar səviyyəsində inşa olunub. Kompleksə daxil olan digər xidmət sahələrinin inşası davam etdirilir. Hotel binasının interyerinin tərtibatında orijinal mebel və aksesuarlardan istifadə olunub. Hotelin doqquzmərtəbəli binasında istər uzunmüddətli müalicəvi istirahət, istərsə də həftə sonlarında asudə vaxt keçirmək üçün hər cür şərait yaradılıb.

Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, hoteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçəcək və onların əksəriyyətini yerli kadrlar təşkil edəcək. Bu əməkdaşlar hotelin istənilən xidmət sahəsində qonaqlara yüksəksəviyyəli qulluq göstərilməsi ilə bağlı xüsusi təlim kurslarına cəlb olunacaqlar. Kompleksdə müasir restoranlar fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaq.





Dövlət başçısı və xanımı hoteldəki nömrələrdə yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, müxtəlif kateqoriyalı bu nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir.

Lənkəran İstisu və Sağlamlıq Mərkəzində yerləşən ikimərtəbəli tibb mərkəzi də müasir avadanlıqla təchiz edilib. Müasir laboratoriya, rentgen və ultrasəs müayinələri üçün lazımi şəraitin yaradıldığı mərkəzdə elektroterapiya, fizioterapiya, jet masaj, maqnitoterapiya, hidroterapiya, hidrokolonterapiya, palçıq müalicəsi, mexanoterapiya otaqları var. Burada müalicə alanlar masaj və palçıq aplikasiya otaqlarından istifadə edə bilərlər. Tibbi mərkəzdə aptek də fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev istisu vannaları ilə tanış oldu.

Hazırda Lənkəran İstisu və Sağlamlıq Mərkəzində 12 aktiv su mənbəyi, o cümlədən 7 quyu və 5 bulaq mövcuddur. Mənbələr istilik dərəcəsinə əsasən izotermal, termal və hipertermal sular olaraq quruplaşdırılıb. Termal su yatağı üzrə xloridli-natriumlu-kalsiumlu sular üstünlük təşkil edərək karbon və azot qazlı sular qrupuna daxildir. Bundan əlavə, termal suyun tərkibində sulfat aniomları, kalium və kükürd var. Bu tip sular müalicəvi-mineral sular və mineral sular qrupuna aid edilir.

Bildirildi ki, Lənkəran İstisu və Sağlamlıq Mərkəzində qan dövranı, sinir, sümük-əzələ sistemləri, birləşdirici toxumanın, tənəffüs orqanlarının, həzm sisteminin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları, dəri və dərialtı toxumanın və sidik-cinsiyyət sistemi xəstəliklərinin müalicəsi nəzərdə tutulub. Mərkəzin fəaliyyətə başlaması əksəriyyəti yerli işçilər olmaqla, təqribən 250 nəfər üçün iş yerinin yaranmasına səbəb olacaq.

Burada 46 avtomobil yerlik qapalı, 80 avtomobil yerlik açıq avtodayanacaq da yaradılıb. Ölkə vətəndaşlarının və xarici qonaqların xidmətinə verilən bu müasir kompleks respublikamızın turizm infrastrukturuna, xüsusilə də müalicəvi turizmin inkişafına mühüm töhfə verəcək. Beləliklə, Lənkəran İstisu və Sağlamlıq Mərkəzi ölkəmizin turizm və müalicəvi turizm sektorunda özünəməxsus yer tutacaq. Bütün bunlar bir daha sübut edir ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində görülən kompleks işlər nəticəsində ölkənin iqtisadi qüdrəti yüksəlib, işgüzar fəallıq artıb, bölgələrdə sahibkarlıq fəaliyyəti daha da genişlənib. Prezident İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, son illər ölkəmizin turizm potensialının inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması, mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətlərində çoxsaylı tədbirlər davam etdirilir və daha da genişləndirilir.

Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşdülər.

Dövlət başçısı görüşdə çıxış etdi.

Bax: səh. 2

# Lənkəran İstisu və Sağlamlıq Mərkəzi

## *182 nömrəlik hotel binası, 2 mərtəbəli tibb mərkəzi, 12 aktiv su mənbəyi*







## Prezident İlham Əliyevin çıxışı

- Sizi ürəkdən salamlayıram, Lənkəran rayonunda yenidən olmağımdan çox şadam. Bu, mənim Lənkərana Prezident kimi 10-cu səfərimdir. Hər səfərdə yeni obyektlərin açılışında iştirak edirəm və şadam ki, Lənkəranda yeni gözəl obyektlərin sayı çoxalır. Bu gün Lənkəranda yaradılan İstisu sanatoriyasının fəaliyyəti ilə tanış oluram. Tanışlıq çox gözəl təəssürat bağışlayır, çox gözəl istirahət zonasıdır, gözəl hoteldir. Siz bilirsiniz ki, bu yerdə sovet vaxtında sanatoriya olub. O sanatoriyanın görüntüləri bu stenddə göstərilir, tamamilə yararsız vəziyyətə düşmüşdü və əlbəttə ki, müasir tələblərə cavab vermirdi. Şadam ki, yeni tikilən hotel, istirahət müalicə mərkəzi dünyanın ən yüksək standartlarına cavab verir. Burada 182 otaqda qonaqlar, yerli sakinlər dincələcəklər, müalicə alacaqlar, öz sağlamlıqlarını bərpa edəcəklər. Bu gözəl turizm obyektinin açılışı bir daha onu göstərir ki, ölkəmiz uğurla inkişaf edir, bütün regionlar sürətlə inkişaf edir və bölgələrdə dünya səviyyəli çox gözəl obyektlər, o cümlədən turizm obyektləri yaradılır.

Lənkəran rayonunda turizmin inkişafı sürətlə gedir. Keçən il mən burada olarkən dəniz sahilində yerləşən hotelin açılışında iştirak etmişəm. Mənə indi məlumat verildi ki, o hotel 100 faiz işləyir, yəni otaqların yüz faizi qonaqlar tərəfindən götürülüb, istifadə olunur. Hazırda Bakı-Astara yolunun çəkilişindən sonra Lənkərana gələn turistlərin sayı daha da artır və artacaqdır. Bu gün biz yeni gözəl hotelin açılışını qeyd edirik.

Bildiyiniz kimi, bütövlükdə turizmin inkişafı ölkəmizdə sürətlə gedir. Bu, prioritet məsələdir və son illər ərzində görülmüş tədbirlər nəticəsində ölkəmizə gələn qonaqların sayı kəskin şəkildə artmışdır. Gələn turistlərin sayı 2016-cı ildə 22 faiz, keçən il 20 faiz, bu ilin 9 ayında isə əlavə olaraq 6 faiz artıb. Doqquz ayda xaricdən gələn qonaqlar Azərbaycanda ancaq bank kartları ilə 1 milyard manat səviyyəsində pul xərcləyiblər. Ancaq bank kartları ilə xərclənən bu məbləğ ilin sonuna qədər daha da artacaq. Əlbəttə ki, onlar nağd pul da xərcləyirlər və bu, ölkə iqtisadiyyatına böyük dəstəkdir. Beləliklə, son illər ərzində turizmə göstərilən diqqət öz nəticəsini verir.

Turizmin inkişafını şərtləndirən bir çox amillər var və onların hamısı Azərbaycanda mövcuddur. İlk növbədə nəqliyyat infrastrukturu - indi ölkəmizdə 6 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan biri Lənkəran aeroportudur ki, mənim təşəbbüsümlə hələ 10 il bundan əvvəl əsaslı şəkildə təmir olunub, demək olar ki, yenidən qurulub. İndi Lənkəran aeroportundan beynəlxalq reyslər təşkil edilir. İndi mənə məlumat verildi ki, həftədə 3-4 reys fəaliyyət göstərir. Bu, həm rayon sakinlərinin, həm cənub zonasında yaşayan vətəndaşların rahatlığını, həm də turistlərin gəlişini təmin edir.

Dəmir yolu nəqliyyatı Azərbaycanda yenilənir, yeni xətlər çəkilir. O cümlədən təbii ki, "Şimal-Cənub nəqliyyat dəhlizi" bu bölgədən keçəcək. Yəqin eşitmisiniz, mən çıxışlarımın birində demişəm ki, Bakı-Lənkəran dəmir yolunun istiqaməti də dəyişdiriləcək, sahil boyu ilə gedən dəmir yolu xətti köçürüləcək ki, həm daha da rahat olsun, həm sürət artsın, eyni zamanda biz sahil zonasını turizm infrastrukturuna cəlb edək.

Avtomobil yolları çəkilir. Mən keçən ay Bakı-Astara avtomobil yolunun açılışını etdim, gözəl tədbir keçirildi. Bildiyiniz kimi, indi yolun məsafəsi təxminən 40 kilometr qısalıb və bu gün dünya miqyasında ən gözəl yollardan biridir. Mən Bakıdan Astaraya qədər indi o yol ilə gəlmişəm, adam zövq alır, gözəl, hamar, mənzərəli bir yoldur, sağ-sol meşələr, dağlar. Beləliklə, Bakıdan Lənkərana, Astaraya gəlmək üçün insanlar daha rahat yoldan istifadə edəcəklər.

Bizim tarixi abidələrimiz turizmi inkişaf etdirən vacib amillərdən biridir. Bizim zəngin tariximiz, mədəniyyətimiz, tarixi abidələrimiz xarici qonaqların marağına səbəb olur. Gözəl mətbəximiz, o cümlədən cənub zonasının xüsusi ləzzətli mətbəxi, hesab edirəm ki, dünya səviyyəsində məşhurdur. Ölkəmizə gələn turistlər xalqımızın qonaqpərvərliyi sayəsində özlərini evlərindəki kimi hiss edirlər. Ölkəmizin ümumi inkişafı, əlbəttə ki, turistləri cəlb edir. Əgər Azərbaycan inkişafda olan ölkə olmasaydı, əlbəttə, ictimai sabitlik, təhlükəsizlik olmasaydı, turistlər də gəlməzdi. Bu gün dünyada baş verən hadisələr göz qabağındadır, risklər, təhlükələr artır və turistlər daha əmniyyətli yerləri seçirlər, ona görə təsadüfi deyil ki, məhz Azərbaycana üz tuturlar. Bütün bu amillərin vəhdəti turizmin inkişafını şərtləndirir. Əlbəttə ki, belə gözəl istirahət mərkəzlərinin, hotellərin tikintisi turistləri daha da cəlb edəcək. Biz gərək indi dünyada çox ciddi təbliğat aparaq və bu təbliğat nəticəsində xaricdə yaşayan insanlar bizi daha da çox tanısınlar.

O cümlədən ölkəmizdə müalicəvi turizm inkişaf edir və İstisu Sağlamlıq Mərkəzinin yaradılması bu istiqamətdə önəmli addımdır. Bu vaxta qədər Naftalan şəhərində bir neçə beşulduzlu hotel istifadəyə verilib. Biz Naftalanın turizm mərkəzi, müalicəvi mərkəz kimi şöhrətini bərpa etdik. Orada oynaq xəstəlikləri, daxili orqanların xəstəlikləri müalicə olunur. Qalaaltı, o da sovet vaxtında ittifaq məkanında məşhur bir turizm mərkəzi idi. İndi biz bunu beynəlxalq mərkəzə çevirdik, orada daha çox böyrək xəstəlikləri müalicə olunur. Naxçıvanda Duzdağ müalicəvi mərkəzi ağciyər xəstəlikləri üçün çox faydalıdır. Lənkəran İstisu sanatoriyasının şəfalı suları da insanların sağlamlığını təmin edəcək.

Yeni müalicəvi turizm istiqamətində işlər gedir, idman turizmi inkişaf etdirilir. Şahdağ artıq dünya səviyyəli bir dağ-xizək mərkəzinə çevrilib. Ondan sonra açılmış Tufandağ yeni xizək mərkəzidir. Beləliklə, turizm Azərbaycanda inkişaf edəcək, turizm sahəsində on minlərlə iş yeri yaradılır. İndi mənə verilən məlumata görə, təkcə bu sanatoriyada ən yaxşı mövsümdə 250-yə qədər yeni iş yeri açılacaq və burada yerli vətəndaşlar işlə təmin olunacaqlar. Ölkə iqtisadiyyatına daha da böyük həcmdə vəsait, investisiyalar qoyulacaq və xarici qonaqlar pul xərcləyəcəklər. Ona görə mən çox şadam ki, Lənkəran rayonunda belə gözəl turizm mərkəzi yaradılır. Bu, Lənkəranın iqtisadi potensialına növbəti bir töhfədir.

Bütövlükdə son illərdə Lənkəran rayonunda çox böyük işlər görülüb. İlk növbədə biz infrastruktur layihələrinə böyük diqqət göstərmişik. Mənim yadımdadır, ilk dəfə Prezident kimi mən Lənkərana gələndə Lənkəran şəhərində, demək olar ki, təbii qaz yox idi. Bu gün nəinki Lənkəran şəhərində, Lənkəran rayonunda qazlaşdırmanın səviyyəsi 95 faizdir. Yəni demək olar ki, biz bu problemi həll etmişik. Elektrik enerjisi ilə həmişə problemlər var idi. 2005-ci ildə Astarada tikilmiş modul tipli elektrik stansiyasının fəaliyyəti nəticəsində bu problem də indi öz həllini tapır. Eyni zamanda, Astarada 80, Lerikdə 16 meqavat gücündə elektrik stansiyalarının tikintisi başa çatıb. Bunlar bütün bölgəyə xidmət göstərən elektrik stansiyalarıdır.

Beş il bundan əvvəl Lənkəranın içməli su problemi həll olundu. Yadımdadır, o günü də biz birlikdə qeyd etmişdik. Kənd yollarının 75 faizi yenidən quruldu və bu proses davam etdirilir, gələn il əlavə vəsait ayrılacaq. Yəni infrastrukturla bağlı olan bütün məsələlər həll olunur, görülən işlər göz qabağındadır, 40-dan çox məktəb tikilib və ya təmir edilib. Müasir Olimpiya İdman Kompleksi tikilib, biz bu gün onun açılışını qeyd edəcəyik. 2003-cü ildə birinci Olimpiya kompleksi yaradılmışdır. Ancaq əfsuslar olsun ki, o vaxt keyfiyyət o qədər də yaxşı deyildi və o, sıradan çıxdı. Göstəriş verdim ki, Lənkəran şəhərində mütləq ən gözəl Olimpiya mərkəzi yaradılsın, biz bu gün onun açılışını qeyd edəcəyik. Lənkəran aeroportunu qeyd etdim, müalicə-diaqnostika mərkəzi tikilmişdir, mərkəzi şəhər xəstəxanası əsaslı bərpa edilmişdir. Bu gün "Azərxalça" İstehsalat Birliyinin filialının açılışını qeyd edəcəyik. Orada da 100-dən çox insan işlə təmin ediləcək. Yəni biz bu məsələlərə kompleks şəkildə yanaşırıq ki, Lənkəran rayonunun inkişafı daha da sürətlə getsin. Əlbəttə ki, növbəti illərdə görüləcək işlər haqqında da biz indidən düşünürük. Gələn ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı üzrə IV Dövlət Proqramı qəbul ediləcək. Qalan bütün məsələlər o proqramda öz əksini tapacaq. Bilirəm ki, binaların dam örtükləri ilə bağlı problemlər var, biz onları həll edəcəyik. Proqramımızda hələ kənd yollarının çəkilişi, məktəblərin tikintisi var. Biz bütün bunları həll edəcəyik ki, Lənkəran rayonunda bir dənə də olsun problem qalmasın. Sizi bir daha salamlayıram, təbrik edirəm və yeni uğurlar arzulayıram.

**Sakin:** Cənab Prezident, biz də Sizi təbrik edirik. Bu gün ilk dəfə Prezident seçilməyinizin 15 ili tamam olur. Siz bu 15 ildə Lənkəranda gördüyünüz işləri sadaladınız, hamısına görə çox sağ olun. Təşəkkür edirəm. Allah Sizi qorusun.

Prezident **İlham ƏLİYEV:** Çox sağ olun.

* * *

Sakinlər göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.

* * *

Sonda xatirə şəkli çəkdirildi.



# 6 hektar ərazisi və sayca 44-cü olan idman qurğusu - Lənkəran Olimpiya İdman Kompleksi

Oktyabrın 15-də Lənkəran Olimpiya İdman Kompleksinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlət başçısı və birinci xanım Lənkəran Olimpiya İdman Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdilər.

Gənclər və idman naziri Azad Rəhimov kompleksdə yaradılan şərait barədə dövlət başçısına və birinci xanıma ətraflı məlumat verdi.

Bildirildi ki, kompleksin tikintisinə 2013-cü ildə başlanılıb. Prezident İlham Əliyevin sərəncamları ilə Lənkəran Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsinə ümumilikdə 15 milyon manat vəsait ayrılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin oktyabrında başa çatdırılıb.

Kompleks müasirliyi ilə diqqəti cəlb edir. Bu, ölkəmizdə idmançıların ixtiyarına verilən sayca 44-cü olimpiya idman kompleksidir. Ümumi ərazisi altı hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.

Diqqətə çatdırıldı ki, 788 tamaşaçı yerlik universal idman salonunda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Belə komplekslərin yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsində mühüm əhəmiyyət daşıyır. Kompleksin əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Əlli üç yerlik mehmanxananın üçmərtəbəli binasında idmançıların qalması və istirahəti üçün hər cür imkan var. Mehmanxanada birnəfərlik, ikinəfərlik, üçnəfərlik, VİP otaqlar və 70 yerlik konfrans zalı mövcuddur. Lənkəran Olimpiya İdman Kompleksinin ağır atletika və trenajor zalında idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait var. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub. Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Bu zalda 90 tamaşaçı yeri var. Güləşçilərin məşqlərinin yüksək səviyyədə keçirilməsi üçün ən xırda incəliklər belə nəzərə alınıb.












Qeyd edildi ki, Lənkəran Olimpiya İdman Kompleksinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıb.

Buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12 metrdir. Ölkəmizdə yeniyetmə və gənclərin idmanın üzgüçülük növünə də marağı ildən-ilə artır. Bu zalda üzgüçülük yarışlarını 135 nəfər izləyə biləcək. Müasir standartlara cavab verən futbol meydançasında keçiriləcək yarışları tribunalardan 1300-ə qədər tamaşaçı izləyəcək. Burada mini-futbol meydançası da idmançıların ixtiyarına verilib. Basketbol və voleybol meydançaları idmansevərlərə dəyərli töhfədir. Kompleks həmçinin qaz, su-kanalizasiya, elektrik, rabitə xətləri ilə təchiz olunub. Həyətdə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, istirahət guşələri yaradılıb.

# "Lənkəran-2" yarımstansiyası işə salınıb




Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkəran rayonuna səfəri çərçivəsində "Azərişıq" ASC tərəfindən müasir üslubda yeni inşa edilən 110/35/10 kV-luq "Lənkəran-2" yarımstansiyasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, 1974-cü ildə tikilən 110/10 kilovoltluq yarımstansiyanın gərginlik sinfi dəyişdirilərək 110/35/10 kilovoltluq gərginlik sinfinə keçirilməsi, onun gücünün 32 meqavolt amperdən 50 meqavolt amperə çatdırılması böyük əhəmiyyət daşıyır. Yarımstansiyada 35 kilovoltluq gərginlik sinfi yaradılıb ki, bununla Lənkəran, Lerik və Masallı rayonlarının 35 kilovoltluq dairəvi elektrik təchizat sxemi qurulub. Bu isə elektrik enerjisinin dayanıqlığının və etibarlılığının artırılmasına, yüklərin bir mənbədən digər mənbə üzərinə keçirilməsinə, həmçinin çəltikçiliyin, çayçılığın və kənd təsərrüfatının digər sahələrinin inkişafı üçün lazım olan elektrik enerji təchizatına müsbət təsir edir. Yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular quraşdırılıb. Yarımstansiya müasir standartlara cavab verən



elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub. Yenidən qurulan "Lənkəran-2" yarımstansiyası Lənkəran şəhəri, 4 kənd və qəsəbə daxil olmaqla 17 min 500 abonenti elektrik enerjisi ilə təchiz edir. Eyni zamanda, bir sıra strateji obyektlər də bu yarımstansiyadan qidalanır.

Qeyd edək ki, Masallıda da yenidən qurulan "Tüklə" yarımstansiyasının gücü 32 meqavolt amperə çatdırılıb. 110 kilovoltluq "Tüklə" və "Lənkəran-1" yarımstansiyaları vasitəsilə Masallı və Lənkəran rayonlararası 35 kilovoltluq dairəvi elektrik təchizat sxemi qurulub ki, bu da Lənkəran rayonunda, o cümlədən Liman şəhərində ikinci qida mənbəyinin yaradılması, bununla da hər iki rayonun elektrik təchizatının dayanıqlığının artırılması deməkdir. Yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular quraşdırılıb, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub. Yeni yarımstansiya 70 min əhalini və 516 obyekti elektrik enerjisi ilə təchiz edir.

# Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzində 63 növ xidmət göstərilir

Oktyabrın 15-də Kənd Təsərrüfatı Nazirliyinin Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, ölkəmizdə əsas kənd təsərrüfatı regionlarından olan Lənkəranda son illərdə bu sahədə görülən işlər əhəmiyyəti ilə seçilir. Bu baxımdan Kənd Təsərrüfatı Nazirliyinin Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin fəaliyyəti böyük maraq doğurur. Burada Kənd Təsərrüfatı Nazirliyi və onun tabeli qurumları tərəfindən bitkiçilik, heyvandarlıq və texniki nəzarət xidmətləri üzrə ümumilikdə 63 növ xidmət göstərilir. Mərkəzdə 58 nəfər çalışır.

Qeyd edək ki, Dövlət Aqrar İnkişaf mərkəzlərinin yaradılmasında məqsəd Kənd Təsərrüfatı Nazirliyinin yerli bölmələrinin vahid mərkəzdən idarə olunmasını təşkil etmək, fermerlərlə işin gücləndirilməsi, elektron xidmətlər və innovativ texnologiyadan istifadə ilə bağlı maarifləndirmə işləri aparmaqdır. Mərkəzlərin təşkili aqrar sektorda xidmətlərin göstərilməsində bir sıra üstünlüklər yaradır. Bu üstünlüklərdən "vahid pəncərə" prinsipinin tətbiqini, şəffaflığın artırılmasını, fermerlərlə əlaqələrin qurulması mexanizminin təkmilləşdirilməsini qeyd etmək olar.

Mərkəz Lənkəran şəhərində qeydiyyatda olan vətəndaşlara xidmət göstərəcək. Lənkəran Regional Toxum Sertifikatlaşdırma Mərkəzi Lənkəran, Masallı, Lerik, Yardımlı və Astara rayonlarını əhatə etməklə bu rayonlarda toxum və ting istehsalçılarının əkinlərinin qeydiyyatının təşkili, kənd təsərrüfatı bitkilərinin toxumluq əkinlərinin və tinglərin sort eyniliyinin və təmizliyinin, xəstəlik və zərərvericilərlə yoluxmanın müəyyənləşdirilməsini, habelə onların sertifikatlaşdırılmasının təşkilini, toxum və ting istehsalı







ilə məşğul olmaq istəyən fiziki və hüquqi şəxslərin attestasiyası məqsədilə müvafiq rəy verilməsini təşkil edir.

Lənkəran Regional Aqrokimya Laboratoriyası torpaq mülkiyyətçiləri və sahibkarlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə yaradılıb, müasir cihaz və avadanlıqla təchiz edilib.

# "Azərxalça" ASC Lənkəran filialında 150 toxucu və 14 inzibati-təsərrüfat işçisi çalışacaq









Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Lənkəran filialının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və xanımı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdilər.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya ölkəmizdə xalçaçılığın inkişafı və bu müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər bəhrəsini verir. Bu sahənin inkişafına xüsusi diqqət göstərən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri açılıb. "Azərxalça" ASC-nin ilkin olaraq Horadiz şəhərində, Ağdam, Ağstafa, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Quba, Şəmkir və Tovuz rayonlarında xalça emalatxanalarının tikintisi nəzərdə tutulmuşdu. Artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz və İsmayıllıdakı müəssisələr Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Bu müəssisələri xammalla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiya həcmi 27 milyon 420 min manat olan yunəyirici-boyaq fabrikinin, Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə və Sabirabad rayonlarında regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin inşası davam etdirilir. Artıq Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Lənkəran, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanılıb. Bundan başqa, İsmayıllı rayonunda daha bir xalça istehsalı emalatxanası tikilir.

Dövlət başçısı Lənkəranda xalça emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması üçün 2018-ci ilin dövlət büdcəsindən vəsait ayrılması barədə sərəncam da imzalayıb. 2019-cu ildə əlavə olaraq 10 şəhər və rayonda bu cür müəssisələrin tikintisi nəzərdə tutulub. "Azərxalça" ASC-nin artıq istifadəyə tam hazır olan Lənkəran filialı da bu sırada mühüm yerlərdən birini tutur.

Bildirildi ki, "Azərxalça" ASC-nin Lənkəran filialının binasının ümumi sahəsi 1249 kvadratmetrdir. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 199-cu kilometrliyində yerləşən filialın binasının tikintisinə bu ilin martında başlanılıb. Tikinti




işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, inzibati otaq, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu, konfrans zalı və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Astara, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonlarının kəndlərində toxunan orijinal xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin bölgənin müxtəlif kəndlərindən toplanan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib.

Qeyd olundu ki, müəssisədə çalışan toxucular Lənkəran şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş tədris-hazırlıq kurslarına cəlb edilib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da işini davam etdirəcək. Bu kursun məzunları "Azərxalça" ASC-nin sertifikatını alacaqlar. Xalça satışı salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgisi və satışı da həyata keçiriləcək.

Sonra dövlət başçısı və birinci xanım müəssisənin kollektivi ilə görüşüb söhbət etdilər.

Xalçaçılar ölkəmizdə bu qədim sənətin inkişafına göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq etdilər.

**Xalçaçı Sevda Cəbrayılova:** Cənab Prezident, xoş gəlmisiniz, Sizi görməyimizə çox şadıq. Çoxdandır ki, Sizi gözləyirdik. Bizə bu gözəl hədiyyəyə görə Sizə ürəkdən minnətdarıq, sağ olun. Bütün xalçaçı qızlar adından Sizə minnətdarıq.

**Xalçaçı İradə Əliyeva:** Çox sağ olun ki, bizim zəhmətimizə belə bir dəyər vermisiniz, keçmiş xalçalarımızı bizə qaytarmısınız. Çox sağ olun, Sizə çox-çox təşəkkür edirik.

**Emalatxana rəisi Nargilə Qənbərova:** Xoş gəlmisiniz. Sizin sərəncamınız və Mehriban xanımın xalçaçılara qayğısı sayəsində bizim üçün belə bir gözəl bina tikildi. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi.

**Nargilə Qənbərova:** Burada 116 toxucu işləyir, 15 şagirdimiz var. Demək olar ki, nəqliyyata qədər bütün şəraitlə təmin olunmuşuq. Belə bir gözəl müəssisə xalçaçı xanımların ixtiyarına verilib. Buna görə çox sağ olun. Mən "Azərxalça"nın işçisi olaraq 40 ilə yaxındır ki, bu sənətdə çalışıram. Amma biz heç vaxt bu cür şərait, belə gözəl bina görməmişdik. Bizim xəyallarımızı gerçəkləşdirdiniz, ağlımıza gəlməyəni bizim üçün həyata keçirdiniz. Çox sağ olun. Allah Sizi qorusun! Bu gün sevincimizin həddi-hüdudu yoxdur.

**Prezident İlham Əliyev:** Sağ olun, mən sizi ürəkdən təbrik edirəm.

**Sevda Cəbrayılova:** Cənab Prezident, bu gün Sizin prezidentliyinizin 15 illik yubileyidir. Təbrik edirik! Mən Sizi sevən bir insan kimi deyirəm bunu, buna haqqım da var. Çünki yaşım buna yol verir. Siz hər ikiniz idmanı da ucaltdınız, musiqiyə də böyük qiymət verirsiniz. Əminəm ki, indi xalçaçılığı da dünya səviyyəsinə ucaldacaqsınız. Hər şey əladır. Ancaq bir təəssüfüm var, yaşım 57-dir, kaş 17 olaydı.

**Prezident İlham Əliyev:** 57 nədir ki? Bu il mənim də 57 yaşım olacaq.

**Sevda Cəbrayılova:** Allah övladlarınızı, nəvələrinizi saxlasın. Oğlunuz hərbi xidmətdədir, sağ-salamat gəlsin. Bu, bütün ailələrə, övladlarını yayındıran valideynlərə bir nümunədir. Nəvələrim böyüyür, inşallah, o vaxta qədər yaşasam, onları mütləq cəbhəyə, hara lazımdırsa, göndərəcəyəm. Allah köməyiniz olsun, Mehriban xanım, muğamı dünyada tanıdırsınız, idmanı inkişaf etdirirsiniz. Muğamı da, idmanı da çox sevirəm.

**Prezident İlham Əliyev:** Siz xalçaçılığı yaşadırsınız. Şadam ki, Azərbaycanda belə xalça fabriklərinin tikintisi geniş vüsət alıb. Bu, mənim iştirakımla açılan sayca altıncı xalça fabrikidir. "Azərxalça"nın xətti ilə ölkəmizdə yaxın gələcəkdə 30 fabrik yaradılacaq. Hər fabrikdə 100-dən çox işçi çalışır. Mənə verilən məlumata görə, burada 116 işçi var. Demək olar ki, onların hamısı qadınlardır. Qadınlar üçün iş yerləri, belə gözəl şərait yaradırıq. Belə gözəl binada işləmək də xoşdur, adama zövq verir. Siz bizim qədim sənətimizi yaşadırsınız, burada şagirdlər də var, təlimlər keçirilir. Bu, deməyə əsas verir ki, xalçaçılıq sənəti Azərbaycanda əbədi yaşayacaq.

**Xalçaçılar:** Əlbəttə, Sizin sayənizdə, cənab Prezident.

**Prezident İlham Əliyev:** Bu sənəti yaşadan sizsiniz. Mən ona görə sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycanda xalçaçılığın çox böyük gələcəyi var. Biz qədim ənənələrimizi qorumaqla xalçaçılığı inkişaf etdiririk. Hazırda Sumqayıt şəhərində əyirici-boyaq fabriki tikilir. Fabrik tikiləndən sonra özümüzü həm boya ilə, həm ipliklə təmin edəcəyik. Bölgələrdə yun qəbulu məntəqələri yaradılır ki, keyfiyyətli xammal tədarük edilsin. Yəni xalçaçılıq Azərbaycanda tam yerli xammal əsasında inkişaf edəcək. Bir daha demək istəyirəm ki, ən önəmlisi, hər fabrikdə qadınlar üçün 100-dən çox, bəzilərində 120, 130, 150 iş yeri, gözəl şərait yaradılır ki, siz burada işləyəsiniz, yaxşı pul qazanasınız və bu sənəti əbədi yaşadasınız. Sağ olun.

**Sevda Cəbrayılova:** Çox sağ olun. Sizə nə qədər minnətdarlıq etsək, yenə də azdır. Hər dəfə buraya gəlməyiniz bizim üçün bayramdır. Gözləyirik, xalça emalatxanamıza tez-tez gəlin. Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Mən keçən il də, bu il də gəlmişəm. Bu, 15 il ərzində mənim Prezident kimi Lənkərana 10-cu səfərimdir. Bundan sonra hələ xeyli açılışlar olacaq, bəlkə bu fabrikin ikincisini də yarada bilərik.

**Xalçaçılar:** İnşallah.

**Nargilə Qənbərova:** Onsuz da müraciət edənlərin sayı çoxdur. Bəlkə də yüzü keçib.

**Sevda Cəbrayılova:** Sizinlə birinci dəfədir ünsiyyətdə oluruq, cənab Prezident. Bu, tarixə düşdü. Biz öz nənələrimizin xalçasını toxuyuruq.

**Nargilə Qənbərova:** Biz həmişə xalça toxumuşuq. Amma Lənkərana aid olan xalçaları, çeşniləri toxumamışıq. Bunu Siz yaratdınız.

**Prezident İlham Əliyev:** Lənkəranın çox qədim xalçaçılıq məktəbi, sənəti var. Burada sırf Lənkəran məktəbinin xalçaları toxunur. Mən sizi ürəkdən təbrik edirəm. Sağ olun.

**Xalçaçılar:** Sağ olun, var olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Lənkəran Regional Sınaq Laboratoriyasında hər cür şərait yaradılıb





Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkəran rayonuna səfəri çərçivəsində istifadəyə verilən müəssisələrdən biri də Qida Təhlükəsizliyi Agentliyinin Qida Təhlükəsizliyi İnstitutunun Lənkəran Regional Sınaq Laboratoriyası olub. AZƏRTAC xəbər verir ki, səkkiz şöbədən ibarət laboratoriyada inzibati və laborator baxış otaqları yaradılıb. Gün ərzində 300 sınaq aparmaq potensialına malik laboratoriyanın kimyəvi və bioloji tullantıların zərərsizləşdirilməsi, insinerator, soyuducu kamera və vivarium kimi yardımçı tikililəri vardır. Burada kimyəvi tullantıların neytrallaşdırma, o cümlədən bioloji tullantıların ozonlaşdırma texnologiyası əsasında zərərsizləşdirilməsi həyata keçirilir.

Nümunə qəbulu, toksikologiya, fiziki-kimyəvi müayinələr, mikrobiologiya, virusologiya, parazitologiya, karantin ekspertiza şöbələrində zəruri laborator müayinələrin aparılması üçün müasir avadanlıq quraşdırılıb, hər cür şərait yaradılıb.

# Ulu öndərin xatirəsinə ehtiram



Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Astara rayonuna səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev Prezident İlham Əliyevə abidənin ucaldıldığı Heydər Əliyev parkında yaradılan şərait və son illərdə rayonda həyata keçirilən layihələr barədə məlumat verdi.

# Hirkan-Daştatük-Biləsər avtomobil yolu 7 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsini yaxşılaşdıracaq





Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran rayonuna səfərləri çərçivəsində Hirkan-Daştatük-Biləsər avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yolun texniki göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, yolun uzunluğu 22 kilometrdir. Hirkan-Daştatük-Biləsər avtomobil yolu uzun müddət təmir olunmadığı və burada yola asfalt qatı vurulmadığı üçün hərəkət hissəsi sıradan çıxmış vəziyyətdə idi. Bu isə xüsusən payız-qış mövsümündə nəqliyyat vasitələrinin hərəkətində problemlər yaradırdı. Rayonun 7 yaşayış məntəqəsini birləşdirən Hirkan-Daştatük-Biləsər avtomobil yolunun tikintisinə Azərbaycan Prezidentinin sərəncamına əsasən dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 9,1 milyon manat vəsait ayrılıb. Görülən işlər nəticəsində Hirkan-Daştatük-Biləsər avtomobil yolu iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun şəkildə yenidən qurulub.

Məlumat verildi ki, yolun hərəkət hissəsinin eni 6 metrdir. Çiyinlər də daxil olmaqla yol yatağının eni isə 8-10 metr təşkil edir. Yol boyunca müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları quraşdırılıb, yolcizgi və yolgöstərici xətlər çəkilib, avtobus dayanacaqları inşa edilib.

Avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "7 nömrəli Yol İstismarı" MMC tərəfindən yüksək keyfiyyətlə aparılıb. Dağlıq ərazidə yerləşən, eləcə də Hirkan Milli Parkı ərazisindən keçən Hirkan-Daştatük-Biləsər avtomobil yolunun tikintisi 7 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edəcək.

Prezident İlham Əliyevə Astara rayonunun Ojakəran-Tüləküvan-Təngərüd avtomobil yolunun tikintisi barədə də məlumat verildi. Bildirildi ki, 9 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 11 kilometrdir.

Dövlət başçısının sərəncamı ilə bu yolun tikintisinə 3,4 milyon manat vəsait ayrılıb. Avtomobil yolu iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Dağlıq ərazidə yerləşən Ojakəran-Tüləküvan-Təngərüd avtomobil yolunun tikintisi əhatə etdiyi yaşayış məntəqələrinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın, kənd təsərrüfatının, habelə turizmin inkişafında mühüm rol oynayacaq. Yük və sərnişin daşınmasını xeyli yaxşılaşdırmağa imkan verən yolun tikinti işləri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "49 nömrəli Yol İstismarı" MMC tərəfindən həyata keçirilib.

Dövlət başçısı Astara rayonunun Taxtanəkəran-Miki, Taxtanəkəran-Toradi kəndlərarası avtomobil yollarının tikintisi ilə də maraqlandı.

Məlumat verildi ki, 12 min nəfər əhalinin yaşadığı və 38 yaşayış məntəqəsini birləşdirən kəndlərarası avtomobil yollarının yenidən qurulması məqsədilə ümumilikdə 11,5 milyon manat vəsait ayrılıb. Yolların tikintisi yüksək səviyyədə həyata keçirilib. Həmin yolların ümumi uzunluğu 27,4 kilometrdir. Bu yollar da iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub, sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək. Bu, həmçinin yerli və xarici turistlərin ərazidə yerləşən istirahət mərkəzlərinə rahat getmələrinə və tarixi mədəniyyət abidələri ilə tanış olmalarına şərait yaradacaq.

Dövlət başçısına və xanımına Astaraçay üzərində tikiləcək körpü və körpüyə qədər olan yolun planı barədə də məlumat verildi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hirkan-Daştatük-Biləsər avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdilər.

Sonda xatirə şəkli çəkdirildi.

# İstehlakçıların keyfiyyətli içməli su ilə təmin edilməsi dövlətin müəyyən etdiyi prioritetdir





Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Astara şəhərinin içməli su təchizatı sistemləri" layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına "Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi" layihəsi haqqında məlumat verdi.

Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2015-ci ildə "Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrasına başlanılıb. Layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla Astara şəhərində 28,5 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində gələcəkdə rayonda 73 min nəfərin yaşadığı 27 kəndə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə bu layihədən 102 min sakin faydalanacaq. Astara, Lənkəran şəhərləri və ətraf kəndləri içməli su ilə təmin etmək üçün mənbə olaraq Xanbulan su anbarı seçilib. İstehlakçıların keyfiyyətli içməli su ilə təmin edilməsi üçün su anbarının yaxınlığında məhsuldarlığı sutkada 30 min kubmetr və ya saniyədə 347 litr olan müasir tipli qum süzgəcli təmizləyici qurğu tikilib. 2013-cü ildən etibarən bu mənbə hesabına Lənkəran şəhəri və 5 kənd, 2017-ci ildən isə magistral kəmər boyunca yerləşən 15 kənd keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunur.

Sutəmizləyici qurğuda suyun təmizlənməsi heç bir kimyəvi reagentlərdən istifadə olunmadan aparılır və onun keyfiyyət göstəriciləri Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir. Burada emal prosesi tam avtomatlaşdırılıb və SCADA sistemi ilə vahid mərkəzdən idarə olunur. Emal prosesindən keçən suyun anbarlara ötürülməsi məqsədilə məhsuldarlığı saatda 750 kubmetr olan nasos stansiyası quraşdırılıb. Suyun optimal idarə olunması və özüaxımlı rejimdə paylanması məqsədilə dəniz səviyyəsindən 38 metr yüksəklikdə ümumi tutumu 20 min kubmetr olan 3 su anbarı inşa edilib. On min kubmetr tutumu olan su anbarı Lənkəran şəhəri və ətraf kəndlər, hər birinin tutumu 5 min kubmetr olan iki su anbarı isə Astara şəhəri və ətraf kəndlər üçün nəzərdə tutulub. Anbarlara daxil olan və çıxan suyun miqdarı, anbarlarda toplanan su ehtiyatının həcmi, suyun təzyiqi, siyirtmələrin iş rejimi və işçi vəziyyəti, eləcə də suyun bulanıqlıq səviyyəsi və qalıq xlorun miqdarı onlayn rejimdə tənzimlənir. Suyun anbardan Astara şəhərinə nəqli məqsədilə diametri 710 millimetr olan polietilen borularla 29,2 kilometr uzunluğunda magistral su xətti inşa edilib. Gələcəkdə Astara rayonunun 27 kəndinin su təchizatının yaxşılaşdırılması məqsədilə magistral kəmərdən hər bir kəndə çıxışlar verilib.

Diqqətə çatdırıldı ki, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə layihə çərçivəsində Astara müştəri xidmətləri sahəsi üçün müasir tipli inzibati bina tikilib. Ümumi sahəsi 220 kvadratmetr olan binada işçi otaqları, İT otağı, iclas zalı zəruri avadanlıqla təchiz edilib. İnzibati binanın həyətində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Dövlət başçısı Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin rəmzi açılışını bildirən düyməni basdı.

Bildirildi ki, layihə çərçivəsində Astara şəhərində 109 kilometr içməli su şəbəkəsinin inşası tam başa çatıb və bütün abunəçilərə ev birləşməsi verilərək 4300 su sayğacı quraşdırılıb. Suyun optimal idarə olunması məqsədilə şəbəkə üzərində 327 müxtəlif diametrli siyirtmə, yanğın təhlükəsizliyi məqsədilə 274 yanğın hidrantı quraşdırılıb. Astara şəhərində kanalizasiya şəbəkəsinin yaradılması üçün uzunluğu 70,5 kilometr olan kanalizasiya şəbəkəsi, 8 kilometr tunel tipli kanalizasiya kollektoru, iki kanalizasiya nasos stansiyası və məhsuldarlığı sutkada 6 min kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası da layihələndirilib. Layihənin növbəti mərhələsində kanalizasiya infrastrukturunun yaradılması nəzərdə tutulur.

Qeyd edildi ki, layihənin icrasına qədər Astara şəhərində 1980-ci illərdə yaradılmış su təchizatı infrastrukturundan istifadə olunurdu. Şəhərə içməli su Astara rayonunun Qapıçıməhəllə kəndində yerləşən drenaj quyularından verilirdi. Şəhərdə mövcud olmuş 41 kilometr uzunluğunda paylayıcı şəbəkə istismara yararsız vəziyyətə düşmüşdü. "Azərsu" ASC şəhərin 15 min sakininin 30 faizinə xidmət göstərirdi və içməli su fasiləli rejimdə verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Ümumilikdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq, 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 25-də su və kanalizasiya şəbəkələrinin, 11-də isə su şəbəkəsinin inşası yekunlaşıb. Bu ilin sonuna qədər daha 3 şəhərdə işlərin başa çatdırılması nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev Astara rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Bax: səh. 5

# İstehlakçıların keyfiyyətli içməli su ilə təmin edilməsi dövlətin müəyyən etdiyi prioritetdir

## Prezident İlham Əliyevin çıxışı





- Mən sizi salamlayıram. Bu gün Astara şəhərində çox gözəl, əlamətdar bir gündür. Biz Astara şəhərinə rəsmi olaraq içməli suyun verilməsini qeyd edirik. Mənə verilən məlumata görə, artıq iki aya yaxındır ki, evlərə təmiz içməli su verilir. Bu, çox gözəl hadisədir. Mən də bu gün gəlmişəm ki, bu gözəl hadisəni sizinlə birlikdə rəsmi qaydada qeyd edim.

İçməli su insan sağlamlığı üçün əsas şərtdir. Bunu hər kəs bilir. Astara şəhərində də bu problem öz həllini tapıb. Beləliklə, şəhər sakinlərinə Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Növbəti mərhələdə artıq bir çox kəndlərə də suyun verilməsi nəzərdə tutulur. Əlbəttə, növbəti illərdə bu məqsədlə əlavə vəsait ayrılacaq ki, bu problem öz həllini tapsın. İçməli su layihələrinin icrası böyük maliyyə vəsaiti, çox böyük investisiyalar tələb edir. Biz bunu edirik ki, insanlar çox təmiz, keyfiyyətli su ilə təmin olunsunlar. Çünki bir daha demək istəyirəm ki, sağlamlıq üçün, normal həyat tərzi üçün içməli su əsas şərtdir.

Bir çox rayonlarımızda içməli su layihələri icra edilir. Artıq açılışlar da olub, növbəti illərdə də açılışlar olacaq. Qarşıya məqsəd qoyulubdur ki, Azərbaycanın bütün şəhərlərində 100 faiz tam standartlara uyğun içməli su layihələri icra edilsin və beləliklə, biz ölkə qarşısında duran əsas infrastruktur məsələlərini həll etmiş oluruq.

Digər layihələrə gəldikdə, Astara rayonunda infrastrukturun yaradılması sürətlə gedir, qazlaşdırma 83 faizdir, kənd yollarının tikintisi geniş vüsət alıb. Mənə verilən məlumata görə, Astara rayonunun kənd yollarının 92 faizi yenidən qurulub. Bu, çox gözəl göstəricidir. Gələn ilin Dövlət İnvestisiya Proqramında yeni, növbəti layihə nəzərdə tutulur. Beləliklə, hesab edirəm ki, bütün kəndlərin yolları çox gözəl səviyyəyə çatdırılacaqdır.

Eyni zamanda, keçən ay Bakı-Astara avtomobil yolunun açılışı olmuşdur. Bu, ən yüksəksəviyyəli, çox rahat, təhlükəsiz yoldur. Bilirsiniz ki, yolun yeni istiqaməti müəyyən edilib, yeni tras çəkilib və yolun uzunluğu 40 kilometr qısalıb. Bu yol heç bir şəhərə girmədən düz Astaraya qədər gəlir. Beləliklə, yol boyu yaşayış məntəqələrinin rahatlığı təmin edilir. Əvvəllər bütün yol boyu yerləşən şəhərlərə yük maşınları girirdi və insanları narahat edirdi. İndi bütün yol boyu şəhərlərimiz - Lənkəran, Masallı, Cəlilabad, Biləsuvar, Salyan bu problemdən azad olunub. Bir qalıb ki, Astara şəhərinin problemi də həll olunsun, biz bunu da edəcəyik. Çünki bir hissə qalıb. Azərbaycan-İran sərhədinə qədər yeni yol çəkiləcək. Belə olan halda qonşu ölkəyə yük maşınları və vətəndaşlar Astara şəhərinə girmədən birbaşa sərhədə gedəcəklər. Biz bu layihə üzərində işləyirik, müəyyən işlər görülüb, torpaq ayrılıb, hətta torpağın birinci layları da hamarlanıb. Həm bu il, həm gələn il əlavə vəsait ayrılacaq. Hesab edirəm ki, gələn ilin ortalarına qədər mövcud Bakı-Astara trasından Azərbaycan-İran sərhədinə qədər yeni tras çəkiləcək və heç bir tranzit yük maşını Astara şəhərinə girməyəcək. Biz bunu da edəcəyik ki, Astara sakinləri bu problemlərdən azad olsunlar.

Digər layihələrə gəldikdə, bildiyiniz kimi, 2005-ci ildə Astara şəhərində modul tipli elektrik stansiyası tikilmişdir. Bu stansiya həm rayona, həm də bütün bölgəyə xidmət edir. Beləliklə, elektrik enerjisi ilə təchizat məsələləri də həll olunub. Bu gün içməli su layihəsi, - qazlaşdırmanı dedim, - kənd yolları çəkilir. Yeni Astarada əsas infrastruktur məsələləri, demək olar ki, öz həllini tapmaqdadır.

Sosial infrastruktura gəldikdə, rayonda son illərdə 35 məktəb, Olimpiya İdman Kompleksi tikilib, mərkəzi rayon xəstəxanası əsaslı şəkildə təmir edilib, digər sosial obyektlər yaradılır. Astara rayonunun çox böyük turizm potensialı var. Bakı-Astara yolu istifadəyə veriləndən sonra, əlbəttə ki, turistlərin sayı da artmalıdır və artacaq. Xarici turistlər Astaraya üz tuturlar. Burada turizm infrastrukturu, eyni zamanda, istirahət zonaları, o cümlədən bulvar kompleksi yaradılır. Astara sakinləri üçün bulvar kompleksinin yaradılmasına əlavə vəsait ayrılmışdır ki, bu istirahət zonası daha da böyük ərazini əhatə etsin.

Bilirsiniz ki, keçən il Lənkəranda bu zonanın inkişafına təkan verəcək çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirə keçirilmişdir. Müşavirədən sonra dövlət proqramları qəbul edilmişdir və bu sahədə də irəliləyiş var. Ona görə kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir. Turizm infrastrukturunun yaradılması öz həllini tapır. Yeni iş yerlərinin yaradılması prosesi də gedir. Çünki kənd təsərrüfatına verilən böyük dəstək, əlbəttə ki, məşğulluğu artırır, insanlar daha da yaxşı imkanlar əldə edirlər, öz rifah halını yaxşılaşdırırlar və bu gözəl diyarda işlər daha da yaxşı gedəcək.

Artıq qeyd etdiyim kimi, gələcəkdə Bakı-Astara avtomobil yolunun İran sərhədinə çatdırılması layihəsi icra olunacaq. Eyni zamanda burada kommunal evlərdə yaşayan insanlar üçün 48 mənzildən ibarət yeni yaşayış binası tikiləcək. Gələn ilin investisiya proqramında yeni kənd yollarının layihəsi nəzərdə tutulur. Hesab edirəm ki, bu məsələlər həll ediləndən sonra biz əsas infrastruktur layihələrini yerinə yetirmiş oluruq. Gələcəkdə, sadəcə olaraq, bu imkanlardan istifadə edilməlidir ki, rayonun potensialı daha da böyüsün. Sahibkarlığın, qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafı, burada yeni emal müəssisələrinin yaradılması nəzərdə tutulur. Ənənəvi kənd təsərrüfatı sahələri daha da sürətlə inkişaf etməlidir. Bu məqsədlə lazımi tədbirlər görülür, dövlət tərəfindən kifayət qədər böyük diqqət göstərilir.

Astara rayonunda və qonşu rayonlarda son illər ərzində görülmüş işlər çox böyük maliyyə vəsaiti tələb edən işlərdir. Həm elektrik, həm qaz, həm də yol təsərrüfatlarının, Lənkəran beynəlxalq aeroportunun yaradılması, su layihələrinin icrası, magistral yolların çəkilişi, kənd təsərrüfatına verilən dəstək böyük maliyyə vəsaiti tələb edir. Biz bunu da edirik və etməliyik. Çünki regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bunu tələb edir. Bu proqramı da biz qəbul etmişik və bu ilin sonunda III Dövlət Proqramı başa çatır. Demək olar ki, biz proqramı artıqlaması ilə icra etmişik, o cümlədən proqramda Astara rayonuna aid olan bütün məsələlər artıqlaması ilə öz həllini tapıbdır.

Deyə bilərəm ki, sonuncu böyük layihə, bax, bu gün rəsmi qaydada istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Astara şəhərindəki sahil boyu park-bulvar kompleksi yeni istirahət məkanıdır





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi çərçivəsində yaradılan şəraitlə tanış olub. Ölkəmizdə yeni-yeni istirahət guşələri, park və xiyabanların yaradılması və onların vətəndaşların ixtiyarına verilməsi həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biridir. Prezident İlham Əliyevin tapşırığına əsasən, son illərdə paytaxt Bakı ilə yanaşı, respublikanın digər şəhər və rayonlarında da yeni park, xiyaban, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində mühüm işlər görülüb. Bu məsələyə Astarada da xüsusi diqqətlə yanaşılır.

AZƏRTAC xəbər verir ki, bu rayonda yeni istirahət məkanlarının yaradılması istiqamətində reallaşdırılan ən mühüm layihələrdən biri də Astara şəhərində dəniz sahil boyu park-bulvar kompleksinin ikinci hissəsidir.





Məlumat verildi ki, park-bulvar kompleksində rayon sakinlərinin və qonaqların istirahətinin yüksək səviyyədə təşkili, onların asudə vaxtlarının yaddaqalan və mənalı keçməsi üçün geniş imkanlar yaradılıb. Xəzərin sahilindəki bu kompleks həm də Astara şəhərinin simasının daha da gözəlləşdirilməsi, onun inkişaf tempinin nümayiş olunması baxımından da çox əhəmiyyətlidir. Dövlət tərəfindən vətəndaşların istirahətlərini mənalı təşkil etmək və onların asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımlar atılır. Bu istiqamətdə son illərdə çox mühüm işlər görülüb. Bu kompleksdəki şərait də bunu sübut edir. Bu, həm də dünyada hökm sürən iqtisadi böhran dövründə ölkəmizdə sosial layihələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini aydın şəkildə nümayiş etdirir.

Dövlət başçısı elektromobillə kompleksin ərazisini gəzdi.

Astara şəhərində dənizkənarı park-bulvar kompleksi ərazisinin genişləndirilməsi ilə bağlı inşaat işlərinə Prezident İlham Əliyevin 2017-ci ilin iyunun 8-də imzaladığı sərəncama əsasən başlanılıb. Tikinti işləri 2018-ci ilin avqust ayında başa çatdırılıb. Park-bulvar kompleksinin ikinci hissəsinin ərazisi 10 hektar sahəni əhatə edir. Bu istirahət məkanının 500 metrlik hissəsi Xəzər dənizinin sahili boyunca uzanır. Ərazidə 52 metr hündürlüyündə dövlət bayrağı ucaldılıb, qala divarı, fəvvarə kompleksi, süni şəlalə quraşdırılıb. Bundan başqa, istirahət məkanında iki hektar sahəsi olan “Zirvə” idman klubuna məxsus atçılıq mərkəzi, avtokartinq meydançası, açıq fitnes meydançası tikilib, velosiped zolağı salınıb, uşaqlar üçün attraksionlar, oturacaqlar, işıq dirəkləri və suvarma sistemi quraşdırılıb. Ərazidə genişmiqyaslı yaşıllıq işləri görülüb, gül, dekorativ kol və ağaclar, həmçinin yerli meşə ağacları əkilib.

Belə layihələrin icrası Astaranın abadlaşdırılması, gözəlləşdirilməsi və müasirləşdirilməsi istiqamətində görülən işlərin davamlı olduğunu və bu işlərin yüksək keyfiyyətlə və vaxtında yerinə yetirildiyini bir daha sübut edir. Bir sözlə, müasir üslubda, orijinal dizaynda və yüksək zövqlə yaradılan bu istirahət məkanı Astaranın gəzməli-görməli yerlərinə daha bir ünvanı da əlavə edir.

# Ulu öndərin xatirəsinə ehtiram



Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Lerik şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoydu. Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Prezident İlham Əliyevə son dövrlərdə rayonda həyata keçirilən sosial-iqtisadi layihələr barədə məlumat verdi.

# Piran-Hamarat-Vijaker avtomobil yolu 9100 nəfərin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirir

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Azərbaycanda yüksəksürətli və dayanıqlı sosial-iqtisadi inkişafa nail olunub. Sosial-iqtisadi islahatların vacib tərkib hissələrindən biri də yol infrastrukturunun müasirləşdirilməsi, bu sahədə dünyanın mütərəqqi təcrübəsinin tətbiq edilməsidir. Dövlət başçısının sərəncam və tapşırıqlarına uyğun olaraq, ölkəmizin əsas magistral yolları qısa müddətə və müasir səviyyədə yenidən qurulub. Bundan sonra diqqət kənd və qəsəbələri birləşdirən yolların yenilənməsinə yönəlib. Prezident İlham Əliyevin diqqəti sayəsində indi ölkəmizdə kənd yollarının müasirləşdirilməsi,



əvvəllər yol olmayan kənd və qəsəbələrə yüksək səviyyədə yolların çəkilməsi geniş vüsət alıb. Bu cür layihələrin miqyası və coğrafiyası ildən-ilə daha da genişlənir. Bunu Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidən qurulması da aydın nümayiş etdirir. Belə sosial layihələr kənd və qəsəbələrin sakinlərinin həyatına birbaşa təsir edir, onların istehsal etdiyi məhsulların alıcılara tez və rahat şəkildə çatdırılmasına imkan verir. Bununla yanaşı, yeni yolların inşası bölgələrimizin turizm potensialının artırılmasına və turist axınının təmin edilməsinə geniş imkanlar yaradır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına Piran-Hamarat-Vijaker avtomobil yolunda aparılan yenidənqurma işləri ilə bağlı məlumat verdi.

Bu avtomobil yolunun tikintisinə Prezident İlham Əliyevin bu il avqustun 18-də imzaladığı sərəncama əsasən dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 11,3 milyon manat ayrılıb. Yol 9100 nəfərin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirir. Ümumi uzunluğu 26 kilometr olan yol 4-cü texniki dərəcəyə aiddir.

Ardı 6-cı səh.

# Piran-Hamarat-Vijaker avtomobil yolu 9100 nəfərin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirir





Əvvəli 5-ci səh.

İkizolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Layihənin icrası çərçivəsində suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol-cizgi xətləri çəkilib. Bir sözlə, yol müasir səviyyədə, texnoloji ardıcıllığa uyğun və bütün tələblərə cavab verməklə yenidən qurulub.

Dövlət başçısına Lerik rayonunun Noda-Şingədulan-Xanagah avtomobil yolunun tikintisi barədə də məlumat verildi.

Otuz min nəfərin yaşadığı və 50 yaşayış məntəqəsini birləşdirən bu avtomobil yolunun tikintisi üçün Prezident İlham Əliyevin 2013-cü ildə imzaladığı sərəncamla Lerik Rayon İcra Hakimiyyətinə ilkin olaraq 2 milyon manat, 2014-cü ildə imzalanan sərəncamla isə əlavə olaraq 7 milyon manat ayrılıb. 2016-cı ildə imzalanan digər sərəncama əsasən isə yolun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,6 milyon manat vəsait ayrılıb və yolun tikintisi başa çatdırılıb.

Qeyd edildi ki, ümumi uzunluğu 36 kilometr, eni 6 metr olan yol 4-cü texniki dərəcəyə aiddir və ikizolaqlıdır. Yolun inşası zamanı müxtəlif diametrli suötürücü borular tikilib, iki körpü keçidi inşa olunub. Bu yolun tikilməsi bölgədə sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək. Həmçinin sözügedən avtomobil yolunun tikintisi yerli və xarici turistlərin ərazidə yerləşən istirahət mərkəzləri və yerli tarixi mədəniyyət abidələri ilə də tanış olmalarına şərait yaradacaq.

Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycanda aparılan dövlət siyasətinin mərkəzində vətəndaşların sosial məsələlərinin həlli dayanır

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin icrasının yekunlaşması münasibətilə keçirilən mərasimdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı





- Bu gün yenidən Lerik rayonundayam, çox şadam ki, sizinlə görüşürəm. Bu, mənim Prezident kimi Lerik rayonuna dördüncü səfərimdir. Əvvəlki illərdə Lerik rayonunun inkişafı ilə bağlı bir çox önəmli qərarlar verildi. Bu qərarların icrası nəticəsində rayonun inkişafı sürətlə getməyə başladı. Əlbəttə, ilk növbədə biz Lənkəran-Lerik yolunun çəkilişi ilə məşğul olduq. 2005-ci ildə müvafiq göstəriş verilmişdi və yol çəkildi. Əvvəllər də yol olub, amma çox bərbad vəziyyətdə idi və yolun çəkilişindən sonra Lerikdə inkişaf daha da sürətlə getməyə başladı. Bu ilin yayında mənə məlumat verildi ki, yol artıq sıradan çıxıb və Prezidentin Ehtiyat Fondundan 5 milyon manat vəsait ayrıldı və yol yenidən çəkilməyə başlanmışdır. Qalan vəsait də Dövlət İnvestisiya Proqramından ayrılacaq ki, Lənkəran-Lerik yolu ən yüksək standartlara cavab versin. Deyə bilərəm ki, yol bu gün də yaxşı vəziyyətdədir, ancaq daha yaxşı vəziyyətdə olacaq.





Bildiyiniz kimi, sovet vaxtında Lerikdə qazlaşdırma aparılmamışdı. Lerik şəhərinin təbii qazla təmin edilməsi üçün müvafiq göstəriş verildi və qaz xətti çəkildi. Bu gün mənə verilən məlumata görə, Lerik rayonunda qazlaşdırma 36 faiz səviyyəsindədir. Rayonun relyefini, dağlarını nəzərə alsaq, hesab edirəm ki, bu, yaxşı göstəricidir. İmkan daxilində Lerik rayonunun qazlaşdırılması ilə bağlı əlavə addımlar atılacaqdır.

Bu gün Lerikdə 16 meqavat gücündə yeni elektrik stansiyasının açılışı nəzərdə tutulur. Beləliklə, bu enerji ümumi sistemə verilərkən nəinki Lerik rayonunun tələbatını, eyni zamanda bütün cənub zonasının enerji təsərrüfatının dayanıqlığını təmin edəcək. Əlbəttə ki, biz ilk növbədə Lerik rayonunu etibarlı enerji mənbəyi ilə təmin edəcəyik.

Bu gün biz artıq Lerik şəhərinin içməli su ilə təminatını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Artıq bu layihə icra edildi. Onun icrası üçün çox böyük vəsait ayrıldı və biz buna nail ola bilmişik. İçməli su insan sağlamlığı üçün əsas şərtdir və bundan sonra vətəndaşlar təmiz, ən yüksək standartlara cavab verən içməli su ilə təmin olunacaqlar.

Lerik uzunömürlülər diyarıdır, burada insanlar çox sağlamdırlar. Dünya miqyasında Lerik haqqında kifayət qədər məlumat var. Lerikdə Uzunömürlülər Muzeyi də var. Mən səfərlərimin birində muzeylə tanış olmuşam. Ancaq içməli su layihəsi icra olunandan sonra insanların sağlamlığı daha da yaxşı olacaq.

Bu əsas infrastruktur məsələlərinin həlli göstərir ki, Azərbaycanın bütün bölgələrində, bütün rayonlarında sürətlə iş gedir. Lerik Azərbaycanın ən ucqar rayonlarından biridir. Həm dağlıq ərazidir, həm əsas magistral yollardan uzaqdır. Amma buna baxmayaraq, burada həyat qaynayır, inkişaf gedir, rayonun sosial-iqtisadi göstəriciləri də yaxşıdır. Burada yaradılan müasir infrastruktur insanlara xidmət göstərir və rayonun gələcək iqtisadi, sosial inkişafını təmin edir.

Biz eyni zamanda Lerik rayonunda sosial məsələlərin həlli ilə ciddi məşğul olmuşuq. Rayonda 50-dən çox məktəb təmir olunub və ya yenidən tikilib. Mədəniyyət Mərkəzi yaradılıb, mərkəzi rayon xəstəxanası əsaslı şəkildə təmir olunub və müasir avadanlıqla təchiz edilib. Yeni sosial infrastruktur, elektrik xətləri, qazlaşdırma, su xətləri, yollar - bütün bunlar reallıqdır. Bu gün mən buraya gələrkən yeni kənd yolunun açılışını etdik. Uzunluğu 20 kilometrdən çox olan, bir neçə kəndi birləşdirən, 11 min əhaliyə xidmət göstərən yeni kənd yolu açılıb. Kənd yollarının yenidən qurulması baxımından Lerik Azərbaycanda ən qabaqcıl yerlərdədir. Mənə verilən məlumata görə, son illərdə görülən işlər nəticəsində Lerik rayonunun kəndlərinin 88 faizi müasir yollarla əhatə edilib və yeni layihə, - o da təqribən uzunluğu 20 kilometrdən çox olan kənd yolu layihəsi, - gələn ilin Dövlət İnvestisiya Proqramında nəzərdə tutulub və gələn il biz o yolu da tikəcəyik, vətəndaşların sərəncamına verəcəyik.

Bütün bunları biz regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində həll etmişik. Bildiyiniz kimi, bu il III Dövlət Proqramının icrası başa çatır. Proqram artıqlaması ilə icra edilib, biz bunu Lerik rayonunun timsalında görürük. Növbəti illər üçün yeni proqram hazırlanır və indi bölgələrdən təkliflər daxil olur. Mən Lerik ictimaiyyətindən də xahiş edirəm ki, onlar da təklifləri göndərsinlər. Hökumətdə bu proqrama baxılacaq, iqtisadi və sosial məsələlərin həlli növbəti illərdə təmin ediləcəkdir.

Bütövlükdə ölkəmizdə - bütün bölgələrdə, bütün rayonlarda inkişaf sürətlə gedir. Ölkəmizin bu uğurlu inkişafı, əlbəttə ki, xalqımızı da sevindirir, Azərbaycanın beynəlxalq nüfuzu, bizim gücümüz artır və iqtisadi sahədə aparılmış düzgün siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Biz iqtisadi baxımdan heç kimdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik. Güclü iqtisadiyyat, düşünülmüş iqtisadi siyasət, maliyyə imkanlarımızın genişləndirilməsi imkan verir ki, bütün bölgələrdə, ən ucqar yerlərdə gözəl layihələr icra edilsin. Bu gün Lerikdə açılacaq 16 meqavat gücündə yeni elektrik stansiyası özlüyündə böyük bir infrastruktur layihəsidir. İçməli su, qazlaşdırma - bütün bunları biz öz hesabımıza edirik. Heç kimdən yardım, heç kimdən kredit almadan. İndi kreditlərə də ehtiyac qalmır. Düzdür, biz indi bəzi kreditləri alırıq, ancaq o proses də, demək olar ki, dayandırıldı. Biz özümüz bəzi xarici ölkələrə kreditlər veririk və bundan faiz qazanırıq. Yəni bu gün Azərbaycan, sözün əsl mənasında, öz sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf bütün bölgələrdə özünü büruzə verir, o cümlədən Lerik rayonunda.

Qeyd etdiyim kimi, Lerikə dördüncü dəfə səfər edirəm və bundan sonra da səfərlər olacaq. Əminəm ki, bu gün verilən tapşırıqlar, qərarlar gələcəkdə gözəl nəticələrə gətirib çıxaracaqdır. Lerikin gələcək iqtisadi və sosial inkişafı ilə bağlı əlavə addımlar atılacaq, sərəncam imzalanacaq. Bilirəm, kənd yollarının tikintisi ilə bağlı layihələr hələ ki gündəlikdədir. Eyni zamanda məktəblərin tikintisi, ev təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr olacaq. Ona görə bir daha demək istəyirəm ki, sizi narahat edən məsələlər məruzə edilsin və müvafiq göstərişlər veriləcək. Bu günə qədər biz bu yolla getmişik və bu gün gözəl nəticələrə çatmışıq.

Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Ardı 7-ci səh.

# Azərbaycanda aparılan dövlət siyasətinin mərkəzində vətəndaşların sosial məsələlərinin həlli dayanır



*Əvvəli 6-cı səh.*

Sonra "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Prezident İlham Əliyevə layihə haqqında məlumat verdi.

Bildirildi ki, bu layihə çərçivəsində Lerik şəhərində içməli su şəbəkəsinin və sutəmizləyici qurğunun, çirkab suların şəhər ərazisindən kənarlaşdırılması üçün kanalizasiya şəbəkəsinin və çirkab sutəmizləyici qurğunun tikintisi nəzərdə tutulub. Layihə çərçivəsində tikinti işlərinə 2011-ci ildən başlanılıb. Lerik şəhər əhalisinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə Zuvandçay çayı üzərində sugötürücü qurğu inşa edilib. Sugötürücü qurğudan suyun öz axımı ilə şəhər ərazisindəki sutəmizləyici qurğuya ötürülməsi üçün 17,49 kilometrlik magistral xətt çəkilib. Yay aylarında Zuvandçay çayında suyun azalması nəzərə alınaraq, əlavə olaraq Nisliçay çayı üzərində sugötürücü qurğu inşa edilib. Nisliçay çayından götürülən sular nasos stansiyası vasitəsilə uzunluğu 90 poqonmetr olan təzyiqli boru ilə Zuvandçay çayından Lerik şəhərindəki təmizləyici qurğuya çəkilən magistral su xəttinə ötürüləcək. Sugötürücü qurğulardan qəbul edilərək magistral su xətti ilə saniyədə ötürülən 20,2 litr suyun təmizlənməsi üçün şəhər ərazisində gündəlik gücü 2,6 min kubmetr olan içməli sutəmizləyici qurğu kompleksi inşa edilib. Lerik şəhəri ərazisində içməli suyun yığılması və paylanması məqsədilə tutumu 1500 kubmetr olan 4 su anbarı tikilib. Şəhərin yüksəklikdə yerləşən hissəsindəki evlərə içməli suyun nəqli üçün tutumu 500 kubmetr olan anbarda məhsuldarlığı saniyədə 1,54 litr olan iki nasos quraşdırılıb. Su anbarlarından Lerik şəhər əhalisinə içməli suyun verilməsi üçün uzunluğu 55 min 55 poqonmetr olan içməli su şəbəkəsi tikilib, 1821 ev su sayğacı ilə təmin edilərək bu şəbəkələrə qoşulub.

Diqqətə çatdırıldı ki, çirkab suların şəhər ərazisindən toplanaraq təmizləyici qurğuya ötürülməsi üçün uzunluğu 1579 poqonmetr olan kanalizasiya kollektor xətti, uzunluğu 1409 poqonmetr olan təzyiqli çirkab su xətti, eləcə də uzunluğu 41 min 289 poqonmetr olan çirkab su şəbəkəsi çəkilib. Kanalizasiya şəbəkəsi üzərində 1296 baxış quyusu və gündəlik gücü 1530 kubmetr olan təmizləyici qurğu inşa edilib.

Məlumat verildi ki, Lerik şəhərinin ilk su təchizatı sistemi 1968-ci ildə yaradılıb. Şəhərin yalnız 50 faizi mərkəzləşdirilmiş qaydada fasiləli rejimlə içməli su ilə təmin edilirdi. Ümumiyyətlə, Lerikdə kanalizasiya şəbəkəsi olmayıb. Bu cür layihələrin icrası ölkəmizdə sosial siyasətin uğurla həyata keçirildiyinin əyani göstəricisidir. Bu işlər bir daha sübut edir ki, vətəndaşların sosial məsələlərinin həlli Azərbaycanda aparılan dövlət siyasətinin mərkəzində dayanır və bu istiqamətdə icra olunan layihələr davamlıdır.

Prezident İlham Əliyev Lerik şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

# Dövlət atributlarına ən yüksək səviyyədə göstərilən diqqətin bariz nümunəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Lerikdə Bayraq Muzeyinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Bayraq Muzeyi və hündürlüyü 36 metr olan bayraq dirəyinin yerləşdiyi Dövlət Bayrağı Kompleksi Lerik şəhərinin mərkəzində, ümummilli lider Heydər Əliyevin adını daşıyan meydanın ərazisində yerləşir. Bu muzeyin inşasına 2018-ci ilin martında başlanılıb. Tikinti işləri bu ilin avqustunda başa çatdırılıb.

Bildirildi ki, muzeyin ümumi sahəsi 1200 kvadratmetr olan binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Muzeyin sərgi zalında Azərbaycan xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsrlərdə xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş gerblər, bayraqlar, Azərbaycanın konstitusiyaları, Silahlı Qüvvələrimizin müxtəlif qoşun birləşmələrinin geyim formaları, poçt markaları, orden və medallar nümayiş olunur.

Bölgələrdə Bayraq muzeylərinin və Bayraq meydanlarının yaradılması Azərbaycanın dövlət atributlarına ən yüksək səviyyədə göstərilən diqqətin bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda, əsl vətənpərvər kimi tərbiyə olunmasına mühüm töhfə verir. Bununla yanaşı, bu işlər həm də Azərbaycan dövlətinin müstəqilliyini əks etdirən və hər bir vətəndaş üçün müqəddəs olan üçrəngli bayrağımıza göstərilən hörmət və ehtiramın təcəssümüdür. İndi Azərbaycan bayrağı ən nüfuzlu beynəlxalq təşkilatlar və mötəbər məclislərdə qürurla dalğalanır, dövlətimizi şərəflə təmsil edir.







# Lerik rayonundakı elektrik stansiyası 75 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunda gücü 16,5 MVt olan elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərenerji" QSC-nin sədri Baba Rzayev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bölgələrdə bu cür elektrik stansiyalarının yaradılması həm enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, həm də regionların inkişafına təkan verməklə əlavə iş yerlərinin açılmasına səbəb olur. Bu baxımdan Lerik rayonunda gücü 16,5 MVt olan elektrik stansiyası da əhəmiyyəti ilə seçilir.



Bildirildi ki, ölkənin cənub bölgəsinin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədilə "2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"na əsasən Lerikin elektrik təchizatı sistemində yenidənqurma işlərinin aparılması çərçivəsində rayonda gücü 16,5 MVt olan elektrik stansiyasının tikintisi həyata keçirilib. Elektrik stansiyası Lerik şəhər mərkəzindən bir kilometr cənubda, Cəngəmiran kəndində 3,6 hektar ərazidə yerləşir. Burada hər birinin gücü 3,3 MVt olan beş mühərrik-generator, həmçinin 35 kV və 10 kV-luq yarımstansiyalar quraşdırılıb. Bundan başqa, gücü 25 MVA olan 35/10 kV-luq blok transformatoru, hər birinin gücü 10 MVA olan 35/10 kV-luq iki güc transformatoru və hər birinin gücü 630 kVA olan 10/0,4 kV-luq iki ədəd xüsusi sərfiyyat transformatoru da layihənin komponentləri sırasındadır. Burada gücü 500 kVA olan dizel generatoru, rele mühafizəsi və avtomatika sistemləri, həcmi 20 kubmetr olan qəza yağ tutumu sistemi quraşdırılıb. Eyni zamanda, həcmi 250 kubmetr olan yanğınsöndürmə sisteminin yerüstü ehtiyat su çəni qoyulub, diametri 200 millimetr olan 6 kilometrlik qaz xətti, uzunluğu 25 kilometr ikidövrəli 35 KV gərginlikli elektrik verilişi, uzunluğu 16 kilometr olan 10 KV gərginlikli 8 elektrik verilişi xətləri çəkilib.

Dövlət başçısı elektrik stansiyasını işə saldı.

Bu layihə bölgənin enerji təminatı baxımından əhəmiyyəti ilə seçilir. Belə ki, regionun enerji təminatının keyfiyyət göstəricilərini yaxşılaşdıracaq stansiya ildə 75 milyon kilovat-saat elektrik enerjisi istehsal etmək imkanına malikdir. Müqayisə üçün deyək ki, bu, Lerik və Yardımlı rayonlarının elektrik enerjisinə tələbatından 40 faiz çoxdur. Bununla yanaşı, regionun ucqar nöqtələrində gərginlik səviyyəsinin normadan aşağı düşməsi hallarının qarşısı alınacaq. Stansiyanın faydalı iş əmsalı 45 faiz təşkil edir. Burada əsas yanacaq kimi qazdan istifadə olunur.

# Heydər Əliyev Fondundan körpələrə növbəti töhfə

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 100 yerlik Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.





Uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların sağlam və xoşbəxt böyüməsi bu gün dövlətimizin həyata keçirdiyi siyasətdə mühüm yer tutur. Respublikamızın bütün bölgələrində yeni körpələr evi-uşaq bağçalarının inşası, onların müasir avadanlıqla təchiz edilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən böyük dəstək verilir. Bu istiqamətdə həyata keçirilən dövlət proqramları ilə yanaşı, Heydər Əliyev Fondu da bu sahəyə xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı uşaqların təlim-tərbiyəsinin, onların bilikli və savadlı yetişməsinin fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etdiyini bir daha sübut edir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş bağçalardan biri də Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasıdır. Bu cür gözəl və hərtərəfli şəraiti olan körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bir daha sübut edir ki, dövlətimizlə bərabər, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da gələcəyimiz olan uşaqlarla bağlı bütün məsələlərə xüsusi həssaslıqla yanaşır, onların sağlam və xoşbəxt böyüməsi üçün əlindən gələni əsirgəmir. Müasir görkəmi ilə seçilən belə müəssisələr həm də yerləşdiyi ərazinin gözəlliyini daha da artırır.



Bildirildi ki, bu uşaq müəssisəsinin inşasına 2015-ci ilin mayında başlanılıb. İnşaat işləri 2018-ci ilin mayında yekunlaşıb. İkimərtəbəli binada qrup, yataq, yemək otaqları və xidməti otaqlar var. Burada eyni zamanda musiqi və gimnastika, həmçinin kompüter otağı da balacaların ixtiyarına verilib. Müxtəlif qrupların fəaliyyət göstərəcəyi bağçada uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq, onların istedadlarını üzə çıxarmaq üçün hərtərəfli şərait yaradılıb. Otaqların hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Körpələr evi-uşaq bağçasının ərazisində balacaların əylənməsi üçün meydança yaradılıb.

Müəssisədə 22 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.

Bütün bunlar bir daha göstərir ki, Heydər Əliyev Fondunun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Ümumilikdə ölkədə son illərdə uşaqların sosial müdafiəsinin gücləndirilməsi və onların xoşbəxt böyümələri naminə olduqca mühüm layihələr icra edilib. Bunların arasında mövcud körpələr evi-uşaq bağçalarının əsaslı təmiri ilə yanaşı, yeni-yeni bu cür müasir müəssisələrin yaradılması vacib əhəmiyyət kəsb edir.





# Lənkəran rayonunda çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində Lənkəranda infrastruktur layihələrinin yerinə yetirilməsi və ümumilikdə əhalini narahat edən problemlərin həlli sahəsində mühüm tədbirlər həyata keçirilmiş, o cümlədən Olimpiya İdman Kompleksi, Lənkəran Beynəlxalq Hava Limanı, "Lənkəran İstisu Sağlamlıq" Mərkəzi, Regional Müalicə-Diaqnostika Mərkəzi, Uşaq Sağlamlıq, Əlillərin Reabilitasiya və Gənclər mərkəzləri, Bayraq Meydanı, əlil və şəhid ailələri üçün ümumilikdə 90 mənzilli 3, evləri qəzalı vəziyyətdə olan sakinlər üçün 80 mənzilli 3 yaşayış binası inşa edilmiş, Lənkəran Dövlət Dram Teatrının, Şəhər Mədəniyyət Mərkəzinin, Tarix-Diyarşünaslıq Muzeyinin, 350 çarpayılıq Rayon Mərkəzi Xəstəxanasının binaları və mərkəzi stadion əsaslı təmir olunmuş, ən müasir tələblərə cavab verən turizm obyektləri, 42 ümumtəhsil müəssisəsi istifadəyə verilmişdir. Bununla yanaşı, Lənkəran şəhərinin su təchizatı sistemi yenidən qurulmuş, 110/35/10 kV-luq "Lənkəran-2" elektrik yarımstansiyası istismara verilmiş, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, xalçaçılıq müəssisəsi və digər iri istehsal və emal müəssisələri yaradılmış, 30 mindən çox yeni iş yeri açılmış, abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Lənkəran rayonunda çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi işlərinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Lənkəran rayonunda 148 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Lənkəran Şəhər İcra Hakimiyyətinə 3,66 milyon (üç milyon altı yüz altmış min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

# Lənkəran rayonunun Şıxakəran kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Lənkəran rayonunun Şıxakəran kəndində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

# Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə yağan aramsız yağıntılar nəticəsində uzunluğu 55 km olan Lənkəran-Lerik avtomobil yolunda çoxsaylı sürüşmə və uçqunlar baş vermiş, yolun bəzi hissələrində nəqliyyat vasitələrinin hərəkəti üçün real təhlükə yaranmışdır. Baş vermiş təbiət hadisələrinin yaratdığı fəsadları aradan qaldırmaq, avtomobil yolunun dayanıqlığını, yük və sərnişin daşınmasının təhlükəsizliyini gücləndirmək məqsədi ilə avtomobil yolunun yenidən qurulması zərurəti yaranmışdır.

Qeyd olunan istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması işlərinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində göstərilmiş məbləğin 9,2 milyon (doqquz milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

# Lerik rayonunun Orand kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Lerik rayonunun Orand kəndində 180 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

# Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun tikintisinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 204-207-ci kilometrlik hissəsinin və Astaraçay çayı üzərində körpünün tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən işlərin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

# Ümumdünya Standartlar Gününə həsr olunmuş seminar

Oktyabrın 15-də "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxsin (milli standartlaşdırma qurumu) təşkilatçılığı ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "ÜTT-yə üzvlük danışıqlarında İqtisadiyyat Nazirliyinin Ticarət Siyasəti və ÜTT şöbəsinə dəstək və potensialın gücləndirilməsi" layihəsinin dəstəyi ilə 14 oktyabr - Ümumdünya Standartlar Günü ilə əlaqədar seminar keçirilib.



AZƏRTAC xəbər verir ki, seminarda çıxış edən Azərbaycan Standartlaşdırma İnstitutunun baş direktoru Namiq Tağıyev, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin əməkdaşı Ülviyyə Abdullayeva, "Ümumdünya Ticarət Təşkilatına üzvlük danışıqlarında İqtisadiyyat Nazirliyinin Ticarət Siyasəti və ÜTT şöbəsinə dəstək və potensialın gücləndirilməsi" layihəsinin rəhbəri Marius Bordalba və başqaları dövlət və biznes qurumlarının iştirakı ilə keçirilmiş konfransda Azərbaycan Respublikasında texniki tənzimləmə və standartlaşdırma sistemində aparılan islahatlardan, ölkəmizdə milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində görülən tədbirlərdən, bu islahatların özəl sektor və istehlakçılar üçün əhəmiyyətindən söz açıblar.

Qeyd olunub ki, texniki tənzimləmə və standartlaşdırma sahəsində aparılan islahatların əsas məqsədi ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması, istehsal olunan məhsulların və göstərilən xidmətlərin xarici bazarlara maneəsiz ixrac edilməsidir. Bu məqsədlərə nail olunması üçün Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən həyata keçirilmiş tədbirlər barədə seminar iştirakçılarına məlumat verilib.

Bu tədbirlər çərçivəsində qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının "Ticarətdə Texniki Maneələr Haqqında Saziş"in tələblərinə uyğunlaşdırılması məqsədilə institut tərəfindən "Texniki tənzimləmə haqqında" qanunun və "Standartlaşdırma haqqında" yeni qanunun layihələri Azərbaycan Respublikası Milli Məclisində birinci oxunuşdan keçirilməsi, "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2018-2025-ci illər üzrə Dövlət Proqramı"nın layihəsinin hazırlanması, ölkəmizin standartlaşdırma üzrə beynəlxalq qurumlarda təmsilçiliyinin təmin olunması kimi məsələlər xüsusilə diqqətə çatdırılıb.

# Astara rayonunda sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Astara rayonunda sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 2,0 (iki) milyon manat, o cümlədən Astaraçay çayının İran İslam Respublikası ilə sərhəd ərazidən keçən hissəsinin sol sahilində sahilbərkitmə işlərinin aparılması və mövcud mühafizə divarlarının bərpası üçün 1,5 milyon (bir milyon beş yüz min) manat, Siyakuçay, Təngərüdçay və Pensərçay çaylarının rayon ərazisindən keçən hissələrinin sağ və sol sahillərində sahilbərkitmə işlərinin aparılması üçün 500,0 (beş yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən işlərin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

# Astara şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının yerinə yetirilməsi nəticəsində Astara rayonunda mühüm infrastruktur layihələri həyata keçirilmiş, əsas kapitala yönəldilən vəsait 110,2 dəfə, o cümlədən tikinti-quraşdırma işlərinə investisiya 110,0 dəfə artmış, modul tipli elektrik və qaz-kompressor stansiyaları, Olimpiya İdman Kompleksi, Dövlət Bayrağı Meydanı, Gənclər Evi, Boks Mərkəzi, əlil və şəhid ailələri üçün ümumilikdə 48 mənzilli 2 yaşayış binası inşa olunmuş, dənizkənarı park-bulvar kompleksi salınmış, Rayon Mərkəzi Xəstəxanası, Mədəniyyət Evi əsaslı təmir edilmiş, 30 ümumtəhsil məktəbi istifadəyə verilmişdir. Bundan başqa, Astara şəhərinin su təchizatı sistemi yenidən qurulmuş, "Astara-1" kiçik su elektrik stansiyası istismara verilmiş, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, iri emal müəssisələri yaradılmış, 10 mindən çox yeni iş yeri açılmış, genişmiqyaslı abadlıq-quruculuq işləri aparılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Astara şəhərində istismar müddəti başa çatmış 3 ikimərtəbəli və 5 birmərtəbəli binanın sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə **qərara alıram:**

1. Astara şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədi ilə 48 mənzilli yaşayış binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Astara Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

# Lerik şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində Lerik rayonunda sosialyönümlü bir sıra layihələr həyata keçirilmiş, əsas kapitala yönəldilən vəsait 140,2 dəfə, o cümlədən tikinti-quraşdırma işlərinə investisiyanın həcmi 180,6 dəfə artmış, 90 çarpayılıq Rayon Mərkəzi Xəstəxanası, Rayon Mədəniyyət Mərkəzi, Uşaq İncəsənət Məktəbi əsaslı təmir olunmuş, Dövlət Bayrağı Meydanı, "Uzunömürlülər" Muzeyi, əlil və şəhid ailələri üçün ümumilikdə 32 mənzilli 2 yaşayış binası inşa edilmiş, 50 ümumtəhsil məktəbi istifadəyə verilmişdir. Bundan başqa, Lerik şəhərinin su təchizatı sistemi və 12,6 MVt-lıq Lerik elektrik yarımstansiyası yenidən qurulmuş, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, istehsal və emal müəssisələri yaradılmış, 6 mindən çox yeni iş yeri açılmış, genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Lerik şəhərində istismar müddəti başa çatmış ikimərtəbəli 8 mənzilli binada və 1932-ci ildə inşa edilmiş köhnə xəstəxana binasında yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə **qərara alıram:**

1. Lerik şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədi ilə 48 mənzilli yaşayış binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Lerik Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

# Dövlət Sərhəd Xidmətində silsilə tədbirlər keçirilir





Dövlət Sərhəd Xidmətində ümummilli lider Heydər Əliyevin milli dövlətçilik irsinin layiqli davamçısı, yeni dövrün qüdrətli lideri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 15 illik fəaliyyətinə həsr olunmuş silsilə tədbirlər davam etdirilir. Bütün hərbi hissə və bölmələrdə keçirilən seminarlarda, mədəni-kütləvi tədbirlərdə Milli Məclisin deputatları, elm və incəsənət xadimləri, yerli icra hakimiyyəti orqanlarının və ictimaiyyətin çoxsaylı nümayəndələri iştirak edirlər.

Keçirilən tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqın yekdil səsi ilə ölkə rəhbəri seçildiyi 2003-cü ilin 15 oktyabrından keçən əlamətdar dövrün milli dövlətçilik tariximizdə möhtəşəm intibah mərhələsi olması barədə ətraflı məlumatlar verilir.

15 oktyabr 2018-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin Aparatında keçirilən tədbirdə dövlət başçısının 15 illik prezidentliyi dövründə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunub saxlanılmasından, insanların hüquq və azadlıqlarının təmin edilməsindən, vətəndaşların rifah halının getdikcə yüksəlməsindən, dövlətimizin iqtisadi potensialının durmadan artmasından, nəhəng transmilli energetika və nəqliyyat layihələrinin həyata keçirilməsindən geniş söhbət açılmışdır.

Tədbirdə çıxış edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə son 15 ildə ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturunun yenilənməsinin, əhalinin sosial müdafiəsinin gücləndirilməsinin, şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısının artmasının, Azərbaycanın dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulduğunun, ordumuzun döyüş qabiliyyətinin yüksəlməsinin, maddi-texniki bazasının möhkəmləndirilməsinin məhz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin məntiqi davamı olmasını böyük minnətdarlıq hissi ilə qeyd etmişdir.

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə yerinə yetirilməsi, ardıcıl həyata keçirilən islahatlar sayəsində Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən yüksək standartlar səviyyəsində mühafizə etməyə qadir olan bir quruma çevrilməsi qürur hissi ilə vurğulanmışdır.

Tədbirin sonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 illik fəaliyyətinə həsr edilmiş sənədli film nümayiş etdirilmişdir.

***"Azərbaycan"***

# Vüsal QASIMLI: "Dövlət başçısının rəhbərliyi ilə "Doing Business" islahatlarının ölkədə yeni istiqamətləri müəyyənləşəcək"

"Dövlət başçısının rəhbərliyi ilə "Doing Business" islahatlarının Azərbaycanda yeni istiqamətləri müəyyənləşəcək". Bu barədə AZƏRTAC-a İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib.

İcraçı direktor dövlət başçısının tapşırığı ilə Rəqabət Məcəlləsinin hazırlandığını deyib. Bildirib ki, yaxın vaxtlarda layihəyə baxılaraq müvafiq şəkildə məruzə ediləcək. Eyni zamanda, İnvestisiya Fəaliyyəti haqqında yeni qanun layihəsi işlənilir. Rəqabət Məcəlləsi və İnvestisiya Fəaliyyəti haqqında yeni qanun layihəsi, bütövlükdə islahatların növbəti istiqaməti üçün çox mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq vergi islahatlarının dərinləşdirilməsi istiqamətində işlər aparılır, Vergi Məcəlləsinə müvafiq dəyişikliklər hazırlanır. Burada əsas məqsəd bir tərəfdən vergi inzibatçılığının daha da təkmilləşdirilməsi, digər tərəfdən isə vergi yükünün optimallaşdırılması ilə bağlıdır. Eyni zamanda, gömrük islahatlarının davam etdirilməsi, şəffaflığın, hesabatlılığın, yaxşı idarəetmənin, açıq hökumət prinsiplərinin tətbiqi nəzərdə tutulur.

"Bütövlükdə, qeyd etmək istəyirəm ki, dövlət başçısının rəhbərliyi ilə "Doing Business" islahatlarının Azərbaycanda yeni istiqamətləri müəyyənləşəcək. Oktyabrın sonunda "Doing Business"in açıqlamasından sonra biz 10 indikator üzrə hansı istiqamətlərdə nə işlər görməyimizi müəyyənləşdirəcəyik və bu istiqamətdə də islahatlar aparılacaq" - deyə icraçı direktor bildirib.

Vüsal Qasımlı diqqətə çatdırıb ki, Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı İlham Əliyev iqtisadiyyatın rəqabətliliyinin artırılmasını xüsusilə qeyd edib. Prezident deyib: "İqtisadiyyatın rəqabətliliyinin artırılması üçün biz bundan sonra da fəal işləyəcəyik. Bildiyiniz kimi, Azərbaycanın bu sahədəki reytinqləri ən yüksək səviyyədədir. Mən bunu dəfələrlə demişəm və bir daha qürur hissi ilə deyə bilərəm ki, Davos Forumunun hesablamalarına əsasən, biz iqtisadi rəqabətliliyə görə dünyada 35-ci yerdəyik. Ancaq onu da bilməliyik ki, biz daha da qabağa getməliyik. Ona görə Davos Forumunun hesabatı tam təhlil edilməlidir və təhlil edilir. Bəzi müddəalar var ki, biz orada geridə qalmışıq. Biz onlara mütləq baxmalıyıq və iqtisadiyyatın rəqabətliliyini daha da artırmalıyıq".

İslahatların bütün istiqamətlərinin dövlət başçısının tapşırıqları əsasında müəyyənləşdirildiyini vurğulayan Vüsal Qasımlı deyib ki, Rəqabət Məcəlləsi, İnvestisiya Fəaliyyəti haqqında yeni qanunun qəbulu, vergi islahatları, gömrük islahatları, "Doing Business" islahatları Azərbaycanda həyata keçiriləcək növbəti islahatların əsas istiqamətləri olacaq.

2003 2018

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



Azərbaycanın qazandığı nailiyyətlər, nail olduğu genişmiqyaslı inkişaf 27 illik müstəqillik dövrü kontekstində həqiqətən də möhtəşəm və misilsiz görünür. Başqa ölkələrin onilliklər, əsrlər boyu əldə etməyə çalışdığı bu proseslərin tarixin belə qısa dövründə, özü də ilk iki ilin böyük böhranlar və faciələrlə müşayiət olunduğu zamanda baş tutması şübhəsiz ki, milli qurtuluş missiyasının real nəticələridir.

# Davamlı tərəqqi, böyük quruculuq dövrü

## Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan sürətli islahatlar kursu Nəsimi rayonunun sosial-iqtisadi inkişafına mühüm təkan verib





Son 15 illik dönəm isə haqlı olaraq “Tarixin ən qüdrətli Azərbaycanı” kimi səciyyələnir. Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamız Cənubi Qafqazın lider dövlətinə, dünyanın enerji xəritəsini müəyyənləşdirən əsas amillərdən birinə, beynəlxalq miqyasda böyük nüfuz qazanan ölkəyə çevrilib.

### Prezident tapşırıqlarının icrası fəaliyyət prioritetidir

Azərbaycanın bu uğurları ötən 9 ay ərzində də davam etmiş, iqtisadi inkişafın dayanaqlığı təmin olunmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilən Nazirlər Kabinetinin iclasında bu sahədəki vəziyyət təhlil edilmiş, yeni hədəflər müəyyənləşdirilmişdir.

Azərbaycanı çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik ölkə kimi dəyərləndirən dövlət başçısı qeyd edib ki, 2018-ci il ölkəmiz üçün uğurlu olub və respublikamız bu dövrdə öz dinamik inkişafını təmin edib, xalqımız əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayıb. Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafın təməlində düşünülmüş siyasət dayanır, eyni zamanda xalq tərəfindən bu siyasətə göstərilən dəstək dayanır.

İqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Bu ilin doqquz ayında ümumi daxili məhsul 0,8 faiz, qeyri-neft sektoru 1 faiz, sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi 10,8 faiz, kənd təsərrüfatı 4,3 faiz, xarici ticarət dövriyyəsi 37 faiz artıb. İnflyasiya cəmi 2,6 faiz olsa da, əhalinin gəlirləri 9,5 faiz təşkil edib. Bu dövrdə ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulub ki, onun da 5,6 milyard dolları qeyri-neft sektoruna aiddir. Valyuta ehtiyatları 45 milyard dollara çatıb. Ölkədə 85 min daimi iş yeri açılıb.

Respublikamızda əldə olunan uğurlar hər bir bölgədə olduğu kimi Bakı şəhərinin Nəsimi rayonunun sosial-iqtisadi həyatında da öz əksini tapmışdır. Prezident İlham Əliyevin rəhbərliyi və şəxsi nəzarəti altında rayonda irimiqyaslı layihələr həyata keçirilmiş, nəhəng quruculuq işləri aparılmışdır.

Rayon icra hakimiyyəti tərəfindən ərazidə iqtisadi durumun yaxşılaşdırılması, dotasiyalardan asılılığın minimuma endirilməsi məqsədi ilə daxili imkanlardan istifadə etməklə sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şəraitin yaradılması istiqamətində ardıcıl tədbirlər davam etdirilmişdir. Yerli infrastruktur layihələrin icra olunması, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yüksəldilməsi ilə bağlı verilmiş tapşırıqların icrasının təmin edilməsi, sərmayələrin cəlb olunması ilə bağlı zəruri tədbirlər həyata keçirilmişdir. Prezident Administrasiyası tərəfindən müəyyən edilmiş istiqamətlər üzrə rayon icra hakimiyyəti sosial-iqtisadi inkişafla bağlı proqnozlar, təkliflər hazırlamış, yeni iş yerlərinin açılması və sərmayələrin cəlb edilməsi ilə bağlı mühüm işlər görülmüşdür.

### Abadlıq-quruculuq işləri geniş miqyas alır

Dinamik inkişaf, infrastrukturun yeniləşdirilməsi, istehsal müəssisələrinin, iş yerlərinin yaradılması, geniş vüsət almış tikinti, quruculuq və abadlıq işləri ötən dövrdə Nəsimi rayonunda da uğurla davam etdirilmişdir. Paytaxtımızda əhalinin ən sıx yerləşdiyi rayonlardan biri olan Nəsimi rayonu yüksək uğurlara imza atır, rayonun görkəmi dəyişir, əhalinin normal yaşayış səviyyəsi təmin olunur, sosial problemlərinin həlli istiqamətində təqdirəlayiq tədbirlər davam etdirilir. Ümumilikdə ötən dövrdə Nəsimi rayonunun iqtisadi və sosial həyatında baş verən dəyişikliklər bütün sahələrdə yüksəlişlə müşayiət olunub. Rayonda sosialyönümlü tədbirlərə geniş yer verilməsi sakinlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edir. İnşa edilən yeni obyektlər həm də turizmin inkişafına böyük imkanlar yaradır.

Nəsimi rayonunda sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının, sosial və digər qeyri-yaşayış obyektlərinin sökülərək yenidənqurulması, yeni yaşayış binalarının inşa edilməsi, əlavə iş yerlərinin açılması istiqamətində ötən dövr ərzində rayonda ardıcıl işlər görülmüşdür. Tikiləcək binaların yerləşdirilməsinin, ərazi planlaşdırılmasının sənədlərinin uyğunluğunun və hazırlanan layihələrin memarlıq hissələrinin razılaşdırılması üçün müvafiq işlər







aparılmışdır. 70-dən çox təklifə baxılmış, 32 ünvanla bağlı layihə sənədləşmələri hazırlanaraq müvafiq qaydada razılaşdırılmışdır. Onlardan 23 ünvanla bağlı köçürmə-söküntü və inşaat işlərinə başlanmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin inşaat sektorunda mövcud nöqsanların aradan qaldırılması ilə bağlı verdiyi tapşırıqların icra olunması, xüsusilə Nəsimi rayonu ərazisində tikinti-inşaat işlərinin Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən müəyyən olunmuş şəhərsalma prinsiplərinə uyğun aparılması, ümumi istifadə











ərazilərinin və ictimai yerlərin zəbt olunaraq obyektlərin tikilməsinin qətiyyətlə qarşısının alınması ilə bağlı komitə ilə əlaqəli tədbirlər həyata keçirilmişdir. Rayon ərazisində qanunvericiliklə nəzərdə tutulmuş müvafiq sənədləşmə həyata keçirilmədən aparılan inşaat işləri rayon icra hakimiyyəti tərəfindən dayandırılmışdır.

Rayon ərazisində təmizlik, abadlıq və quruculuq işlərinin həyata keçirilməsi, yaşayış binalarının, evlərin istismar vəziyyətinin yaxşılaşdırılması və qorunması, binadaxili aşağı mühəndis-kommunikasiya qovşaqlarının etibarlı və təhlükəsiz fəaliyyətinin təmin olunması məqsədilə mühüm işlər görülmüşdür. Qış mövsümünə hazırlıq prosesi çərçivəsində binaların istiliklə təmin olunmasına xidmət edən mühəndis qovşaqlarının texniki tələbə uyğun istismar olunması, yolların, səkilərin, park və bağların, meydanların, yaşıllıq və qazonların hər gün süpürülməsi və yığışdırılması, tullantıların zərərsizləşdirilməsi, aidiyyəti poliqonlara daşınması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.







Nəsimi rayonunda ağac əkməklə ekoloji balansın bərpasına, təbii mühitin qorunmasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək, insanların diqqətini yaşıllıqların qorunmasına yönəltmək istiqamətində silsilə ağacəkmə kampaniyaları, iməciliklər keçirilmişdir.

Ötən 9 ay ərzində rayon Məşğulluq Mərkəzinə müraciət edənlərdən 1409 nəfəri, həmçinin 85 nəfər qaçqın və məcburi köçkün daimi işlə təmin edilmişdir. Qeyri-məşğul əhalinin peşə hazırlığı və təlimi kurslarına cəlb edilməsi tədbirləri çərçivəsində 80 nəfər 5 ixtisas üzrə kursa cəlb edilmişdir.

### Leyla Əliyevanın təşəbbüsünə Nəsimi rayonu fəal qoşulub

Nəsimi rayonunda aparılan yenidənqurma və quruculuq işləri çərçivəsində geniş abadlıq işləri aparılmış, yüksəkmərtəbəli çoxsaylı binaların fasadları əsaslı təmir olunmuş və “Bizim həyət” salınmışdır. Əhalinin asudə vaxtlarının səmərəli keçirilməsi və istirahəti üçün mövcud parklar əsaslı təmir olunur, yeni parklar və yaşıllıq zolaqları salınır, binaların həyətlərində yeni skamyalar, söhbətgahlar, uşaqlar üçün əyləncəli idman qurğuları quraşdırılır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, “IDEA” İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji cəhətdən təmiz və “Bizim həyət”lərin modernləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılması məqsədi ilə həyata keçirilən “Bizim həyət” layihəsinə Nəsimi rayonunda ötən ilin dekabr ayından start verilmişdir.

Ötən müddət ərzində layihə çərçivəsində rayon ərazisindəki bir sıra həyətlərdə abadlaşdırma işləri aparılmış, mövcud yaşıllıqlar bərpa edilmiş, yeni yaşıllıq zolaqları yaradılmış, gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarının möhkəmləndirilməsinə, asudə vaxtlarının səmərəli keçirmələrinə nail olmaq məqsədi ilə əyləncə qurğuları yerləşdirilmiş, futbol meydançaları və idman alətlərindən ibarət kiçik meydançalar salınmışdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə, “IDEA” İctimai Birliyinin və “Cavan” Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı və Nəsimi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə baxımsız həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsinin davamı olaraq Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən daha bir “Bizim həyət” layihəsi 2-ci mikrorayon H.Seyidzadə küçəsi 1,3 və 7 saylı binaların əhatə etdiyi məhəllədə sakinlərin ixtiyarına verilmişdir. Bu ünvanda 3 beş mərtəbəli, bütövlükdə 12 bloklu, 180 mənzilli binaların fasadları, dam örtükləri və zirzəmiləri əsaslı təmir edilmiş, hər üç binanın blok girişləri, blok qapıları və pəncərələri yenilənmişdir. Məhəllədə genişmiqyaslı yaşıllaşdırma işləri aparılmış və həyətə 300-dən artıq həmişəyaşıl ağaclar əkilmişdir. Sakinlərin asudə vaxtlarını və istirahətlərini səmərəli keçirmələri üçün 3 söhbətgah və 20 ədəd oturacaq quraşdırılmışdır. Bu ünvandakı uşaqların da asudə vaxtlarını səmərəli keçirmələri üçün xüsusi əyləncə avadanlıqları, oyun elementləri və idman meydançası quraşdırılmışdır. “Bizim həyət”in xüsusi bir guşəsində həvəskarlar üçün asfalt üzərində böyük ölçülü şahmat lövhəsi yaradılmışdır.

Əhalinin ümumi istifadəsində olan binaların həyətlərində özbaşına zəbt olunmuş ərazilərin çəpərləri sökülərək 9000 kv.m ərazidə asfaltlaşma və təmizlik işləri aparılmış, 500 metr bordür qoyulmuş, mövcud ağaclar budanmış, səliqə-sahman yaradılmışdır. Yeni yaradılmış “Bizim həyət”də 7 ədəd təhlükəsizlik kamera quraşdırılmışdır.

Növbəti “Bizim həyət”in sakinlərin istifadəsinə verilməsinə həsr olunmuş tədbirdə çıxış edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bildirib ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti Nəsimi rayonunda da uğurla aparılır, mikrorayonlarda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri sakinlərin rahatlığına xidmət edir. Asif Əsgərov qeyd edib ki, son illərdə ölkəmizin hərtərəfli inkişafında əldə olunmuş yüksək dinamikaya uyğun olaraq paytaxtın mərkəzi rayonlarından olan Nəsimi rayonunda da istehsalın artımında, abadlıq-quruculuq işlərinin genişlənməsində, önəmli sosial layihələrin sürətlə gerçəkləşdirilməsində nəzərə çarpacaq uğurlar qazanılmışdır. Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən hazırda ayrı-ayrı ünvanlarda binaların fasadları əsaslı təmir edilir və həyətlərində abadlıq, quruculuq, yenidənqurma və yaşıllaşdırma işləri davam etdirilir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə, “IDEA” İctimai Birliyinin və “Cavan” Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı ilə baxımsız həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsinin davamı olaraq Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən daha bir “Bizim həyət” layihəsi 3-cü mikrorayon, Alı Mustafayev küçəsi 17 və 17A saylı binaların əhatə etdiyi məhəllədə aparılır. Hal-hazırda işlər davam etdirilir.

### Fəaliyyətin əsas məqsədi vətəndaş məmnunluğudur

Azərbaycan Respublikası Prezidentinin “Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən məqsədyönlü tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Şəffaflığın artırılması və açıq hökumətin təşviqi sahəsində müəyyən edilmiş tədbirlərlə bağlı olaraq informasiya əldə edilməsi, rayon icra hakimiyyətinin fəaliyyəti barədə ictimaiyyətə məlumat verilməsi həyata keçirilmişdir.

RİH başçısının yerlərdə keçirilən səyyar qəbullarında, sakinlərlə görüşlərdə, müşavirələrdə və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən geniş yığıncaqlarda rayon ərazisində ictimai maraq kəsb edən məsələlər geniş müzakirə olunur, rəy və təkliflər öyrənilir, müvafiq qərarlar verilir. Aşkarlığı və şəffaflığı təmin etmək məqsədi ilə kütləvi informasiya vasitələrinin imkanlarından geniş istifadə edərək Nəsimi rayonu üzrə görülmüş işlər barədə məlumatların ictimaiyyətə çatdırılması işləri davam etdirilmişdir.

“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydalara ciddi olaraq əməl edilməklə rayon icra hakimiyyəti başçısı aparatı və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə vətəndaşlara yazılı və şifahi şəkildə təkliflər vermək, ərizə ilə müraciət etmək hüquqlarının həyata keçirilməsi üçün zəruri şərait təmin edilmişdir. 2018-ci ilin 9 ayı ərzində Nəsimi Rayon İcra Hakimiyyətinə vətəndaşların 2483 ərizə və müraciəti daxil olmuşdur. Əhalinin sosial müdafiəsi, mənzil-məişət şəraiti, birdəfəlik maddi yardımlarla bağlı müraciətləri diqqət mərkəzində saxlanılaraq aztəminatlı ailələrə dövlət qayğısı çərçivəsində köməklik göstərilmişdir. İl ərzində Heydər Əliyev Fondu tərəfindən Nəsimi rayonunda aztəminatlı təbəqəyə, kimsəsizlərə, valideyn himayəsindən məhrum olmuş uşaqlara yetirilən diqqət və qayğı ictimaiyyətin razılığına və sevincinə səbəb olmuşdur.

Rayonun hüquq mühafizə orqanları tərəfindən ictimai-siyasi sabitliyin, asayişin təmin olunması, insan hüquq və azadlıqlarının qorunması, cinayətlərin qarşısının alınması və açılması sahəsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə nail olmuşlar. Gənclərin həqiqi hərbi xidmətə çağırışı məsələləri ciddi nəzarətdə saxlanılmış, plan göstəricilərinə 100 faiz əməl olunmuş, fərarilik, çağırışdan yayınma halları qeydə alınmamışdır.

Göründüyü kimi, 2018-ci ilin ötən dövrü Nəsimi rayonunun və sakinlərin həyatında əlamətdar hadisələrlə zəngin olmuş, sosial-iqtisadi inkişafın davamlılığı təmin edilmişdir. Şübhəsiz ki, möhkəm bünövrə uğurların davamlılığına etibarlı zəmin yaradır.









***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Tarixi dəyişən təşəbbüs

## Ziyalıların Heydər Əliyevə müraciətindən 26 il ötür

**26 ildir Azərbaycanda ictimai-siyasi proseslərin inkişafında mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması ötən əsrin 80-ci illərinin sonundan ölkədə başlayan siyasi-ictimai proseslərin nəticəsi idi. Bu proseslər Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması ilə nəticələnsə də, sonrakı dövrdə hakimiyyətdə olan iqtidarlar ölkəni elə bir böhrana saldılar ki, az qala hələ kövrək olan müstəqilliyimizi də itirilmək təhlükəsi ilə üzləşmişdik.**




Beləliklə, dövlət müstəqilliyi qazanıldıqdan sonra hakimiyyətdə olanların anormal idarəetmə metodları daxili situasiyanı gərginləşdirməklə yanaşı, gələcək perspektivləri də ciddi təhlükə altına salmışdı. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial gərginlik bütün xalqı, o cümlədən ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Belə bir şəraitdə onlar, eləcə də vətəndaşların mütləq əksəriyyəti çıxış yolunu ulu öndər Heydər Əliyevin fəal siyasi səhnəyə qayıtmasında, onun rəhbərliyi altında hakimiyyət uğrunda sivil mübarizə aparacaq siyasi təşkilatın yaradılmasında görürdülər.

Artıq 1992-ci ilin əvvəllərindən etibarən mətbuatda Heydər Əliyevin siyasi proseslərə daha fəal qoşulmasının millətin yeganə nicat yolu olması barədə məqalələrin dərci çoxalmışdı. Bölgələrdə "Heydər Əliyev Partiyası" adlı təşkilatlar yaradırdılar. Hətta bu qurumların qeydiyyata alınması üçün Ədliyyə Nazirliyinə müraciətlər də təqdim olunmuşdu. 1992-ci ilin aprel-may aylarında Bakıda Heydər Əliyevdən xəbərsiz onun tərəfdarları mitinqlər keçirir, yaş senzi ilə bağlı Konstitusiyaya edilmiş ədalətsiz əlavənin ləğvini istəyirdilər. Artıq mübarizə siyasi müstəviyə qədəm qoyurdu. Heydər Əliyevin yüz minlərlə tərəfdarlarının vahid, mütəşəkkil, güclü bir təşkilatda birləşməsi tarixi zərurətə çevrilmişdi.

Həmin ilin oktyabr ayında ictimaiyyətin mütləq əksəriyyətinin göstərdiyi qətiyyətli təsir altında ölkənin tanınmış ziyalılarının Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə ünvanladıqları müraciətlə bu kampaniyaya rəsmən start verildi. 1992-ci il oktyabrın 16-da mətbuatda dərc edilən bu tarixi müraciət yalnız ziyalıların deyil, bütün Azərbaycan xalqının istəyi, arzusu, haqlı tələbi idi. Müraciətdə deyilirdi: "Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu, peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü, aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bugünü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar".

Azərbaycan xalqının istəyinə heç zaman biganə qalmayan, özünün qurub-yaratdığı respublikanın göz-görəsi dağılmasına dözməyən, həyatını xalq yolunda şam kimi əridən Heydər Əliyev dühası Vətənin dar günündə haqq səsini ucaltmış, xalqın imdad, kömək səsinə səs verdi. 91 ziyalının timsalında milyonların arzusunun, siyasi seçiminin əks olunduğu məktuba Heydər Əliyev "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabı ilə ziyalıların xalqın milli maraqları istiqamətində mütəşəkkil mübarizəsinə xeyir-dua arzuladı. *"Yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni Müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı problemlərin həllində biganə qalmağa heç kəsin haqqı yoxdur... Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram"* - bu fikirlər Azərbaycan vətəndaşlarının yeni xalq hərəkatında birləşməsi üçün yetərli idi.

1992-ci ilin 21 noyabrında Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Azərbaycanın müxtəlif bölgələrindən təəssübkeş qrupların 550-dən artıq nümayəndəsinin iştirak etdiyi möhtəşəm tədbir soyuq qış günündə, zaldakı sərt hava şəraitində baş tutdu. Konfransda giriş nitqi ilə çıxış edən Heydər Əliyev bildirdi ki, YAP-ın hər bir üzvünün borcu dövlətin ərazi bütövlüyünü, müstəqilliyini, ictimai asayişi qorumaq, qanunlara tabe olmaq, iqtidarla sivil müxalifətçilik etmək, mübarizəni dövlətə qarşı aparmamaq, ölkənin mənafeyini bütün maraqlardan üstün tutmaqdır. Yalnız bu şərtlərə riayət edən şəxs YAP-ın əsl üzvü, partiyanın siyasi xəttini düzgün anlayan və yerinə yetirən təəssübkeş sayıla bilər.

Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, eyni zamanda partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Konfransın sonunda YAP-ın sədri Heydər Əliyev partiya üzvləri qarşısında çıxış etdi. Etimada görə təşəkkürünü bildirərək bəyan etdi ki, "əgər ölkənin bütün mütərəqqi qüvvələri, tanınmış ziyalıları, vətənpərvər övladları səylərini və mübarizələrini birləşdirərək yekdil siyasi qüvvəyə çevrilibsə, demək bu təşkilat - Yeni Azərbaycan Partiyası ümummilli quruma çevrilməli, xalqın inam, ümid mənbəyinə, dövlətin siyasi istinadgahına çevrilməlidir".

Yarandıqdan qısa müddət sonra iqtidar partiyasına çevrilən YAP xalqın inam və ümid mənbəyi, dövlətin siyasi istinadgahı olduğunu bu dövrdə öz fəaliyyəti ilə daim təsdiq edib. Bu gün YAP Prezident İlham Əliyevin sədrliyi ilə 26 il əvvəl müəyyən etdiyi prinsiplərə, elan etdiyi məqsəd və mərama uyğun olaraq öz fəaliyyətini layiqincə davam etdirir. Bu ilin aprelində keçirilən prezident seçkiləri də göstərdi ki, YAP bu gün güclü, mütəşəkkil partiya olmaqla yanaşı, xalq tərəfindən ciddi şəkildə dəstəklənir. Bu gün cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı bütün uğurlar 1992-ci ildə qarşıya qoyulan məqsədlərin həyata uğurla vəsiqə aldığını göstərir. Bu uğurlar isə bitməyəcək və deməli, YAP bundan sonra da xalqın etimad ünvanı olaraq mövcud statusunu qoruyacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

---

# Mükəmməl hüquqi varislik

**XX əsrin əvvəllərində Azərbaycan xalqının həyatında çox mühüm bir hadisə baş verdi. 1918-ci il may ayının 28-də Tiflis şəhərində Azərbaycanda müstəqil dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı elan olundu və daxili, xarici siyasətin başlıca prinsiplərini özündə ehtiva edən "İstiqlal Bəyannaməsi" qəbul edildi. Bu hüquqi və siyasi sənəddə hakimiyyətin xalqa mənsub olması, vətəndaşların milki və siyasi hüquqlarının təmin olunması, hər bir kəsin milli, dini, siyasi və cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şəraitin yaradılması, dövlət fəaliyyətinin əsası kimi hakimiyyətin bölünməsi prinsipinin bəyan edilməsi Azərbaycan xalqının demokratik və hüquqi dövlət yaratmaq əzmində olduğunu nümayiş etdirirdi.**

Həmin Bəyannamədə Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik idarə üsulunun-parlamentli respublikanın yaradıldığı edan edildi. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamış, həmçinin 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti" ili elan edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə dövlət və cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən 230-a yaxın qanun qəbul edilmiş, demokratik prinsiplərə uyğun dövlət qurumları formalaşdırılmış, respublikanın himni və bayrağı təsdiq edilmiş, Şərqdə ilk dəfə qadınlara seçki hüququ verilmiş, Azərbaycan dili dövlət dili elan olunmuş və milli dövlətçiliyin möhkəmləndirilməsinə yönələn tədbirlər görülmüşdür.

Cümhuriyyət dövründə məhkəmə və hüquq sisteminin yenidən qurulmasına böyük önəm verilirdi. Ədalət məhkəməsi qarşısında hamının bərabərliyi, ədalət mühakiməsinin yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi, hakimlərin müstəqilliyi və yalnız qanuna tabe olmaları təqsirsizlik prezumpsiyası, məhkəmələrin xalqa daha yaxın olmaları və digər demokratik prinsiplərə əsaslanan məhkəmə sisteminin qurulması nəzərdə tutulurdu.

Azərbaycan Xalq Cümhuriyyətində məhkəmə sistemi andlı məhkəmələrə, ədalət məhkəmələrinə və ümumi məhkəmələr - dairə və məhkəmə palatalarına bölünürdü. Həmçinin hərbi alaylarda yaradılmış hərbi məhkəmələr də məhkəmə sisteminin tərkibinə daxil edilmişdir. 1918-ci il noyabr ayının 14-də hökumət Azərbaycan Respublikasının Məhkəmə Palatası haqqında Əsasnaməni təsdiq etdi. Həmin Əsasnamə ilə Məhkəmə Palatasının daxili quruluşu və səlahiyyət dairəsi müəyyən edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə hüququn mənbəyi kimi - Milli Şuranın qərarları, Azərbaycan Parlamentinin qanunları, Nazirlər Kabinetinin qanun qüvvəli aktları, qərar və sərəncamları, əvvəlki dövrlərdə qəbul edilmiş qanunvericilik aktları olmuşdur ki, dövlət qurumları, o cümlədən məhkəmələr öz fəaliyyətlərində həmin qanunvericilik aktlarına istinad etmişlər. Lakin həmin dövrdə məhkəmə sistemi çox çətin şəraitdə fəaliyyət göstərirdi. Hüquqşünas kadrlar, xüsusilə hakimlər çatışmırdı. Bununla yanaşı həmin dövrdə müstəqil olaraq mülki, cinayət, inzibati prosessual və konstitusiya quruculuğu sahələrində qarşıya qoyulan vəzifələr başa çatdırıla bilmədi. Ölkə daxilindəki və xaricdə olan hərbi-siyasi vəziyyət, gərginlik, sovet bolşevik təcavüzü, cümhuriyyətin süqutu buna imkan vermədi. Buna baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti hökuməti hüquq sisteminin inkişafı, milli qanunvericilik bazasının yaradılması, məhkəmə orqanlarının yenidən qurulması sahəsində müəyyən işlər görmüşdür. Azərbaycan Xalq Cümhuriyyətinin hüquq sisteminin inkişafı, qanunvericilik bazasının formalaşdırılması sahəsində həyata keçirə bilmədiyi vəzifələri 1991-ci ildə müstəqilliyini elan edən Azərbaycan Respublikası həyata keçirir.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının 2-ci maddəsində deyilirdi ki, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən aprelin 28-dək mövcud olmuş respublikanın varisidir. Konstitusiya aktı ilə müəyyən edilirdi ki, dövlət müstəqilliyin bərpası elan edilənədək qüvvədə olmuş respublikanın suverenliyinə və ərazi bütövlüyünə zidd olmayan, milli dövlət quruluşunun dəyişdirilməsinə yönəldilmiş aktların hamısı Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır. Azərbaycan dövləti hüquqi dövlət quruculuğunu, insan hüquq və azadlıqlarının qorunmasını, cəmiyyətdə qanunun aliliyinin təmin olunmasını dövlət müstəqilliyinin ilk mərhələsindən özünün əsas məqsədlərindən biri kimi müəyyənləşdirmişdir.

Azərbaycanda hüquqi dövlət quruculuğunun başlanması, qarşıya qoyulan məqsədlərə nail olunması üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitlik təmin olunmalı, respublikanın yenicə qazandığı müstəqilliyini təhdid edən dağıdıcı meyillərin qarşısı alınmalı idi. Məhz ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə ölkədə ictimai-siyasi sabitlik təmin olunmuş və hüquqi islahatların həyata keçirilməsi üçün əlverişli zəmin yaranmışdır. 1995-ci ilin noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının referendum yolu ilə qəbul edilməsi məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində mühüm addım kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının Konstitusiyasının preambulasında xalqın əsas niyyətləri bəyan edilərək göstərilir ki, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək xalqın əsas vəzifəsidir.

Konstitusiyanın 7-ci maddəsinin I hissəsində Azərbaycan dövləti demokratik, hüquqi, unitar respublika kimi təsbit edilmişdir. Konstitusiya hakimiyyətin bölünməsi prinsipinə əsaslanaraq qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisinin, icra hakimiyyətini Azərbaycan Respublikasının Prezidentinin, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələrinin həyata keçirdiyini müəyyən edir.

Konstitusiya təsbit edir ki, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirir. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apelyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələr həyata keçirir.

Hakimlərin müstəqilliyi ədalət mühakiməsinin həyata keçirilməsində ən mühüm prinsiplərdən biri olmaqla hakimlərin yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabe olmalarını, məhkəmələrin qəbul etdiyi qərarlar üzərində hər hansı nəzarətin mümkünsüzlüyünü, habelə məhkəmələrin fəaliyyətinə qanunvericilik və icra hakimiyyəti orqanlarının müdaxilələrinin yolverilməzliyini özündə etiva edir.

Konstitusiyada təsbit olunmuşdur ki, hakimlər müstəqildirlər, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər, səlahiyyət müddətində dəyilməzdirlər. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

Azərbaycan Respublikasının Konstitusiyasının qəbulundan sonra ölkədə hüquqi islahatların həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyinin təmin edilməsi, sistemləşdirilmiş qanunvericilik aktlarının hazırlanması, qanunvericilik, icra və məhkəmə orqanları arasında qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 21 fevral 1996-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında Hüquq İslahat Komissiyası yaradıldı. Həmin komissiya tərəfindən hazırlanmış "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Azərbaycan Respublikasının Prokurorluğu haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillik və vəkillik fəaliyyəti haqqında" qanunlar, həmçinin Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, İnzibati-Prosessual, Əmək, Ailə, Torpaq Məcəllələri və digər normativ hüquqi aktlar insanların hüquq və azadlıqlarının qorunmasında, onların məhkəmədə təminatının möhkəmləndirilməsində və məhkəmələr tərəfindən ədalət mühakiməsinin səmərəli həyata keçirilməsində mühüm rol oynayır. Hüquqi İslahat Komissiyasının hazırladığı ilk qanun layihələrindən biri də "Məhkəmələr və Hakimlər haqqında" 10 iyun 1997-ci il tarixli Azərbaycan Respublikasının Qanunudur. Həmin qanun Konstitusiyaya uyğun olaraq ədalət mühakiməsinin daha səmərəli həyata keçirilməsinə, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsinə yönələn yeni üçpilləli məhkəmə sistemini yaratmaqala müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılmasına yönəlmişdir. Qanunun 3-cü maddəsində göstərilmişdir ki, məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilaşların siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir.

Həmçinin qanun müəyyən edir ki, məhkəmələr işlərə birinci, apelyasiya və kassasiya instansiyaları üzrə baxırlar. Onu da qeyd etmək lazımdır ki, işlərə üçpilləli məhkəmə sistemi qaydasında baxılması birinci instansiya məhkəməsinin buraxdığı bu və ya digər səhvlərin və qanun pozuntularının yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, bununla da işlərin mahiyyətcə düzgün və obyektiv həllinə şərait yaradır.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Fərmanı, 10 fevral 1998-ci il tarixdə Azərbaycanda ölüm cəzasının ləğv edilməsi, 28 dekabr 2001-ci il tarixdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun qəbulu insan hüquqlarının təminatı sahəsində həyata keçirilən tədbirlərin bir hissəsidir.

Ədalət mühakiməsinin səmərəliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə görülən tədbirlər fonunda bölgələrdə yaşayan vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması mühüm əhəmiyyət daşıyırdı. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi, bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Fərmanı bölgələrdə yeni apelyasiya və iqtisad məhkəmələrinin yaradılmasını nəzərdə tuturdu. Dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixli digər fərmanları ilə respublikanın əlavə dörd bölgəsində regional ağır cinayət məhkəmələrinin təsis edilməsi, yeddi bölgədə isə inzibati-iqtisadi məhkəmələrinin yaradılması, hərbi məhkəmə sisteminin yenilənməsi məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə, insan hüquqlarının səmərəli hüquqi təminatına yönəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı hüquqi islahatların tərkib hissəsi kimi qiymətləndirilməlidir. Sərəncamda qeyd edilir ki, cəzaların icrası sahəsində həyata keçirilən islahatlara baxmayaraq, son zamanlar aparılmış təhlillər göstərir ki, məntəqə tipli cəzaçəkmə müəssisələrinin normal fəaliyyəti təmin olunmur, ictimai işlər cəzasının icrası prosesində çətinliklər yaranır, cəzanı icra edən orqan və müəssisələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından kifayət qədər istifadə edilmir.

İbtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq edilməsi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmənin dinamikasının artması məhkumların sayının çoxalmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olur.

Bu sərəncamın məqsədi cəza siyasətinin humanistləşdirilməsi, cinayət-hüquq siyasətinin liberallaşdırılması, cinayətlərin dekriminallaşdırılmasıdır. Sərəncamda cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin yaradılması cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasifa-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədi ilə elektron nəzarət vasitələrinin tətbiqi nəzərdə tutulmuşdur. Göstərilən sərəncamda məhkəmələrə tövsiyə edilmişdir ki;

həbs qətimkan tədbiri seçilərkən şəxsin ittiham olunduğu cinayəti törətməsinə əsaslı şübhələrin və həmin qətimkan tədbirinin tətbiqi əsaslarının mövcudluğunu araşdırsınlar;

həbs qətimkan tədbirinin seçilməsinə dair təqdimatlara baxarkən digər qətimkan tədbirlərinin seçilməsinin qeyri-mümkün olduğuna dair dəlilləri yoxlasınlar;

cəzanın növü və həddini müəyyən edərkən cəzanın sosial ədalətin bərpası, məhkumun islah edilməsi və yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə tətbiq edildiyini əsas tutsunlar;

cəzanın təyin edilməsi əsaslarına dair Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 58.1-ci maddəsinin tələblərinə riayət olunmasına xüsusi diqqət yetirsinlər.

Sərəncamın icrası ilə əlaqədar Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılmış, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılmasına yönələn Cinayət, Cinayat-Prosessual, Cəzaların İcrası Məcəllələrinə və digər normativ hüquqi aktlara əlavə və dəyişikliklər edilmişdir.

Məhkəmə hüquq islahatları çərçivəsində yeni qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdirilməsi, eyni zamanda məhkəmə infrastrukturunun müasirləşdirilməsi, yeni məhkəmə binalarının tikilməsi və təmiri, məhkəmələrin maddi-texniki, maliyyə-təsərrüfat fəaliyyətinin möhkəmləndirilməsi, "Elektron məhkəmə informasiya sistemi"nin yaradılması, hakim korpusunun şəffaf, demokratik əsaslarla seçilməsi, onların sosial maddi vəziyyətinin yaxşılaşdırılması və görülən digər tədbirlər həyata keçirilən məhkəmə-hüquq islahatlarının nəticəsidir. Görülən bu tədbirlər məhkəmələrdə keyfiyyətli hakim korpusunun formalaşdırılmasına, qanuna və ədalətə söykənən məhkəmə qərarlarının qəbuluna öz müsbət təsirini göstərmişdir.

Şəki Məhkəmə Kompleksinin inzibati binasında açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir ki, "ədalətli qərarlar həm insanlarda dövlətə inamı artırır, eyni zamanda həyatımızı tənzimləyir. Bütün qərarlar ədalətli olmalıdır. Məhkəmə sistemində qəbul edilmiş qərarlar, aparılan islahatlar, bax, bu məqsədi güdür".

Beynəlxalq miqyasda da təqdir olunan məhkəmə hüquq islahatları nəticəsində məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi vətəndaşların hüquq və azadlıqlarının təminatı sahəsində mühüm nailiyyətlər əldə edilmiş, qanunçuluğun və müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi istiqamətində görülən tədbirlər ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına səbəb olmuş və bu uğurlu islahatlar bu gün də davam etdirilir.

***Çingiz MƏMMƏDOV,***
***Gəncə Apelyasiya***
***Məhkəməsinin hakimi***

# Professor Nərgiz Paşayeva Oksford Universitetinin Kanslerinin Xeyriyyəçilər Komitəsinin daimi üzvlüyünə qəbul edildi

*Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adı Oksfordun şərəf tarixinə - Klarendon Arkasına həkk olundu*

Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, Oksford Universitetinin Nizami Gəncəvi adına Elmi mərkəzinin *(www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus)* Azərbaycan tərəfdən rəhbəri, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun *(www.bfsac.org.uk)* Qəyyumlar Şurasının sədri akademik Nərgiz Paşayeva Oksford Universitetinin Kansleri Lord Patten Barnesin rəhbərlik etdiyi Xeyriyyəçilər Komitəsinin üzvlüyünə təntənəli surətdə qəbul edilib.

AZƏRTAC xəbər verir ki, Oksford Universitetinin Kansleri Lord Patten Barnesin dəvət məktubu ilə oktyabrın 11-də professor Nərgiz Paşayeva Kanslerin Xeyriyyəçilər Komitəsinin 28-ci illik xüsusi mərasimində həmin şərəfli titulu qəbul etmək üçün iştirak edib. Bununla yanaşı, diqqətləri çəkən və Oksford Universiteti tarixinə yazılan bir qərarın seremonial icrası da baş tutdu. Belə ki, Oksford Universiteti rəhbərliyinin və Elmi Şurasının qərarı ilə Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adı Kanslerin Xeyriyyəçilər Komitəsinin daimi üzvü kimi dünya şöhrətli alimlər, ictimai xadimlər və nüfuzlu təşkilatlarla yanaşı, XVII əsrə aid Klarendon binasının Arkasında *(www.oxfordhistory.org.uk/broad/buildings/south/clarendon.html)* Xatirə Lövhəsinə həkk olundu.

Oksford Universitetinin dəyər verdiyi tərəfdaşlarını daimi tanıtdırmaq ənənəsi var. Bu tarixi ənənəyə əsasən, XIV əsrdən başlayaraq universitetin birinci dərəcəli binası, onun qəlbi sayılan tarixi əhəmiyyətli məşhur Bodleyn Kitabxanasının *(www.bodleian.ox.ac.uk)* girişində yerləşən Klarendon Arkasında *(www.oxfordhistory.org.uk/broad/buildings/south/clarendon.html)* universitetin ən alicənab xeyriyyəçilərinin və dünyada tanınmış insanların adları həkk edilir. Bu tarixi bina 1711-1715-ci illərdə Nicholas Hawksmoor tərəfindən tikilib. Bina ilk vaxtlar Oksford Universitetinin Mətbuat evi üçün nəzərdə tutulmuşdu. İndi burada Bodleyn kitabxanasının bir hissəsi yerləşir. Klarendon binasının adı İngiltərədə qeydə alınmış tarixi binaların siyahısında ilk sıralardadır. Binanın bir hissəsi Lord Klarendon tərəfindən maliyyələşdirildiyi üçün onun şərəfinə adlandırılıb. İndiyədək Klarendon Arkasında universitetin ən görkəmli xeyriyyəçilərinin adları həkk edilib. Burada Oksford və dünya tarixində ən tanınmış şəxslərin - Ser Tomas Bodley, Ülyahəzrət Kraliça I Elizabeth, John Radcliff, William Camden, I Kral Charles, Elias Ashmole, I Kral George, George Aldrich, Joseph Boden, Anne Kennicott, Ser Robert Taylor, John Hall, Charlotte Sutherland, John Ruskin, Rebecca Flower Squire, Christopher Welch, Henry Wilde, The Rhodes Trust, The Rockefeller Fondu, Sir Arthur John Evans, The Ford Fondu, The Bernard Sunley Xeyriyyə Fondu, Institute of Transport, Action Research, Cancer Research Campaign, Fereydoun Soudavar, British Petroleum kimi şirkətlərin adları qeyd olunub. Müasir dövrə aid olan Weston Ailəsi, Professor Richard Diebold Jr., Ser Ronald Cohen, Leonard Blavatnik kimi məşhurlar da daxil olmaqla 230 nəfər görkəmli alim, ictimai xadim və nüfuzlu təşkilatların adları xatirə lövhəsinə əbədi olaraq yazılıb. 2018-ci il oktyabrın 11-dən etibarən Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adı da dünyada tanınmış məşhurlarla yanaşı, Oksford Universitetinin Klarendon Arkasına həkk edildi.

Qürurla qeyd olunmalıdır ki, Oksford Universitetində xüsusi xidmətləri olan şəxslər arasında ilk dəfə azərbaycanlı alim, Oksford Universitetinin Nizami Gəncəvi adına Elmi mərkəzinin *(www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus)* yaranmasının təşəbbüskarı və rəhbəri, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının sədri, professor Nərgiz Paşayeva Oksford Universitetinin Kanslerinin Xeyriyyəçilər Komitəsində rəsmən daimi təmsil olundu. Beləliklə, həmyerlimiz professor Nərgiz Paşayeva son reytinqə görə dünyanın birinci ali məktəbi sayılan Oksford Universitetinin tarixində xüsusi xidmətləri olan alimlərdən, ictimai xadimlərdən və nüfuzlu təşkilatlardan ibarət Kanslerin Xeyriyyəçilər Komitəsinə üzvlüyə qəbul edilən və universitetin xüsusi mantiya və qızılı ipli baş geyim dəsti ilə təltif edilən ilk azərbaycanlı oldu. Universitet tarixində xüsusi xidmətləri olan alimlərə verilən bu şərəf professor Nərgiz Paşayevanın əməyinə və onun təşəbbüsü ilə Oksford Universitetində yaradılmış Nizami Gəncəvi Elmi Mərkəzinin fəaliyyətinə verilən dəyərli qiymətin göstəricisidir. Protokola və ənənəyə uyğun olaraq Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvlüyünə qəbul edilən şəxslər Komitənin digər üzvlərindən qızılı sapla bəzədilmiş xüsusi geyimi ilə seçilirlər. Bununla da həmin üzvlərin Oksfordun akademik sahələrinə uzunmüddətli və çoxsahəli töhfə vermələri Oksford Universiteti tərəfindən böyük ehtiramla qəbul və qeyd olunur.

Xeyriyyəçilər Komitəsinin ənənəvi illik toplantısı Oksford Universitetinin ən görkəmli və sadiq dostlarını bir araya gətirir. Tədbirdə komitəyə yeni üzvlərin qəbul edilməsi və bir sıra mühüm elmi-tədqiqat işlərinin təqdimatı keçirilir. Həmin gün ən nüfuzlu alimlərin, xeyriyyəçilərin və təşkilatların adları əvvəl bildirdiyimiz kimi, başqalarından seçilərək xatirə lövhəsində həkk edilir. Həmçinin aktual məsələlərlə əlaqədar tanınmış alimlərin təqdimatları dinlənilir, universitet rəhbərliyi ilə müzakirələr aparılır. Rəsmi mərasimdən sonra universitetin yeni tədqiqat mərkəzlərinin bir hissəsinə baxış da keçirilir.

Ənənəyə uyğun olaraq bu il tarixi Divinity School (İlahiyyat fakültəsi) binasında xüsusi mərasim keçirilib. Dünya miqyaslı alim və ziyalılarla yanaşı, professor Nərgiz Paşayevaya Oksford Universitetinin tarixində xidməti



Oksford Universitetinin Kansleri Lord Patten Barnes və prof.N.Paşayeva (11.10.2018)

olan alim kimi mantiya və qızılı ipli baş geyim dəsti təqdim edilib. Sonra Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvləri və digər mərasim iştirakçıları Oksford Universitetinin Kansleri Lord Patten Barneslə görüşüb, xatirə şəkilləri çəkdiriblər.

Kanslerin Xeyriyyəçilər Komitəsinin 28-ci illik toplantısı hələ XVI əsrdə Britaniya parlamentinin toplaşdığı məşhur Konvokeyşn binasında (Convocation House) keçirilib. Tədbirin əvvəlində komitəyə yeni üzvlərin qəbul edilməsi mərasimi baş tutub. Oksford Universitetinin ənənələrinə uyğun olaraq, komitənin yeni və mövcud üzvləri prosedura uyğun sıra ilə Vren Qapısı (Wren Door) və Kansler Komitəsindən keçərək İlahiyyat fakültəsindən Convocation binasına təntənəli surətdə daxil olublar. Sıranın başında mərasimin marşalı, mərasimin aparıcısı Kansler Lord Patten Barnesin, daha sonra baş proktor, kiçik proktor, vitse-kansler, iclas iştirakçısı, proktorların katibi, ardınca mövcud Komitə üzvləri: Dr Chung Hon Dak, Mr Peter Levine, Dr Kotaro On, Sir Howard Stringer, Dr Robert Easton, professor Raymond Dwek, Lady Marina Marks, Dame Theresa Sackler, Mr Bernard Taylor, professor Chas Bountra qədim mərasim zalına daxil olublar.

Mərasimin ardıcıllığına görə Kanslerin Xeyriyyəçilər Komitəsinin mövcud üzvlərinin ardınca professor Nərgiz Paşayeva ilə yanaşı, digər yeni üzvlər təltifolunma və yüksək kürsü zalına daxil olublar. Onların arasında Əlahəzrət Sultan Nazrin Muizuddin Şah, Sir Peter Luff, Sir Martin Smith və Ledi Smith var. Qeyd edək ki, bu il yalnız üç adın təqdim olunan siyahıdan Klarendon Arkasında əbədi olaraq yazılması Oksford Universitetinin Ali Şurası tərəfindən təsdiq edilib, bunlardan biri də professor Nərgiz Paşayevanın Qəyyumlar Şurasına sədrlik etdiyi Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondudur.

Universitetin ali yığıncağının təntənəli proseduru zamanı mərasimin protokoluna uyğun olaraq ictimai oratoru yüksək tribunadan qeyd edib ki, Kanslerin Xeyriyyəçilər Komitəsində Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondu professor Nərgiz Paşayeva tərəfindən təmsil olunur. Xüsusi orator aşağıdakı sözləri ali yığıncağa bəyan edərək deyib: *"Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun dəstəyi ilə Azərbaycanın, Qafqazın və Orta Asiyanın tarixi, dilləri və mədəniyyətlərinin öyrənilməsi üçün Oksfordda Mərkəz açıldı.*

*Fondun dəstəyi sayəsində üç fəlsəfə doktoru (DPhil) təqaüdünün ayrılması imkanı yaranacaq, eləcə də tədqiqatçı alimlərə, müxtəlif tədbirlərin proqramlarına, həmçinin idarəetmə məsələlərinə dəstək veriləcək. Fond, həmçinin Orta Şərq və İslam Kolleksiyaları üzrə kitabxanaçı vəzifəsi və Oksford Universitetinin Türk Dilləri Bölməsində Azərbaycanın rəsmi dili olan Azərbaycan dili ilə tanış olmaq və dili öyrənmək istəyən tələbələr üçün təlimatçı vəzifəsinin yaradılmasına dəstək verib.*

*Britaniya Fondunun dəstəyi Bodleyn kitabxanasına tələbə və tədqiqatçılar üçün oxu otağı açılması ilə yanaşı, bölgənin nadir və əhəmiyyətli materialları ilə öz kitab fondlarını artırmağa imkan verəcək. 12-ci əsrin şairi Nizaminin adını daşıyan Mərkəzin yaradılması 2013-cü ildə başlamış Nizami Gəncəvi Proqramının 5 illik uğurlu tədqiqat fəaliyyətinin nəticəsidir.*

*Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondu Azərbaycana və geniş Qafqaz regionuna aid təhsil və mədəni layihələri dəstəkləmək üçün yaradılıb. Fondu Kanslerin Xeyriyyəçilər Komitəsində Fondun Qəyyumlar Şurasının sədri professor Nərgiz Paşayeva təmsil edir. Nizami Gəncəvi Mərkəzinin yaradılmasının təşəbbüskarı olan professor Nərgiz Paşayeva MDU-nun Bakı filialının rektoru və MDU-nun fəxri professorudur".*

Bundan sonra Oksford Universitetinin Kansleri Lord Patten Barnes böyük toplantıya professor Nərgiz Paşayevanın universitetin yaxın dostu və mötəbər akademik tərəfdaşı kimi tanındığını bildirib və Kanslerin Xeyriyyəçilər Komitəsinə daimi üzv kimi qəbul edildiyini bəyan edib: *"Siz indi mənə universitetin mötəbər dostu və tərəfdaşı kimi təqdim edildiniz. Sizi Fəxri üzv kimi Xeyriyyəçilər Komitəmə qəbul edirəm və Sizin bu alicənablığınızı sevinclə qəbul edərək Klarendon Arkasının altındakı tabloda adınızın yazılmasını bəyan edirik".* Bu sözləri 2018-ci ilin oktyabrın 11-də dünyanın birinci universitetinin ən yüksək tribunasından Oksford Universitetinin Kansleri Lord Patten Barnes deyib. Bundan sonra Lord Patten Barnes professor Nərgiz Paşayevaya bu sözləri təsdiq edən özünün imzaladığı ənənəvi qədim dildə yazılmış rəsmi sənədləri xüsusi bağlamalarda təqdim etdi.

Daha sonra Komitəyə yeni üzv seçilən digər şəxslərin də təqdimatı keçirilib. Qeyd edək ki, Kanslerin Xeyriyyəçilər Komitəsinin yeni üzvləri arasında dünya miqyasında tanınmış ictimai xadimlər və ziyalılar var. Yeni üzvlərdən Sultan Nazrin Muizuddin Şah 2014-cü ildən Malayziya Sultanlığı Perak Sultanı və Malayziya Ali Qubernatorunun müavinidir. O, təhsilini Oksford Universitetində alıb, Harvard Universitetinin iqtisadiyyat fakültəsinin magistratura və doktoranturasını bitirib. Cənub-Şərqi və Şimal-Şərqi Asiyada iqtisadi və siyasi inkişafa dair bir çox elmi məqalələrin və kitabların müəllifidir. Malayziya Universitetinin Kansleri, Malayziya Universitetinin Elmi Şurasının sədri və Malayziyanın Müasir Dillər Assosiasiyasının rəhbəridir.

Bu il Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvlüyünə seçilən Sir Peter Luff isə 2015-ci ildən Böyük Britaniya Milli İrs Memorial Fondu və Miras Lotereya Fondunun sədridir. O, həmçinin Böyük Britaniyanın aviasiya sistemləri, milli təhlükəsizlik, rabitə və elektron sistemləri üzrə baş məsləhətçisidir. Sir Peter Luff 23 il müddətində Vorçesterdən seçilən parlament üzvü kimi fəaliyyət göstərib. O, həmçinin Britaniyanın avadanlıq və texnologiya üzrə müdafiə naziri olub. Britaniyanın İctimaiyyətlə Əlaqələr İnstitutunun fəxri üzvüdür. Kral İncəsənət Cəmiyyətinin üzvü olan Sir Peter Luff 2014-cü ildə ictimai siyasi xidmətinə görə cəngavər tituluna layiq görülüb. Bir daha qeyd edək ki, yalnız Əlahəzrət Sultan Nazrin Muizuddin Şah, Sir Peter Luff və professor Nərgiz Paşayevanın Qəyyumlar Şurasına sədrlik etdiyi Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adları Klarendon Arkasında əbədi olaraq həkk edilib.

Komitənin yeni üzvləri sırasında Ser Martin və Lady Elise Smith ailəsi də var. Sir Martin Smith 1964-cü ildə Oksford Universitetində fizika sahəsində təhsil alıb, sonra sənaye ixtisası üzrə Kaliforniyada Stanford Universitetini bitirib. O, "Phoenix Securities" şirkətinin təsisçisi və baş tərəfdaşı, Avropa İnvestisiya Bankının sədri, həmçinin səhiyyə xidmətləri göstərən "Worldwide Healthcare Trust" şirkətinin sədri və "Oxford Capital Partners" təşkilatının direktoru olub. O, həyat yoldaşı ilə birgə Oksford Universitetində "Smith School Enterprise and Environment" məktəbini yaradıb. Sir Martin Smith 2013-cü ildə sənət, təhsil və elm sahələrində xidmətlərinə görə Şöhrət rütbəsi alıb.

Beləliklə, yeni təsdiq edilmiş üzvlərin ardınca digər qəbul edilmiş üzvlər də zala daxil oldular. Onların arasında Mr Mohamed Amersi, Mrs Emma Marcegaglia, Mr Duncan Greenland və Mrs Barbara Greenland, Lord Livingston of Parkhead, Mr Bruns Grayson, Mr David Norwood və digərləri var idi.

Təntənəli mərasim başa çatdıqdan sonra illik toplantının növbəti mərhələsi - Klarendon Arkasında Xatirə Lövhəsinin təqdimatı keçirildi. Bu mərasim Oksfordun məşhur tarixi əhəmiyyətli binalarından sayılan Klarendonda *(www.oxfordhistory.org.uk/broad/buildings/south/clarendon.html)* baş tutdu.

Mərasim təntənəli sürətdə eyni sıralamada məşhur tarixi Konvocation zalına, Kansler Komitəsindən İlahiyyat fakültəsinin (Divinity School) (www.theology.ox.ac.uk) binası istiqamətində təntənəli yürüşlə başa çatıb.

Fasilədən sonra illik toplantı "Oksfordun Dəyişən Dünyaya Münasibəti" mövzusunda sessiya ilə davam edib. Sessiyada açılış nitqi ilə çıxış edən Oksford Universitetinin kansleri Lord Patten Barnes komitə üzvlərini universitetin gələcəyi ilə bağlı geniş müzakirələrdə iştirak etməyə, qlobal narahatlıq doğuran sahələrə dair fikirlərini bölüşməyə çağırıb. O, Oksfordun dünyanın ümumi rifahı naminə öyrətmə və maarifləndirmə kimi tarixi missiyasını davam etdirməyinə kömək edən hər bir kəsə minnətdarlığını ifadə edib. Kanslerin açılış nitqi və vitse-kanslerin müraciətindən sonra universitetin qarşısında duran ən vacib məsələlər haqqında müzakirələr aparılıb. Vitse-kansler professor Louise Richardson Oksforddakı yeniliklər haqqında məlumat verib. Yekunda Kansler və vitse-kansler iştirakçıların suallarını cavablandırıblar.

İllik toplantı çərçivəsində Blavatnik İdarəçilik fakültəsi və Beecroft binasında müxtəlif mövzularda təqdimatlar keçirilib. "İpək Yolları" bestsellerinin müəllifi, professor Peter Frankopan "Gələcəyin tarixi" mövzusunda təqdimatla çıxış edib. O, keçmişə baxışların dəyişdiyi və bunun XXI əsrdə vacibliyi haqda danışıb.

"Tuberkulyoz və yaxud qeyri-tuberkulyoz: cavab axtarışında" mövzusunda çıxış edən professor Helen McShane vərəmin hələ fironların vaxtında yaranması, ancaq indi daha çox yoxsulluq xəstəliyi kimi tanınması və yayılan bu patogeni aradan qaldırmağın yolları haqqında müzakirə açıb.

Toplantıda maraqla qarşılanan təqdimatlardan biri də "Young Lives" araşdırma proqramının direktoru, professor Jo Boydenin "Qlobal məqsədlər dünyanın ən kasıb uşaqlarına xidmət edirmi?" mövzusundakı araşdırması oldu. Bu proqram çərçivəsində 12 min uşaq arasında uzunmüddətli tədqiqat aparılıb. Nəticədə uşaqlar arasında yoxsulluq və gender bərabərsizliyini aradan qaldırmaq, bütün uşaqların keyfiyyətli təhsillə təmin edilməsi naminə beynəlxalq səylərin nailiyyətləri və uğursuzluqları təqdim olunub.

"Beecroft binasının pərdə arxası" adlı təqdimatda isə professor İan Shipsey və professor John Wheater Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvlərini Oksfordun innovativ Beecroft binasına özəl tura dəvət ediblər. Onlar Oksford Universitetinin fizika sahəsində qabaqcıl tədqiqatları ilə bağlı məlumat veriblər, kosmosdan başlayaraq, Yer kürəsinin iqlimi ilə əlaqədar vacib sualları cavablandırıblar. Qonaqlar, həmçinin Oksfordda dünyanın ən qiymətli əlyazmalarının necə qorunduğunu görmək üçün Veston Kitabxanasındakı Konservasiya Mərkəzinə baxış keçiriblər.

Kanslerin Xeyriyyəçilər Komitəsinin 28-ci illik mərasimi Oksford Universitetinin Rodes House binasının Milner Holl zalında *(http://conference-oxford.com/venues/conference/rhodes-house)* Kanslerin qəbulu və təntənəli Qala şam yeməyi ilə yekunlaşıb. Qala şam yeməyində universitetin Kansleri Lord Patten, vitse-kansleri professor Luiz Riçardson, Oksford Universitetinin məşhur nüfuzlu alimləri, ali qonaqlar, dünyanın tanınmış ictimai xadimlər və ziyalılar, eləcə də Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin Britaniya tərəfindən rəhbəri professor Edmund Herziq və həmin Mərkəzin Azərbaycan tərəfindən rəhbəri professor Nərgiz Paşayeva, Britaniya parlamentinin Lordlar Palatasının üzvü və Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının üzvü Lord Malkolm Bryus, Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvləri iştirak ediblər.

Britaniya kimi qədim tarixi ənənəsi olan ölkədə və eləcə də qlobal elmi səviyyədə mühüm rol oynayan mötəbər elm ocağı kimi tanınan Oksford Universitetində 2013-cü ilədək, yəni Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzi yaranana qədər Qafqazın qədim tarixi və mədəniyyəti çox hallarda birtərəfli əsasən erməni tarixi və bir qədər də gürcü tarixi baxımından öyrənilib. Hələ 1965-ci ildə Oksford Universitetinin Şərqşünaslıq fakültəsində erməni elmi mərkəzi yaradılıb və bu günə kimi fəaliyyət göstərir. Təəssüflər olsun ki, bunun müqabilində, yəni 2013-cü ilədək bir dövr ərzində bununla bağlı heç bir iş görülməyib. Halbuki, tarixi həqiqətləri elmi əsaslar və sübutlar üzərində qurub təqdim edən Britaniya cəmiyyətində əvvəlcə məhz fundamental elmi ocaqlarla müştərək professional elmi əlaqələr birinci dərəcəli əhəmiyyətə malikdir. Bu gün Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzi Azərbaycan kontekstini İngiltərənin və onun cəmiyyətinin qaydalarına uyğun olaraq layiqli səviyyədə Britaniyada təqdim və təmsil edir. Şübhəsiz ki, bu, ölkəmizin tək beynəlxalq akademik aləmdə deyil, ümumiyyətlə sivil və qabaqcıl dünyada imicinə və adına şərəf, dəyər gətirən və intellektual nəsillərin dünya elm məbədi sayılan Oksford Universitetindən bəhrələnməsinə imkanlar yaradan böyük hadisədir.

Xatırladaq ki, professor Nərgiz Paşayevanın təşəbbüsü və şəxsi səyi ilə yaradılmış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi 2013-cü ildən Oksford Universitetində fəaliyyətə başlayıb. Bu il mayın 23-də Elmi Mərkəzin universitetin tərkibində daimi mövcudluğu haqqında müqavilə imzalanıb. İmzalanma mərasimi Oksford Universitetinin protokoluna əsasən bu ali təhsil ocağının XVII əsrdə yaradılmış Klarendon Kollecində keçirilmişdi.

Elm və təhsil sahəsində əsrin kontraktı adlandırılan bu müqaviləni Oksford Universiteti tərəfindən ali məktəbin vitse-kansleri, professor Luiz Riçardson və Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının sədri, Moskva Dövlət Universitetinin Bakı filialının rektoru professor Nərgiz Paşayeva imzalayıblar. Müqaviləyə əsasən, Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi Oksford Universitetində yüksək statuslu elmi-akademik Mərkəz olaraq, universitetin ayrılmaz bir hissəsi kimi daimi fəaliyyət göstərir. İmzalanmış müqavilənin bəndlərindən birində Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına dahi Azərbaycan şairi Nizami Gəncəvinin adının verilməsi də qeyd olunub. Klarendon binasının Arkasında Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adının həkk edilməsi bu möhtəşəm başlanğıcın uğurlu davamı kimi qiymətləndirilib. Böyük Britaniyanın görkəmli elm, mədəniyyət və ictimaiyyət xadimlərinin iştirakı ilə Oksford tarixində ən tanınmış adlarla birlikdə Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adının Oksford Universitetinin Klarendon Arkasına yazılması və ilk dəfə azərbaycanlı alimin, professor Nərgiz Paşayevanın Oksford Universitetinin Kanslerinin Xeyriyyəçilər Komitəsinin üzvlüyünə qəbul edilməsi Azərbaycan üçün tarixi bir gün olaraq yaddaşlarda qalacaq. Bu böyük və şərəfli hadisə gələcəyə ümidli baxışları, yeni nəslin istedadlarını, yeni böyük imkanları, əlaqələri, ümumbəşəri dəyərlərin üstünlüyünü, təntənəsini daim təzahür edəcək. Belə ali lövhədə Azərbaycanın imzası oldu və gələcək nəsillərə qaldı. Eləcə də, qəlbində Azərbaycan sevgisi və milli ehtirası olan hər bir kəsin əsrlərlə qürur duyacağı bir tarixə çevrildi.

---

*Hikmət HACIYEV:*

# "Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə xarici siyasət sahəsində ciddi uğurlara imza atıb"



"Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası dövlət quruculuğunun bütün istiqamətlərində, o cümlədən xarici siyasət sahəsində ciddi uğurlara imza atıb. Azərbaycan Respublikası, sözün əsl mənasında, müstəqil xarici siyasət yürüdən ölkədir. Bu müstəqil siyasətin əsasını Azərbaycanın milli maraqları və ölkə vətəndaşlarının mənafeyinin qorunması təşkil edir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu strategiya tarixi təcrübəni, geosiyasi reallıqları nəzərə alaraq, çoxistiqamətli və tarazlaşdırılmış əsasda praqmatik və realist prinsiplərlə həyata keçirilir. Etiraf etmək lazımdır ki, dünya miqyasında heç də hər bir dövlət müstəqil xarici siyasət yürütmək iqtidarında deyil. Azərbaycan xalqı daxili siyasətdə olduğu kimi, xarici siyasət sahəsində də dövlət başçısının yürütdüyü xətti tam şəkildə dəstəkləyir.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, Azərbaycan xarici siyasət sahəsində nailiyyətlərini Ermənistanın ölkəmizə qarşı davam edən hərbi təcavüzü, erməni lobbi dairələri və onların havadarlarının respublikamıza qarşı apardığı psixoloji müharibə və dezinformasiya kampaniyalarına baxmayaraq əzmlə davam etdirir. Məqsədyönlü fəaliyyətin nəticəsidir ki, bütün beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini, sərhədlərinin toxunulmazlığını və Ermənistan-Azərbaycan münaqişəsinin məhz bu prinsiplər əsasında həllini dəstəkləyir.

Mürəkkəb geosiyasi regionda yerləşən Azərbaycan sabitlik adasıdır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu gün Azərbaycanda sabitlik və təhlükəsizlik tam şəkildə təmin olunub, ölkəmizdə daxili risk mənbələri mövcud deyil. Çevik və prinsipial xarici siyasət vasitəsilə xaricdən olan hədə və təhdidlərin qarşısı alınır, ölkəmiz ətrafında xoşməramlı əməkdaşlıq mühiti və daxili inkişaf üçün münbit zəmin yaradılır. Eyni zamanda, ölkəmizin daxili inkişafı xarici siyasətimizin müstəqilliyini və strateji manevr qabiliyyətini təmin edir. Gərgin və nizamsız beynəlxalq münasibətlər şəraitində ölkəmiz beynəlxalq hüququn norma və prinsipləri əsasında xarici siyasət yürüdərək heç bir dövlətin daxili işlərinə qarışmır və özünün də daxili işlərinə qarışmağa heç bir dairəyə imkan vermir.

Hikmət Hacıyev vurğulayıb ki, Azərbaycan Respublikası beynəlxalq münasibətlərin layiqli, etibarlı və məsuliyyətli üzvüdür. Ölkəmizin malik olduğu nüfuz və diplomatik resurslar yalnız yerləşdiyimiz regionla məhdudlaşmır, beynəlxalq xarakter daşıyır. İkitərəfli əməkdaşlığımızın coğrafiyası və məzmunu daim genişlənir, Azərbaycanın tərəfdaşlarının sayı artır. Ölkəmiz müxtəlif əməkdaşlıq layihələri ilə region və onun hüdudlarından kənarda sülh, sabitlik və çiçəklənmənin sərhədlərinin genişləməsinə töhfə verir. Başqa sözlə desək, Azərbaycan bu gün təhlükəsizliyin və sabitliyin ixracatçısıdır. Həmçinin Azərbaycan müasir dövrün hədə və təhdidlərinin qarşısının alınmasında beynəlxalq birliyin səylərini yaxından dəstəkləyir.

Bakı bu gün beynəlxalq münasibətlərdə diplomatik paytaxt rolunda çıxış edir. Tamamilə fərqli fikir və baxışlara, hətta ziddiyyətlərə malik ölkələr və təsisatların dialoq məkanı olaraq Bakını seçmələri heç də təsadüfi deyil.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən üçtərəfli regional əməkdaşlıq formatı beynəlxalq səviyyədə diplomatik yenilik kimi qəbul olunaraq, ikitərəfli əlaqələrimizi tamamlayır və yeni əməkdaşlıq imkanları yaradır.

Dənizlərə çıxışı olmayan Azərbaycan Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Şərq-Qərb, Şimal-Cənub, Cənub-Qərb marşrutları üzrə dünya okeanlarını və qitələri birləşdirən nəqliyyat layihələrinin müəllifidir. Azərbaycan qlobal enerji təhlükəsizliyinə, o cümlədən Avropanın enerji təchizatına töhfə verən dövlətdir.

Fəal ikitərəfli diplomatik səylərimiz çoxtərəfli müstəvidə aparılan ardıcıl addımlarla müşayiət olunur. Beynəlxalq gündəlikdə duran fundamental məsələlər üzrə Azərbaycanın prinsipial və qəti mövqeyi var. İntensiv diplomatik rəqabət şəraitində 2012-2013-cü illərdə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan yüksək etimadını bir daha nümayiş etdirdi. Azərbaycan şərəflə və yüksək peşəkarlıqla BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünü həyata keçirdi, beynəlxalq gündəm üçün aktual olan bir sıra təşəbbüslərin müəllifi kimi çıxış etdi.

Azərbaycanın Kimyəvi Silahların Qadağan olunması Təşkilatı, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin İcraiyyə Şurasında, 2017-2019-cu illər üzrə BMT-nin İqtisadi və Sosial Şurasında (ECOSOC) üzvlüyü, 2018-2022-ci illər üzrə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsində təmsil olunması beynəlxalq ictimaiyyətin ölkəmizə davamlı etimad və dəstəyinin göstəricisidir. Həmçinin 2019-2022-ci illərdə Azərbaycan 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrliyi həyata keçirəcək.

Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlarda seyrçi mövqeyində deyil, təşəbbüskar rolunda çıxış edir və təşkilatların gündəliyinin formalaşdırılmasında öz mühüm rolunu oynayır. Tamhüquqlu üzv olduğumuz beynəlxalq təşkilatlarla bərabər, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlarla əməkdaşlıq əlaqələri də inkişaf etdirilir.

Dövlətimizin başçısının qayğısı və diqqəti əsasında ötən müddət ərzində xarici siyasət fəaliyyətimizin təlim-tədris və maddi-texniki bazası inkişaf etdirilib və möhkəmləndirilib. Səksənə yaxın ölkədə Azərbaycanın diplomatik nümayəndəlikləri mövcuddur. Bütün bu diplomatik nailiyyətləri Azərbaycan 15 illik qısa müddət ərzində əldə edib.

Prezident Administrasiyasının rəsmisi vurğulayıb ki, uğurlu xarici siyasətin arxasında Prezident İlham Əliyevin düşünülmüş, məntiqli və təmkinli siyasəti, gərgin iş qrafiki, çoxsaylı və intensiv görüşləri, xarici səfərləri, mötəbər beynəlxalq tədbirlərdə çoxsaylı çıxışları, qəbul etdiyi çevik qərarları və verdiyi tapşırıq və təlimatları durur. Xarici siyasət fəaliyyəti, mahiyyət etibarilə, uzunmüddətli perspektivi əhatə edir. Dövlətimizin başçısının xarici siyasət sahəsində bu gün irəli sürdüyü bir sıra təşəbbüslər və layihələr var ki, Azərbaycan xalqı hələ qarşıdan gələn onilliklər ərzində onların bəhrəsini və faydasını görəcək.

Beynəlxalq ictimai-siyasi və elmi dairələrdə ölkələrin yürütdüyü xarici siyasət "smart", "soft", "hard power" və sair bu kimi müxtəlif nəzəri modellər, doktrina və konsepsiyalarla izah olunur.

Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət "Intelligent Foreign Policy" (müdrik, zəkalı xarici siyasət) kimi qiymətləndirilir və xarakterizə olunur.

# İqtisadi təhlükəsizlik inkişafın əsas şərtidir

**Oktyabrın 9-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirildi. Dövlət başçısı iclasda çıxış edərək ölkə üçün əhəmiyyətli, taleyüklü məsələlərə toxundu.**




Ölkəmizin iqtisadi inkişafından söz açan İlham Əliyev bildirdi ki, bu sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılıb.

Deputatlar, ekspertlər də Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının inkişafı ilə bağlı söylədiyi fikirləri, Azərbaycanda düşünülmüş iqtisadi siyasətin aparıldığını və ölkə iqtisadiyyatı qarşısında hər hansı bir problem olmadığını təsdiqləyirlər.

## Azərbaycan dünyadakı yerini və mövqeyini daha da gücləndirir

"Ötən illər ərzində Azərbaycan dinamik və sıçrayışlı inkişaf tempini qoruyub saxlaya, öz iqtisadiyyatını gücləndirə, dayanıqlı edə, regionun, bölgənin sabitlik və təhlükəsizlik adasına çevrilməsinə nail ola bilib". Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə deyib.

İclasda söylənən fikirləri təhlil edən Ziyad Səmədzadə əldə edilən hər bir uğurun xalqın, dövlətin iqtisadi və siyasi gücünün xeyrinə olduğunu bildirib: "Bu cür iclasların keçirilməsi çox əhəmiyyətlidir. Çünki bu iclaslarda Azərbaycanın daha da irəliyə getməsi, öz sabitliyini, təhlükəsizliyini, inkişafını möhkəm və dayanıqlı etməsi yolunda konkret hədəflər müəyyənləşdirilir, çağırışlar edilir, məsələ verilir. Bu dəfə də məhz belə oldu. Müşavirədə səslənən fikirlər bir daha göstərdi ki, müstəqil Azərbaycan dövlətinin apardığı siyasət xalqın maraqlarına, dövlətimizin iqtisadi təhlükəsizliyinin qorunmasına xidmət edir. Dövlət başçısı həm giriş, həm də yekun nitqində dolğun, əhatəli, çox məzmunlu şəkildə ölkədə, ətrafımızda, dünyamızda yaşananlara münasibət bildirdi, növbəti və gələcək hədəflərimizin anonslarını verdi. O, Azərbaycanda müstəqilliyin 100-cü ilində görülən işlərin miqyasından danışdı və hər bir vətəndaşımız fəxr edə bilər ki, bu 100 il ərzində ölkəmiz böyük inkişaf yolu keçib".

Komitə sədrinin sözlərinə görə, dövlət başçısının son dərəcə düşünülmüş və uzaqgörən siyasəti, ölkədə qeyri-neft sektorunun inkişafı istiqamətində ikinci mərhələyə start verilməsi ilə iqtisadi inkişaf tempi əvvəlki vəziyyətinə qaytarıldı, Azərbaycan regionun və bölgənin lider dövləti olaraq, dünyadakı yerini və mövqeyini daha da gücləndirdi.

## İdxal-ixrac arasında nisbət optimallaşır

Ziyad Səmədzadə qeyd etdi ki, 2018-ci ildə həyata keçirilən dünya miqyaslı layihələr Azərbaycana başucalığı gətirib: "Ölkədə sivil dövlətlərə xas olan ticarət sistemi formalaşıb. Müşavirədə cənab Prezident də dedi ki, qarşıya nə məqsəd qoyulmuşdusa, hamısına nail olunub. Qlobal dünyada baş verən risklərə baxmayaraq ölkəmiz iqtisadiyyatını inkişaf etdirir. Qeyri-neft sektorunun, sənaye istehsalının yüksək şəkildə inkişafı müşahidə edilir. İdxal, ixrac arasında nisbət optimallaşır. Vergi, gömrük sahələrində şəffaflığın artırılması istiqamətində irimiqyaslı addımlar atılır. Həm cənab Prezident, həm də vergilər naziri Mikayıl Cabbarov da bunu qeyd etdi. Elə bir sahə yoxdur ki, ölkə iqtisadiyyatının arxada qalan 9 ay ərzində nailiyyətləri qeydə alınmasın. Aqrar sektorun strukturunun təkmilləşməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edən proqramların həyata keçirilməsi, əsaslı tikinti, Azərbaycan iqtisadiyyatına investisiyaların qoyulması, nəqliyyat dəhlizinin gündən-günə genişlənməsi, Ələt Azad İqtisadi Zonasının yaradılması, may-iyul aylarında iki nəhəng layihənin - "Cənub qaz dəhlizi"nin və "TANAP"-ın təntənəli açılış mərasiminin düzənlənməsi, ötən ilin sonlarında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə salınması, TAP-la bağlı işlərin sürətləndirilməsi və yekunlaşdırılması istiqamətində davamlı addımların atılması, Xəzəryanı 5 dövlət başçısının bir araya gələrək Aktauda Xəzərin hüquqi statusunu müəyyənləşdirən Bəyannaməyə imza atması ölkəmizin, dövlət rəhbərimizin nə qədər böyük güc və iradə sahibi olmasının əyani və bariz nümunəsidir".

Komitə sədri vurğuladı ki, ulu öndər Heydər Əliyevin qurduğu Azərbaycan dövləti, inkişafın Azərbaycan modelinin artıq dünyada geniş nüfuz qazanması, bunun nəticələri göz qabağındadır: "İqtisadçı, ziyalı, komitə sədri kimi qürur hissi keçirirəm ki, Azərbaycan dövlətinin 100-cü ili də tarixə şərəfli il kimi yazılacaq. Hesab edirəm ki, 2018-ci ilin son üç ayı da çox uğurlu olacaq".

## İqtisadi artım iqtisadiyyatın bütün sektorlarını əhatə edir

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişili də bizimlə söhbətində Azərbaycanda iqtisadiyyatın bütün sektorlarında dinamik artım və böyük keyfiyyət dəyişiklikləri müşahidə olunduğunu təsdiqlədi.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, dərin təhlillərə əsaslanan iqtisadi və xarici siyasət nəticəsində Azərbaycan iqtisadi əhatə dairəsini getdikcə genişləndirir və öz iqtisadi maraqlarının Avrasiya regionunda təmin olunması istiqamətində əhəmiyyətli nəticələr əldə edir: "Bu il "Cənub qaz dəhlizi", SOCAR Polymer zavodu, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı, "Azerspace 2" peyki kimi həyata keçirilən mühüm layihələr ölkəmizə böyük həcmdə iqtisadi fayda verməklə yanaşı, Azərbaycanın təsir imkanlarını artırır, ölkəmizin daha da inkişaf etməsində yeni və dayanıqlı mənbələr yaradır".

2018-ci ilin 9 ayının yekunlarına əsasən iqtisadi artımın iqtisadiyyatın bütün sektorlarını əhatə etdiyini söyləyən deputat bildirib ki, xarici ticarət dövriyyəsinin 37 faiz, ixracın 37.3 faiz artması Azərbaycan iqtisadiyyatının ənənəvi və qeyri-ənənəvi bazarlarda mövqelərinin möhkəmlənməsindən xəbər verir. Bu ilin 9 ayının nəticəsinə görə əhali tərəfindən istehlak olunan ərzaq, içki və tütün məhsullarının 80 faizinin yerli istehsal hesabına təmin edilməsi iqtisadi təhlükəsizliyimiz üçün çox mühüm nəticədir. Əhalinin gəlirlərinin inflyasiyanı 7 faiz üstələməsi isə insanların rifah halının yaxşılaşmasının göstəricisidir. 2018-ci ilin 9 ayı ərzində 85 000 yeni iş yerinin açılması məşğulluq səviyyəsini daha da artırıb.

Tahir Mirkişilinin sözlərinə görə, ölkəyə yeni texnologiyaların cəlb edilməsi ilə insan kapitalı inkişaf edir və bütün bunların nəticəsi isə insanların rifah halının yaxşılaşmasında, onların təhlükəsiz yaşamasında öz əksini tapır və tapacaq.

*Fərizə ƏHMƏDOVA,*
*"Azərbaycan"*

# Rusiyadan məhsuldar taxıl toxumu gətirilir



Dövlət Toxum Fondu Rusiyanın Stavropol vilayətindən quraqlığa və kəskin iqlim şəraitinə dözümlü 180 ton elit "Qrom" və "Krasnodar 99" buğda toxumları gətirib. Yüksək məhsuldarlıqları ilə seçilən toxumlar Şəkidəki anbardan fermerlərə satılıb.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildiriblər ki, toxumçuların və fermerlərin yüksək reproduksiyalı toxumlara olan tələbatlarını nəzərə alaraq toxumçuluq üçün nəzərdə tutulan elit toxumların gətirilməsi davam edəcək. Artıq Stavropol vilayətində toxumçuluqla məşğul olan şirkət ilə 140 ton "Qrom" elit toxumunun gətirilməsi üçün müqavilə bağlanıb.

Bundan əlavə, fond erkən əkilən, yüksək məhsuldarlıqlı və birinci reproduksiyalı kartof toxumlarını gətirməyi də planlaşdırır.

# Azərbaycan üçün yeni perspektiv: NAĞDSIZ İQTİSADİYYAT

**Bu il sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nı təsdiq edən sərəncam imzaladı. Əslində nağdsız ödənişlərin genişləndirilməsi Azərbaycan üçün yeni mövzu deyil.**

Prezident seçildikdən cəmi 1 il sonra - 2004-cü ildə İlham Əliyev "Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin İnkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı"nı təsdiq etmiş, 2005-ci ildə isə "Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzalamışdı. Bu problem sonralar da dövlət başçısının diqqət mərkəzində olmuşdu. Prezident 2013-cü ildə nağdsız hesablaşmaların səviyyəsinin yüksəldilməsinə qarşıdakı dövrdə çox ciddi fikir veriləcəyini, maliyyə sistemində şəffaflığın artırılması üçün xüsusi tədbirlər görüləcəyini bəyan etmişdi. Bundan sonra - 2016-cı ildə "Nağdsız hesablaşmalar haqqında" qanun qəbul olunmuş və Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilmişdi. Lakin Proqram 3-5 il əvvəl deyil, məhz indi qəbul olundu və bunun ciddi səbəbləri var.

*Birincisi, bu tip proqramların qəbul edilməsi üçün iqtisadi inkişaf bəlli bir səviyyəyə çatmalı və səbatlı xarakter almalıdır.* Son 15 ildə Azərbaycan iqtisadiyyatı ciddi bir inkişaf yolu seçmişdir. BVF-in statistikasına əsasən, 2017-ci ildə Azərbaycanda pulun alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla hesablanmış adambaşına ÜDM 2005-ci ildəkinə nisbətən 2,4 dəfə artaraq 17,5 min beynəlxalq dolları ötmüşdür.

Ölkənin valyuta ehtiyatları təqribən 45 milyard ABŞ dolları həcmindədir. Təkcə bu ilin ilk 9 ayı ərzində qeyri-neft sənayesində ÜDM-i 10,8 faiz, kənd təsərrüfatınınkı isə 4,3 faiz artmışdır; iqtisadiyyata 9 milyard ABŞ dolları həcmində investisiya yatırılmışdır; xarici ticarət dövriyyəsi 37, qeyri-neft ixracı təxminən 14 faiz çoxalmışdır. Beynəlxalq reytinq agentlikləri bu iqtisadi inkişaf trendlərinin yaxın illərdə də qüvvədə qalacağı haqqında nikbin proqnozlar verirlər.

*İkincisi, rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə irimiqyaslı tədbirlər görməkdən ötrü ölkədə müəyyən maddi-texniki hazırlıq (infrastruktur) olmalıdır.* Bu sahədə son illərdə nəzərəçarpacaq irəliləyişlər baş vermişdir. İqtisadi subyektlər arasında ödənişləri saniyələr ərzində və təhlükəsiz formada həyata keçirməyə imkan verən Milli Ödəniş Sistemi (MÖS) yaradılmış, dövlət başçısının 2004-cü və 2005-ci illərdə imzaladığı fərman və sərəncamlar əsasında aramsız olaraq təkmilləşdirilmişdir. 2017-ci il ərzində MÖS vasitəsilə aparılmış əməliyyatların həcmi 210 mlrd. manatı ötmüşdür. "Hökumət Ödəniş Portalı"nda (HÖP) 1000-dən çox ödəniş terminalı vasitəsi ilə 400-dən artıq dövlət xidməti (vergi, rüsum, icarəhaqqı, inzibati cərimələr və s.) üzrə ödənişlər həyata keçirilir. 2017-ci ildə bu portalda ümumi məbləği 2,1 mlrd. manat olan 36,6 mln. ödəniş əməliyyatı emal olunmuşdur. 2016-cı ildən "Banklararası Kart Mərkəzi" (BKM) fəaliyyət göstərir. İndi ölkədə hər 10 min nəfərə təqribən 6 min ödəniş kartı, 2,5 bankomat, 70 POS-terminal düşür, pensiyalar, təqaüdlər, sosial müavinətlər, büdcə təşkilatlarında işləyənlərin əməkhaqları kart vasitəsilə verilir.

*Nəhayət, üçüncüsü, ictimai rifah və ümumi intellektual-mədəni səviyyə elə bir həddə çatmalıdır ki, əhali telekommunikasiya xidmətlərindən sərbəst istifadə edə bilsin.* 2005-ci ildə Azərbaycanda hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı 8-i idisə, indi təxminən 80-dir. Ölkə ərazisi tamamən (100 faiz) mobil rabitə ilə əhatə olunur. 2005-ci ildə hər 100 nəfərə 27 mobil telefon nömrəsi düşürdüsə, indi təxminən 110 nömrə düşür. Bu göstəricilər ən müasir ödəniş sistemlərinin geniş miqyasda tətbiq olunması üçün yetərincə yüksəkdir. Hərçənd ki, əkstəsir də mövcuddur: əhalinin telekommunikasiya xidmətlərindən geniş istifadə etməsi həm ictimai rifaha, həm də ümumi iqtisadi mədəniyyət səviyyəsinin yüksəlməsinə əlavə təkan verir.

Baş vermiş dəyişikliklər onu göstərir ki, indi Azərbaycan iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsinə keçməyə artıq hazırdır.

*"Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın əsas məqsədi odur ki, vətəndaşlar, biznes subyektləri və dövlət strukturları arasındakı iqtisadi əməliyyatlarda nağdsız ödənişlər artsın və qarşılığında nağd dövriyyənin həcmi minimuma endirilsin.* Bəlkə də bu məqsəd kiməsə "balaca məsələ" kimi görünə bilər, amma bu tamamilə yanlış təəssüratdır.

İş burasındadır ki, əməliyyatların nağd pulla aparılması bir sıra neqativ proseslərə yol açır. Hər şeydən əvvəl, iqtisadi dövriyyənin bir hissəsi (bəzən əhəmiyyətli hissəsi) rəsmi qeydiyyatdan kənar qalır, formallaşmır. İqtisadiyyat, ilk növbədə ticarət (və ələlxüsus pərakəndə ticarət) öz mütəşəkkilliyini qismən itirir. Pul banklar vasitəsi ilə deyil, birbaşa ödəndiyinə görə bank sektorunun sərəncamındakı maliyyə resursları ola biləcəyi (daha doğrusu - olmalı olduğu) səviyyədən aşağı düşür. Bankların kreditvermə imkanları (başqa sözlə, ölkənin investisiya imkanları) zəifləyir. Üstəlik, qeyri-formal gəlirlərdən vergi ödənmir və deməli, nağd iqtisadiyyat həm dövlət büdcə vəsaitlərinin, həm də sosial müdafiə fondlarının vəsaitlərinin lazımınca artırılmasını əngəlləyir. Bu isə vətəndaşların, xüsusilə büdcədən əməkhaqqı alanların (o cümlədən, əksər müəllim, həkim və elmi işçilərin), pensiyaçıların, sosial müavinət alanların dolanışığına mənfi təsir göstərir. Hələ o da var ki, korrupsiyanın əsas maliyyə mənbəyi məhz qeyri-formal (rəsmiləşməyən) pul dövriyyəsidir. Onun fəsadları isə yaxşı məlumdur.



Hazırda Azərbaycanda nağd və nağdsız pul dövriyyələri 3-ün 1-ə nisbətindədir. Proqram ona hədəflənmişdir ki, yaxın illər ərzində nağd pulla aparılan iqtisadi əməliyyatların xüsusi çəkisi az qala 2 dəfə azaldılsın və 74 faizdən 40 faizə endirilsin. Bunun nəticəsində iqtisadi dövriyyənin şəffaflaşacağı və "kölgə" iqtisadiyyatının məhdudlaşacağı, vergi bazasının genişlənəcəyi, əhalinin və müəssisələrin maliyyə xidmətlərinə çıxış imkanlarının artacağı, bank sektorunun investisiya imkanlarının güclənəcəyi gözlənilir.

*Proqramın əsas ideyası ondadır ki, dövlət tənzimləməsində ağırlıq mərkəzi "nağd ödənişlərin məhdudlaşdırılması"ndan "nağdsız ödənişlərin genişləndirilməsi"nə keçirilsin.* Bu iki iqtisadi siyasət tipi eyni hədəfə tuşlansa da, fərqli "fəlsəfələrə" əsaslanır. Birinci üçün prioritet qadağanedici tədbirlər, ikinci üçün isə təşviqedici mexanizmlərdir.

İqtisadiyyatın tənzimlənməsində qadağanedici və təşviqedici alətlərdən paralel surətdə istifadə olunması bütün ölkələr üçün səciyyəvi olan normal haldır. Məsələ bunların hansı nisbətdə tətbiq edilməsindədir. Bir çox inkişaf etmiş ölkələr (Belçika, İtaliya, İspaniya, Fransa) nağd pulla aparılan ödənişlərə məhdudiyyət qoyur (tutalım, "bir alqı-satqı əməliyyatında 2 min avrodan artıq məbləğ nağd pulla ödənə bilməz" kimi). Bəzi ölkələrdə (Hindistan, Yunanıstan) bankdan nağd pul çıxararkən vergi ödənilir ("nağdlaşdırma vergisi"). Elə ölkələr var ki, (Hindistan, İtaliya, Cənubi Koreya) müəyyən tip əməliyyatların nağd pulla aparılmasına, ümumiyyətlə, icazə vermirlər.

Bu cür inzibati məhdudiyyətlər, əlbəttə, faydasız deyil, lakin onlar iqtisadi təşviqlərlə "gücləndirildikdə" daha effektiv olur. Sinqapur, Cənubi Koreya, Yunanıstan rəqəmsal şəkildə aparılan ödənişlər müqabilində vətəndaşlara vergi güzəşti təklif edir. Gürcüstan, Hindistan, Yunanıstan, İtaliya, Cənubi Koreya elektron ödənişlər aparan istehlakçılar arasında lotereyalar keçirib böyük uduşlar paylayır. İtaliyada yol hərəkəti qaydalarının pozulmasına görə cəriməni yerindəcə kartla ödəyənlərə 30 faiz endirim verilir. Qeyri-ənənəvi sayıla biləcək təşviqlər də var. Misal üçün, Hindistanda qatar biletlərini elektron formada alan sərnişinlərin icbari sığorta haqqını onların əvəzinə dövlət ödəyir, yeni sərnişinlərə faktiki surətdə endirim verilir.

Azərbaycanda isə vəziyyət belədir ki, müxtəlif ölkələrdə nağd ödənişlərə tətbiq edilən əsas inzibati məhdudiyyətlərin *hamısı* bizdə də tətbiq olunur və əksinə, müxtəlif ölkələrdə nağdsız ödənişlərə tətbiq edilən əsas iqtisadi təşviqlərin *heç birindən* istifadə olunmur. Başqa sözlə, bu sahədəki tənzimləmə yalnız qadağanedici səciyyə daşıyır. Proqramın başlıca qayəsi bu vəziyyəti köklü surətdə dəyişmək, rəqəmsal ödənişlərin genişlənməsini əngəlləyən institusional maneələri aradan qaldırmaq və tənzimlənmənin əsas ağırlığını təşviq mexanizmləri üzərinə keçirməkdir.

Proqramda nəzərdə tutulan tədbirlərin bir çoxu "çarpaz xarakterlidir", *yəni başqa dövlət sənədlərində də əksini tapmışdır.* Bu tədbirlərin bir qisminə (elektron ödənişlər üzrə qanunvericiliyin təkmilləşdirilməsi, mikromaliyyə institutlarının ödəniş sistemlərinə inteqrasiyası) "Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə, digərlərinə (rəqəmsal iqtisadiyyatın formalaşdırılması və davamlı inkişafına nail olmaq üçün effektiv tənzimləmə mexanizminin yaradılması) "Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə rast gəlmək mümkündür. Bu cür eyniyyətlər təbiidir, çünki proqram həm də Strateji Yol Xəritələrində əksini tapmış vəzifələrin konkretləşdirilməsi mahiyyəti daşıyır.

Eyni səviyyəli digər tənzimləmə sənədləri ilə "çarpaz vəzifələr" daha ciddi maraq doğurur. İnkişaf etmiş ölkələrin idarəetmə praktikasında "çarpaz proqramlaşdırma" çox geniş tətbiq olunur və hətta belə də demək olar ki, adi haldır. Müxtəlif dövlət proqramlarında və inkişaf konsepsiyalarında ifadə olunan hədəflər bir-biri ilə mütləq uzlaşdırılmalıdır. Məsələn, aydındır ki, bir proqram ÜDM-də sənayenin, digəri kənd təsərrüfatının, üçüncüsü xidmətlərin, bir başqası isə tikintinin xüsusi çəkisini artırmağı planlaşdıra bilməz. Məlum məsələdir ki, bu payların cəmi əvvəl-axır 100 faizdir və eyni vaxtda bunların hamısını artırmaq sadəcə mümkün deyil.

Bu baxımdan, vergi sisteminin təkmilləşdirilməsi məsələləri xüsusi əhəmiyyət kəsb edir. Hazırda Vergilər Nazirliyi bu sahədə kompleks tədbirlər hazırlayır. Bu məqsədlə biznes qurumlarından, elmi-iqtisadi dairələrdən, qeyri-hökumət təşkilatlarından, ictimaiyyətdən xeyli sayda təkliflər də toplanmışdır. Ümumən məlum olan budur ki, islahatın əsas istiqamətlərinə vergi sisteminin sadələşdirilməsi, vergi yükünün yüngülləşdirilməsi, ƏDV-nin əhatə dairəsinin genişləndirilməsi və dərəcəsinin diferensiallaşdırılması daxil olacaqdır (hazırda Azərbaycandakı 850 min vergi ödəyicisinin 97 faizi sadələşdirilmiş vergi ödəyir, amma ümumi vergi daxilolmalarında sadələşdirilmiş verginin payı təxminən 5 faizdir). Bu dəyişikliklər sözügedən proqramda da əksini tapmışdır, çünki effektiv vergi sistemi nağdsız ödənişlər üçün formalaşdırılacaq yeni institusional mühitin ayrılmaz tərkib hissəsidir və rəqəmsal ödənişlərin genişləndirilməsi baxımından da böyük əhəmiyyətə malikdir.

Proqramdakı "çarpaz xarakterli" ən mühüm prioritetlərdən biri də qeyri-formal məşğulluğun azaldılmasıdır. Qeyri-rəsmi məşğulluq təkcə dövlətə yox, vətəndaşların özlərinə böyük zərər vurur. Təəssüf, amma bir çox vətəndaşlarımız hələ də bilmirlər ki, onların işçiliyi rəsmiləşmədiyi təqdirdə gələcəkdə faktiki surətdə pensiyasız qala bilərlər. Bu problem bizim iqtisadiyyatımızda, xüsusilə də inşaat sektorunda çox ciddi xarakter almışdır və təsadüfi deyil ki, 2017-ci ildə ölkə Prezidenti 3287 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nı təsdiq etmişdir. Həmin planda nəzərdə tutulan bəzi tədbirlər (məsələn, işəgötürənləri və işçiləri əməkhaqların rəsmiləşdirilməsinə həvəsləndirmək üçün tibbi sığortanın əhatə dairəsinin genişləndirilməsi) bu Proqrama da daxil edilmişdir.



Strateji xarakterli müxtəlif tənzimləmə sənədlərində (proqram və konsepsiyalarda) problemlərin bu cür "çarpaz" formada əks olunması həm də iqtisadi siyasətin sistemli şəkildə aparılmasının göstəricisidir.

*Proqramın ən mühüm üstünlüklərindən biri hədəflərin ölçüyəgələr şəkildə ifadə olunmasıdır.* İstər xarici ölkələrdə, istərsə də Azərbaycanda bir çox dövlət proqramlarının və konseptual inkişaf sənədlərinin gözlənilən səmərə ilə "işləməməsinin" başlıca səbəbi məhz hədəflərin qeyri-müəyyənliyidir. Məsələn, əgər inkişaf strategiyasının məqsədi sadəcə "vergi dərəcələrinin optimallaşdırılması" kimi ifadə olunursa, bu o deməkdir ki, həmin strategiyanın hədəfi, ümumiyyətlə, yoxdur. Çünki vergi ödəyiciləri üçün optimallıq vergi dərəcələrinin mümkün qədər aşağı (ideal halda 0 faiz), hökumət üçünsə - mümkün qədər yuxarı olmasıdır. Bu iki - təbiətən birbirinə əks olan - maraq arasında tarazlıq intervalı vergi dərəcələrinin dövlət üçün qısa, orta və uzun müddətli perspektivdə optimallıq sahəsi hesab edilə bilər. Həmin intervalın hədləri dəqiq göstərilməyənə qədər "vergi dərəcələrinin optimallaşdırılması" bunların artırılmasını da, azaldılmasını da eyni müvəffəqiyyətlə nəzərdə tuta bilər.

Ona görə də hədəflər dəqiq, ölçüyəgələr şəkildə ifadə olunmalıdır və sözügedən proqram bu mənada kifayət qədər təkmildir. Nəzərdə tutulur ki, proqramda əksini tapmış tədbirlərin icrası nəticəsində nağdsız ödənişlərin illik həcmi təqribən 17 milyard manat, xüsusi çəkisi isə hər il 7 faiz artacaqdır. Nağd ödənişlərin payı, qeyd edildiyi kimi, 40 faizə düşəcəkdir. Proqramın əhatə etdiyi 4 istiqamətin hər birinin - yəni institusional mühitin təkmilləşdirilməsinin, bank sektorunda iqtisadi fəallığın artırılmasının, rəqəmsal ekosistemin formalaşdırılmasının və maliyyə savadlılığının yüksəldilməsinin - bu fundamental dəyişikliklərə verəcəyi töhfədə konkret ifadəsini tapmışdır.

*Proqramın bir üstünlüyü də onun "qiymətinin" bəlli olmasıdır.* "Proqramın qiyməti" dedikdə onun icrası üçün tələb olunan maliyyə vəsaitinin həcmi nəzərdə tutulur. Proqramın büdcəsiz tərtib edilməsi onun effektiv gerçəkləşdirilməsi qarşısında yaranan əsas maneələrdəndir. "Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda isə icra üçün tələb olunan ümumi məbləğ (28-37 mln. manat) həm 4 istiqamət üzrə, həm də hər istiqamətə daxil olan prioritet tədbirlər üzrə konkretləşdirilmişdir, daha doğrusu - konkret xərc maddələrinin cəmi kimi hesablanmışdır.

"Qiymətinin" və hədəflərinin konkret, ölçüyəgələr şəkildə müəyyənləşdirilməsi sayəsində *proqramın icrasının monitorinq və qiymətləndirilməsi nisbətən asan olacaqdır.* Yeri gəlmişkən, bu məsələdə də ciddi bir yenilik var. Cənab Prezidentin Proqramın təsdiqi haqqında Sərəncamının 3-cü bəndində qeyd olunur ki, monitorinq və qiymətləndirmə Mərkəzi Bankın sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən aparılacaqdır. Bu o anlama gəlir ki, Mərkəzi Bankla İİTKM arasında müqavilə bağlanacaqdır və sifarişçi icraçıya, onun gördüyü işin müqabilində müəyyən bir haqq ödəyəcəkdir. Bu bütün dünyada qəbul edilmiş normal praktikadır və ümid etmək olar ki, gələcəkdə Azərbaycanda da geniş tətbiq olunacaqdır.

*Proqramın qarşısında yarana biləcək əsas risk,* məncə, ondan qaynaqlanır ki, onun icrası bir sıra adamlara, o cümlədən qeyri-rəsmi iqtisadi fəaliyyətdən gəlir götürənlərə, büdcədən vergi yayındıranlara, rüşvət alanlara (rüşvət, məlum olduğu kimi, rəqəmsal ödənişlə çox nadir hallarda verilir) qətiyyən sərf etmir və onlar Proqramın yerinə yetirilməsinə mane olmağa çalışa bilərlər.

Doğrudur, rəqəmsal texnologiyalar ödənişləri rahat, təhlükəsiz və daha az xərclə aparmağa şərait yaradır və bunun üçün rəqəmsal sahibkarlığın və elektron ticarətin inkişaf etdirilməsi, yeni rəqəmsal ödəniş texnologiyalarının, o cümlədən smart ödəniş vasitələrinin tətbiqi, rəqəmsal bankçılığın genişlənməsi, regionlarda maliyyə inklüzivliyinin artırılması və digər bu kimi tədbirlər nəzərdə tutulur. Amma bu tədbirlər dövlətin, gəlirini qanuni yolla qazanan sahibkarların, vətəndaşların maraqlarına nə qədər uyğun gəlsə də, yuxarıda sadalanan adamlara sərf etmir.

Bu riskin neytrallaşdırılması üçün proqramın icrasına məsuliyyət daşıyan dövlət qurumları - vətəndaşların inamına və dəstəyinə arxalanaraq - iradə və əzm nümayiş etdirməli olacaqlar.

*Proqramın daha bir fərqli cəhəti onun layihəsinin dövlət qurumları ilə alimlər tərəfindən birgə hazırlanmasıdır.* Bu olduqca mühüm bir yenilikdir. Müasir dünyada dövlət-alim əməkdaşlığı ictimai-iqtisadi tərəqqinin qaçılmaz şərtlərindən birinə çevrilmişdir. "Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri" adlı məqaləsində Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev doğru qeyd edir ki, *"Həyata keçirilən iqtisadi islahatların elmi xarakterini və mövcud problemlərə konstruktiv yanaşmanı təmin etmək üçün Azərbaycanın iqtisadi-elmi mühitinin iqtisadi quruculuq prosesində yaxından iştirakına şərait yaradılmalıdır. Nəzərə almaq lazımdır ki, iqtisadçı alimlər ölkə ziyalılarının əsas hissəsini təşkil etməklə yanaşı, həm də iqtisadi islahatların təbliğində və həyata keçirilməsində əsas qüvvə kimi çıxış edirlər".*

"Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" iqtisadçı alimlərin ölkəmizdə gedən iqtisadi quruculuq proseslərində iştirakının gözəl bir nümunəsidir - amma yalnız bir nümunəsi! Bir müddət əvvəl AMEA İqtisadiyyat İnstitutu mütəxəssislərinin Strateji Yol Xəritələrinin ekspertizasında və yekun layihəsinin hazırlanmasında böyük həvəslə çalışdıqlarını da ayrıca qeyd etməyə dəyər. Ümumən, son illərdə institut dövlətin iqtisadi idarəetmə orqanları ilə əlaqələrini genişləndirməyə, tədqiqat mövzularını ölkə iqtisadiyyatının real ehtiyac və tələblərinə uyğunlaşdırmağa, tədqiqat nəticələrini iqtisadi strukturlarla operativ bölüşməyə çalışır. Təkcə bu il ərzində institutun mütəxəssisləri iqtisadi məsələlərlə bağlı müxtəlif dövlət qurumlarında hazırlanmış 10-dan çox sənədin - qanun layihəsi, inkişaf konsepsiyaları və proqramlarının peşəkar ekspertizasını həyata keçirmiş və təkmilləşdirilməsi üzrə təkliflər vermişdir. Bu məsul işlərdə AMEA rəhbərliyinin kollektivə verdiyi mənəvi dəstəyi də minnətdarlıqla qeyd etmək istərdim.

Doğrusu qürur duyuruq ki, "Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" layihəsinin hazırlanmasında Mərkəzi Bankın və *MasterCard Advisors* şirkətinin mütəxəssisləri ilə yanaşı, AMEA İqtisadiyyat İnsitutunun əməkdaşları da iştirak etmişlər. Və inanırıq ki, Azərbaycan Respublikası Prezidentinin imzası ilə təsdiqlənmiş bu proqram, doğru-dürüst icra ediləcəyi təqdirdə, dövlətimizə və vətəndaşlarımıza böyük faydalar gətirəcəkdir.

***Nazim MÜZƏFFƏRLİ,***
***AMEA İqtisadiyyat İnstitutunun direktoru, professor***

# ABŞ-ın Linkoln Universiteti ilə ikili diplom proqramı reallaşır

Tədrisin keyfiyyətinin artırılması istiqamətində Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) həyata keçirilən islahatlardan biri də nüfuzlu xarici universitetlərdə ikili diplom proqramlarına üstünlük verilməsidir. Artıq UNEC tələbələrinin 4 il təhsil müddəti ərzində UNEC diplomu ilə bərabər, Fransanın Montpellier, London Universiteti-London İqtisadiyyat məktəbinin, İsveçin UBİS, Litvanın MikolosRomeyros universitetlərinin də diplomlarını alması reallıqdır.

UNEC bu istiqamətdə yeni uğura imza atıb. Belə ki, bir ildən çox müddətdə aparılan danışıqların nəticəsi olaraq 12 oktyabrda İstanbulda UNEC rektoru, professor Ə.Muradov və Linkoln Universitetinin rektoru, professor



M.Brodsky tərəfindən ABŞ-ın Linkoln Universiteti ilə UNEC arasında ikili diplom proqramına dair müqavilə imzalanıb. Müqaviləyə əsasən, UNEC tələbələri öz seçimlərinə uyğun olaraq, 1 və ya 2 il ABŞ-da oxumaqla, yaxud ABŞ-dan gələn professorların tədris etdiyi 9-12 fənni Bakıda UNEC-də dinləyib uğurla imtahan verdikdən sonra UNEC diplomu ilə yanaşı, həm də ABŞ Linkoln Universitetinin diplomunu əldə edə biləcəklər. Müqavilənin üstünlüyü həm də ondadır ki, ikili diplom proqramından həm bakalavr, həm də magistrlər bəhrələnə biləcəklər.

Linkoln Universiteti 1919-cu ildə yaradılıb. "San FranciscoBusinessTimes" reytinqinə əsasən, University of Californiya, Berkeley/HaasSchool of Business və StanfordGraduateSchool of Business-dən sonra "MBA ProqramsintheGreater Bay Area" da ən yaxşı MBA təhsili verən universitetdir. Məlumat üçün bildiririk ki, ümummilli lider Heydər Əliyev Linkoln Universitetinin fəxri doktorudur.

# İİTKM ilə "BP Azərbaycan" arasında anlaşma memorandumu imzalanıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və "BP Azərbaycan" şirkəti arasında ölkə iqtisadiyyatının dayanıqlı inkişafına töhfə verilməsi məqsədilə qarşılıqlı anlaşma memorandumu imzalanıb.

Memorandum ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafına töhfə vermək, dövlət-özəl sektorun inkişaf potensialını gücləndirmək, sosial və dayanıqlı inkişaf üzrə məqsədlərə nail olmaq üçün qarşılıqlı birgə layihələrin həyata keçirilməsini nəzərdə tutur.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı anlaşma memorandumunun əhəmiyyətindən danışaraq bildirib ki, bu əməkdaşlıqda əsas məqsəd Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi" ideyasına xidmət etməkdir: "BP ölkəmizin uzunmüddətli tərəfdaşı kimi təkcə neft strategiyasının həyata keçirilməsində deyil, həm də postneft dövrünün quruculuğunda iştirak edir. Bu baxımdan, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin BP ilə əməkdaşlığı qeyri-neft sektorunun inkişafına "Azexport.az", "Rəqəmsal Ticarət Qovşağı", "EnterpriseAzerbaijan.com" və Bir Pəncərə İxraca Dəstək Mərkəzi vasitəsilə daha çox töhfə verməsinə zəmindir. Yeni qurum kimi İİTKM-in institusional inkişafında, innovativ yanaşma və beynəlxalq təcrübənin tətbiqində BP ilə əməkdaşlığın dərinləşdirilməsi nəzərdə tutulur".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə (AGT) regionunda əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli qeyd edib ki, BP şirkəti Azərbaycanda fəaliyyət göstərdiyi illər ərzində iqtisadiyyatın güclənməsinə və böyüməsinə, dünyanın digər ölkələri ilə yeni kommersiya əlaqələrinin qurulmasına, ən əsası, Azərbaycanın dünyanın böyük enerji təchizatçılarından biri kimi öz rolunu qoruyub saxlamasına və Avropa ilə daha səmərəli enerji əlaqələri qurmasına yardım etməklə ölkənin gələcək inkişafına öz töhfəsini verib: "Bugünkü memorandumun imzalanması bizim gələcəkdə dəyərli əməkdaşlıq qurmaq istəyimizin bariz nümunəsidir. Azərbaycanın layiqli korporativ vətəndaşı kimi BP həmişə ölkədə iqtisadiyyatın və biznesin inkişafına və diversifikasiyasına dəstək vermək öhdəliyinə sadiq olub. Biz daim cəmiyyətə müsbət təsir göstərməyin yollarını axtarırıq və fəaliyyət göstərdiyimiz icmalarla dayanıqlı və müsbət əlaqələr qurmağa çalışırıq".

## Emal müəssisələri mövsümə hazırdırmı

Saatlı ölkənin qabaqcıl pambıqçılıq rayonları sırasında yer alır. Cari il rayonun təsərrüfatlarında 15.815 hektar sahədə pambıq əkilmişdir. Yayın çox isti keçməsi və bu səbəbdən suvarma suyu ilə təminatda qarşıya çıxan problemlər, digər irili-xırdalı çətinliklər Saatlı kəndlisinə mane ola bilmədi. Pambıq əkinlərinin becərilməsində, xəstəlik və zərərvericilərə qarşı mübarizənin təşkilində aqrotexniki tələblərin yüksək səviyyədə yerinə yetirilməsi cari ilin məhsul bolluğunu təmin etdi. Göz işlədikcə uzanan geniş tarlalar başdan-başa ağ örpəyə bürünüb. Aylardan bəri çəkilən zəhmətin bəhrəsini tez və itkisiz yığıb tədarük etmək üçün rayondakı pambıqyığan texnika, nəqliyyat vasitələri, əmək ehtiyatları səfərbər edilib.



# Bir rayonda iki mənzərə

Bu günlər rayonun təsərrüfatlarında pambıq yığımının qızğın çağıdır. Bol məhsullu tarlalar sözün həqiqi mənasında, əsl hünər meydanına çevrilmişdir. Məhsul yığımında Pərviz Abbasovun, Əlixuda Talıbovun, İsa Məhəddinovun rəhbərlik etdiyi fermer təsərrüfatları nümunə göstərirlər.

"MKT İK" MMC Saatlı rayon filialının direktor müavini Altay Məmmədovla ağ örpəkli pambıq tarlasının kənarında görüşürük. Həmsöhbətimiz pambıq yığımının zərbəçi ahəngindən həvəslə danışır:

- Bu il 1110 nəfər torpaq istifadəçisi ilə bağlanmış müqavilə əsasında 3.750 hektar sahədə pambıq əkmişik. 10 min ton məhsul gözləyirik. Artıq 5 min tondan çox pambıq tədarük etmişik. Yığımda texnikaya geniş meydan verilir. Hazırda tarlalarda 14 pambıqyığan maşın işləyir. Sürücü-mexaniklərdən Mikayıl Səfərov, İsa Talıbov və Ruhi Rəşidov daha çox fərqlənirlər. Artıq yeni məhsulun emalına da başlamışıq. İlkin nəticələr qənaətbəxşdir. Hələlik mahlıc çıxımı 39 faiz təşkil edir ki, bu da yüksək göstərici sayılır.

Bol məhsullu tarlalardan, hünərvər pambıqçılarla görüşlərdən aldığımız xoş təəssürat təəssüf ki, "Azər pambıq" MMC Saatlı filialındakı vəziyyətlə tanışlıqdan sonra alt-üst oldu. Saatlı Rayonu İcra Hakimiyyətinin məsul işçisi Elşən Əzizovla birlikdə zavodda işlərin təşkili, mövsümə hazırlıqla əlaqədar həyata keçirilən tədbirlərlə maraqlandıq. Zavodun həyətində səliqə-sahmandan əsər-əlamət belə yox idi. Ərazidə müxtəlif yerlərdə zibilliklər diqqət çəkirdi. Dedilər ki, zavodun direktoru Qismətəli Mirzəyev əraziyə çıxıb. İradlarımızı mühasibatlıq işçisi Süleyman Əlizadəyə bildirdik. Aylardan bəri açıq havada-yağışın, küləyin altında qalmış mahlıc kipləri əriyib torpağa qarışmışdı. Görəsən, keyfiyyətini itirib zay olmuş





mahlıc təpəsini həyətin ortasında saxlayıb göz dağına çevirmək hansı məntiqdən qaynaqlanır? Bir tərəfdə üstə-üstə yığılmış gərəksiz dəmir qırıntıları "metallom"u xatırladır. Zavodun emal sexində də təmir işləri hələ başa çatdırılmamışdır. Yeni qurulan pambıq tayalarının ətrafını kol-kos basmışdı. Təbii ki, göz önündəki görüntülər foto-müxbirimizin diqqətindən kənarda qala bilməzdi...

Yüzlərlə, minlərlə əmək adamının gərgin əməyi, alın təri hesabına hasilə gələn məhsulun son ünvanı olan pambıq zavodunda müşahidə etdiyimiz vəziyyət təəssüf doğurur. Bununla belə, güman edirik ki, ən qısa zamanda operativ və təsirli tədbirlər görüləcək, nöqsanlar aradan qaldırılacaq.

***Lazım QULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## 16 oktyabr Dünya Qida Günüdür

# Nə yeyiriksə, oyuq

## Bəzi qidalar artıq yaşamağa yox, ölümə də xidmət edir



*"Keyfiyyətsiz ərzaq böyük təhlükədir və mən hesab edirəm ki, bu sahəyə daha da böyük diqqət göstərilməlidir Bəzi televiziya kanallarında mətbəxlə bağlı verilişlər hazırlayıb göstəririlər... Mən etiraz etmirəm, olsun, bir şərtlə ki orada göstərilən reseptlər, yeməklərin bişirilmə qaydaları insanların sağlamlığına mənfi təsir göstərməsin. Mən bəzi hallarda çox ürək ağrısı ilə həmin verilişlərə baxıram və görürəm ki, indi yağın içində üzən yeməklər təbliğ edilir. Axı, bu olmaz, bu yeməkləri gündə yeyən insan xəstələnəcək. Biz sağlam həyat tərzini təbliğ edirik, insanları pis vərdişlərdən çəkindirməyə çalışırıq, idmanı təbliğ edirik. Siqaret çəkənlərə müsbət münasibət ola bilməz, alkoqollu içkilərə aludə olanlar qınaq obyektinə çevrilməlidir. Belə olan halda bəzi kanalların insanlara verdikləri təkliflər çox məyusedicidir".*

Hələ 6 il öncə, 2012-ci ildə Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında bu fikirləri səsləndirərkən sağlam qidalanmağın insan həyatı üçün nə qədər zəruri olduğuna diqqət çəkirdi.

### İnsanı öldürən qocalıq deyil, pis vərdişlərdir

Böyük Hippokrat deyirdi: "Biz nə yeyiriksə oyuq". Bir neçə sözdən ibarət bu kəlam qida mədəniyyətinin insan yaşamının, insan varlığının bir parçasını, lap elə özəyini təşkil etməsi barədə o qədər böyük məna əxz edir ki...

İnsanın bütün fəaliyyəti birbaşa, ya da dolayı yolla qidanın axtarışı, yetişdirilməsi, hazırlığı, qəbulu ilə bağlıdır. Çünki yalnız qidanı və sevgini təmin etməklə insan bioloji fərd kimi var ola bilər, yaşayar, yaradar.

Amerikanın məşhur naturopat alimi, professor Pol Breqq insanı qocalığın deyil, pis vərdişlərin öldürdüyünü, yapon alimi Katsudzo Nişi isə "ölü qida"ların olduğunu təkidlə cəmiyyətə anlatmağa çalışırdı. Qəribədir ki, hər iki alimə uşaqlığında xəstəlik səbəbindən ölüm diaqnozu qoyulmuş, yaşamlarının bir il belə çəkməyəcəyi bildirilmişdi, amma onlar bütün bu diaqnozlara inad göstərərək 70-80 yaşa qədər həyat sürmüşdülər. Bəs nə idi uğurlu həyat hekayəsinin arxasında duran sirr? Əlbəttə ki, sadəcə, düzgün qidalanma...

### 821 milyon insan aclıqla mübarizə aparır

Hazırda dünyada hər 9 insandan biri, bütövlükdə isə 821 milyon insan aclıqla mübarizə aparır və bu rəqəm durmadan artmaqdadır. Digər tərəfdən, təxminən 1,4 milyard insan düzgün qidalanmama səbəbindən artıq piylənmədən və bir çox xəstəliklərdən əziyyət çəkir. Dünyada beş yaşa qədərki hər dörd uşaqdan biri lazımi səviyyədə inkişaf etmir ki, bu da 165 milyon uşağın öz fiziki potensiallarına heç bir zaman çatmayacaqları mənasını daşıyır. Təxminən 2 milyard insan sağlam olmaq üçün lazım olan vitamin və mineralları qəbul etmir. Həmçinin kifayət qədər qida qəbul etməyən qadınların fiziki əngəlli uşaq doğmaq riskini daha da artırır.

Ana bətnindəki körpənin lazımi qədər qidalana bilməməsi yoxsulluğun nəsildən-nəslə ötürülməsinə səbəb olan ən ciddi faktorlardan biridir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada ana südü ilə qidalanma 38 faizdir. UNİCEF-in məlumatına görə bu hal Azərbaycanda 12 faiz təşkil edir. "Doğuşun ilkin saatlarında, ilk 6 ayda və 2 yaşınadək ana südü verməklə dünyada 800 min uşağın həyatı xilas olunur" deyən pediatr Vaqif Qarayev bildirir ki, ana südünün tərkibindəki bioloji aktiv maddələr erkən yaşlı uşaqların ölümünə səbəb olan problemlərdən - pnevmoniya və diareyadan qoruyur: "Döşlə əmizdirən analarda isə döş vəzi və yumurtalıq xərçənginin yaranma ehtimalı azalır. Nə qədər tərkibi zəngin süni qarışımlar hazırlansa da, ana südünü əvəz edə bilməz. Ana südü əmən uşaqların həm fiziki, həm də psixi inkişafı daha normal məcrada gedir".

### Rejimsiz və keyfiyyətsiz qidalanma mədə xəstəliklərini artırır

Azərbaycan xalqı həmişə öz mətbəxi, qonaqpərvərliyi ilə fərqlənib, dünyada şöhrət qazanıb. Milli xörəklərimizin isə demək olar ki, tam əksəriyyəti çox kalorilidir: yağlı plov, toyuq çığırtması, quzu kababı, xaş, piti... Mütəxəssislər bu cür qidaları qəbul etməyin insan orqanizminə həddindən çox zərərli olduğunu deyirlər. "Bu bizim ata- baba xörəyimizdir və hər zaman yemişik" - deyənlərin arqumentinə isə belə cavab verirlər ki, indi zaman həmin zaman deyil, insanlar daha çox hərəkətsiz həyat tərzi keçirdikləri üçün bu cür kalorili yeməklərdən uzaq durmaq, getdikcə ögeyləşdiyimiz ana təbiətə yönəlməyə çalışmalıyıq.

"Son vaxtlar əhali arasında mədə xəstəlikləri artıb. Hər 2-3 nəfərdən biri bundan şikayət edir, əsas səbəblərindən biri isə rejimsiz və keyfiyyətsiz qidalanmadır". Bu fikri isə terapevt-qastroenteroloq Mətanət Cəfərova söyləyir. Onun fikrincə, gün ərzində 2-3 dəfə qidalanmaq və yeməklər arasında böyük fasilələr vermək mədədə fəsadlara yol açır: "Normal halda mədə turşuluğu hər 2-3 saatdan bir pik nöqtəyə çatır, bu o deməkdir ki, hər 2-3 saatdan bir qida qəbul etməliyik. Bu da 3 əsas, 2 ara yeməyə bərabərdir. Çox təəssüf ki, insanların çoxu buna əməl etmir və cəmi iki dəfə qidalanırlar ki, bu da yemək arasındakı fasiləni uzadır. Nəticədə mədə turşuluğu yüksəlir, hətta turşu geriyə qida borusuna qayıdaraq reflüksün yaranmasına gətirib çıxarır. Həmçinin bəzən həkimlərin 5 dəfə qidalanma məsləhətini, hər dəfə məhz xörək yeyilməlidir kimi başa düşürlər. Xeyr, elə deyil, əslində, əsas yeməklər arasında çərəzlər, meyvə qəbul etmək lazımdır ki, onlar mədə turşusunu neytral saxlayaraq gələcəkdə mədə problemlərindən qorusun".

### Doymadan süfrədən qalxmağı vərdiş halına gətirmək lazımdır

Mətanət Cəfərova vurğulayır ki, birdən-birə çox yemək yeyib, mədəni doldururlar, həmçinin yeməkdən dərhal sonra çay içməyə meyil göstərirlər ki, bunlar yolverilməz səhvdir: "Çayın tərkibindəki tanin həzmsizlik yaradır, buna görə də o, qida qəbulundan minimum 2 saat sonra içilməlidir. Təəssüf ki, adətən, axşam işdən qayıdandan sonra çox yeyir, üstündən də maye qəbul edib, uzanırıq. Dolmuş mədə diafraqmal pərdəyə təzyiq göstərir və nəticədə yırtıq yaranır. Bu da gəyirmə və qıcqırmaların daha çox artmasına, sonda qida borusu xərçənginin yaranmasına gətirib çıxarır".

Həkim məsləhət görür ki, doymadan süfrədən qalxmağı bir vərdiş halına gətirmək lazımdır. Bunun üçün əvvəlcə boşqabın ölçüsünü kiçiltmək və xörəyin miqdarını azaltmaq lazımdır: "Az və tez-tez qidalanmağa çalışın. İnsanın birdən-birə çox yemək istəyinin səbəbi mədə turşuluğunun pik səviyyəyə çatmasıdır ki, insan çox acmış formada süfrə arxasına oturur, nəticədə həddindən çox yemək yeyir. Amma çox acmadan, 3-4 saatdan bir az-az qidalansaq, birdən-birə çox yeməyə ehtiyac olmayacaq. Burada su qəbulu da çox önəmlidir. Bəzən acmaqla susamaq hissini qarışdırırıq. Yeməkdən yarım sat əvvəl su içmək önəmlidir ki, aclıq hissini də xeyli azaltsın".

### "Sıfır aclıq"

1945-ci il oktyabrın 16-da Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı FAO təsis olunur və həmin tarix "Ümumdünya Qida Günü" kimi qeyd edilir. Təşkilat hər il kənd təsərrüfatı, ərzaq çatışmazlığı və başqa mövzular barədə ictimaiyyəti maarifləndirmək məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Bu il FAO daha qlobal bir məsələni diqqətə çatdırmaq üçün "Ümumdünya Qida Günü"nün şüarını "Sıfır aclıq" ("Zero Hunger") olaraq təyin edib. Təşkilat hesab edir ki, dünya sakinləri öz səylərini birləşdirsələr, 2030-cu ilə qədər aclığı tamamilə aradan qaldırmaq mümkündür.

Lakin dünyada qida təhlükəsizliyinin təmin edilməməsi məsələsi hələ də əsas problemlərdən biri olaraq qalır. Gələcəkdə böhran hallarında baş verə biləcək ərzaq təhlükəsizliyi və qida çatışmazlığının aradan qaldırılması, eyni zamanda, heyvandarlığın qaba yemə olan tələbatının ödənilməsində mühüm addımların atılması və tədbirlərin görülməsi üçün qida təhlükəsizliyinin təminatında strateji əhəmiyyətə malik olan taxılçılıq və bitkiçilik sahəsində yaranan bir sıra problemlərin həll edilməsi vacibdir. Əhali arasında sağlam və düzgün qidalanmanın təbliği, həmçinin israf hallarının aradan qaldırılması, təkrar emal prosesinin inkişafı, yeni istehsal üsullarının tədqiqi və təbliğatının aparılması istiqamətində maarifləndirici tədbirlərin davamlılığının təmin olunması qarşıya qoyulmuş ən vacib məsələlərdəndir. İnsanların yaşayış imkanlarının daha da inkişaf etdirilməsi, artan ərzaq çatışmazlığının həll edilməsinə nail olmaq məqsədilə FAO 2030-cu ilə qədər Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (IFAD), Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF), Dünya Qida Proqramı (WFP) və ÜST ilə birgə çoxsaylı yeni proqramların və tədbirlərin icrasını həyata keçirməyi planlaşdırır.

### "Fast Food" qidaların ziyanları

16 oktyabr Ümumdünya Qida Günü ilə əlaqədar ölkəmizdə də Qida Təhlükəsizliyi Agentliyi tərəfindən aidiyyəti qurumlarla birgə bir sıra layihə və tədbirlərin həyata keçirilməsi planlaşdırılıb.

Qurumdan verilən məlumata görə, Vətəndaşların Ümumdünya Qida Günü və qida təhlükəsizliyi anlayışı barədə məlumatlandırılması, bu istiqamətdə maarifləndirici video çarxların hazırlanması, geniş elmi-maarifləndirici yazıların elektron informasiya portallarında yayımlanması, radio və televiziya kanallarında yayımlanan verilişlərin bəzi buraxılışlarının Ümumdünya Qida Gününə həsr olunması, sosial şəbəkələrdə "Sağlam qida" ilə bağlı müsabiqələrin təşkil olunması həyata keçiriləcək tədbirlər planının əsas istiqamətlərini təşkil edir. Eyni zamanda, məktəblilər arasında qida təhlükəsizliyi anlayışının təbliğ edilməsi, agentliklə uşaqlar və gənclər arasında sıx əlaqələrin qurulması üçün Ümumdünya Qida Günü" mövzusunun işıqlandırılacağı "Sağlam məktəbli" adlı layihənin həyata keçirilməsi nəzərdə tutulub. Layihə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, AQTA-nın Bakı Şəhəri İdarəsi və Təhsil Nazirliyinin Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşlarının iştirakı ilə həyata keçirilir. Məktəblilərlə görüş çərçivəsində "Məktəblərdə sanitar-gigiyenik norma və qaydalara əməl olunması", "Fast Food qidaların ziyanları" kimi mövzularda şagirdlərlə fikir mübadiləsi aparılacaq. Layihənin keçirilməsində məqsəd məktəblilər arasında qida təhlükəsizliyi anlayışının təbliğ edilməsi və şagirdlərə qida təhlükəsizliyi vərdişlərinin aşılanmasıdır. Cari ilin sonunadək layihənin Bakı şəhərində fəaliyyət göstərən 9 ümumtəhsil müəssisəsində həyata keçirilməsi nəzərdə tutulub.

### Bəşəriyyəti qida xaosu bürüyüb

Apardığımız kiçik araşdırmanın nəticəsi onu deməyə əsas verir ki, qida məsələsində qızıl ortanı tapmaq xeyli müşkülə çevrilib. Dünyada baş verən dəhşətli kataklizmlər, havanın, suyun, torpağın insan tərəfindən xususi qəddarlıqla zəhərləndirilməsi dəhşətli sonuclar yaradıb.

*Bəşəriyyəti qida xaosu bürüyüb, dəlicəsinə hər yerdə öz əli ilə məhv etdiyi təbii nemət axtarışındadır, amma tapa bilmir. İnsanlar ağız ləzzətini itirib, dadsız, duzsuz qidalarla özlərini doyuzdurmağa çalışırlar ki, bu da onlarda əlavə psixoloji gərginliyə, getdikcə artan qarşısıalınmaz xəstəliklərin yaranmasına birbaşa rəvac verir. Hazır, genetikası dəyişdirilmiş qidaların, çipsilərin, şirin, qazlı içkilərin əsirinə çevrilmişik...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Azərbaycan Parlamenti - 100





# Müstəqilliyin və xalqın müqəddəratını həll edən iki iclas

**7 dekabr 1918-ci il. Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyətə başladığı gün. Açılış mərasiminin təntənəsi qış günündə könüllərə bahar havası gətirir… O anları parlamentin stenoqrafçıları kağızlara belə köçürürlər: "İclas günorta saat 1-25 dəqiqədə Şurayi-Milli rəisi Məhəmməd Əmin Rəsulzadə əfəndinin nitq iftitahilə açılır". Bakıda Cümhuriyyət Parlamentinin ilk iclasında ilk sözləri söyləmək səadəti ilə dilə gəlir Məhəmməd Əmin Rəsulzadə: "Möhtərəm məbuslar! Azərbaycan Cumhuriyyətinin ilk Məclisi-Məbusanını açmaq yomi-səadəti, siz möhtərəm məbusları təbrik etmək şərəfinin öhdəmə düşməsilə müftəxirəm" - deyir. Məclis ilk natiqini alqışlayır.**

## "...Səadət və hürriyyət istiqlaldır"

Əslində, açılış mərasimi 1918-ci il dekabrın 3-də keçirilməli idi. Bakıda fəaliyyət göstərən rus və erməni milli şuraları Azərbaycan Parlamentinin açılmasına mane olmaq üçün bu ərəfədə təşrif gətirmiş müttəfiq qoşunlarının baş komandanı general Tomsondan istifadə etməyə çalışdılar. Tomsonla aparılan danışıqlarla bağlı və qəzalardan bütün deputatların Bakıya gələ bilməməsini nəzərə alaraq parlamentin ilk iclası dekabrın 7-nə keçirildi.

...O gün o binada - məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakının Nikolayev küçəsində yerləşən "Qızlar məktəbi"nin binasında (indiki AMEA-nın Əlyazmalar İnstitutu) baş verənlər Azərbaycan tarixinə yazılır. Zaman onlardan aldığı hər anı əbədiyyətə çevirir. Tarixi iclasın iştirakçılarının hər biri bunun fərqindədirlər. Azərbaycan Milli Şurasının sədri davam edir: "Əfəndilər! Rusiyada zühur edən inqilabi-kəbir digər həqiqətlər arasında bir həqiqəti-bahirəyi dəxi elan etmiş idi. Bu həqiqət millətlərin həqqi-hürriyyət və istiqlalları idi. Rusiya inqilabı təbiətində mövcud olan ruhə sadiq qalaraq təbii yolu ilə inkişaf etsə idi, millətlərin hüququnu təmin ilə muxtariyyətlərdən mütəşəkkil azad və demokratik bir Rusiyəyi bir an əvvəl təsis edəcək idi. O vaxt təbii idi ki, Rusiyada yaşayan müsəlmanların da həyati-siyasiyyələri digər məhkum millətlərlə bərabər, başqa bir təriqdə cərəyan edəcəkdi. Millətlərə kəndi müqəddəratının təyinini pək səmimanə bir surətdə Rusiya Məclisi-Müəssisəsanından gözlədilər. Fəqət, Rusiyada inqilab və demokratik naminə zühur edən məkus bir istibdad nə kimi xarabalıqlar yaratdığını bilirsiniz. İnqilab naminə hökmfərma olan anarxiya və millətlərin hüququ elanından sonra verilən qatı mərkəziyyətçilik Zaqafqaziya millətlərini kəndi başlarının çarəsinə baxmaya sövq etdi. Zaqafqaziyada Rusiya Məclisi-Müəssisasına intixab olunan məbuslar kəndilərini vəkil edən camaətin hüququnu Zaqafqaziya "Seymini" təşkil və onun istiqlalını elan etməkdə gördülər.

Eyni məntiq nəhayət, Azərbaycan əhalisi tərəfindən seçilən vəkillərin Şurayi-Milli təşkilinə sövq etdi, bu Şurayi-Milli isə Azərbaycan istiqlalını elan etmək zərurəti qarşısında qaldı. Azərbaycan istiqlalı elan olundu". Bu son cümlə məclis iştirakçılarını riqqətə gətirir. Alqış sədaları gurlayır. Axı, onların əksəriyyəti illərlə bu sözləri demək və eşitmək üçün mücadilə aparmışdılar.

Parlamentin ilk iclasının iştirakçıları haqqında Məhəmməd Əmin Rəsulzadə məlumat verir: "Bu gün əqəliyyət təşkil edən millətlərin nümayəndələri ilə qəzaların yeni nümayəndələri dəvət olunmaq üzrə işdə bu Məclis təşkil etmişdir. Bu Məclis ümumi seçki üsulu ilə toplanaraq Azərbaycan Məclisi-Müəssisanı toplanıncaya qədər məmləkətimizin sahibi olacaq. Burada Azərbaycanda bulunan bütün millətlərin, təbəqələrin və müxtəlif cərəyanların nümayəndələri olduğundan bu Məclis vətənimizi tamamilə təmsil edə bilər".

Onlar demokratik dövlət qurmuşdular. Elə bir Azərbaycanda yaşamaq istəyirdilər ki, orada millətlər dost, qardaş olsun, hər kəs əl-ələ verərək Azərbaycan Xalq Cümhuriyyətinin əbədi bərqərar olması naminə çalışsın. Uzun illər bezar olduqları çarizm Rusiyasından, Rusiya istibdadından qurtuluşun fərəhi ilə danışan natiq də bütün millətlərə azadlıq arzulayır: "...hər bir millət müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlər ilə ürəyi istədiyi kimi əqdi-ittifaq etməlidir". Onun bu fikri də əqidə yoldaşları tərəfindən alqışlanır. Rəsulzadə davam edir: "Biz Rusiyanın səadətini istəriz, Rusiya camaatını sevəriz, fəqət, kəndi istiqlalımızı da əziz tutarız. (Alqışlar). Cəbr ilə qəbul etdirilən bir şeydə səadət olmaz. Çünki səadət və hürriyyət istiqlaldır. (Alqışlar). İştə bunun üçün, əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı - əhrarənəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir. (Məbuslar yerlərindən qalxır, şiddətli alqışlar uzun müddət davam edir)".

## Zaman ağır, yol tikanlı...

Bu çıxışda müstəqil dövlətin qüruru da, gələcəyə sonsuz ümid də, gözlənilən təhlükələrə qarşı ayıq-sayıq olmağa çağırış da var: "Zaman ağır, gedəcəyimiz yol çox tikanlı və arizəlidir. İrəlidə bir çox müşkülat və maneələri dəxi gözə almalıyız. Dumanlı yolları keçmək və sər mənzil məqsədə irmək üçün siz, məbus əfəndilər, bir çox fədakarlıqlar etməli, təmsil etdiyiniz millətə səbat, mətanət göstərmək üzrə bir nümuneyi-əmsal təşkil etməlisiniz. Bu nümunəni göstərəcək iqtidar və istedada malik oldunuzsa, yolun yarısı gedilmiş deməkdir. Əvət, əfəndilər, bu gün firqə ehtirasları, şəxsi qərəzləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında səqit qalan qərəzlər atılmalı, vətən qayğısı, millət duyğusu hər şeydən yüksək tutulmalıdır". Sürəkli alqışlarla məclis coşur.

Bu məmləkətə ta qədimdən "Odlar yurdu" deyiblər. Məhəmməd Əmin də o tarixi iclasda Azərbaycanı bir atəş mənbəyi adlandırır. Vətənimizin hər zaman sinəsində bir müqəddəs atəş bəslədiyini vüqarla söyləyir. Bu atəşin sönməməsi üçün əl-ələ verib çalışmağa dəvət edir. Sonra o, təklif edir ki, parlamentə sədr və sədr müavini seçilsin. Namizədlərin müzakirəsinə başlanılır:

"Şəfi bəy: - "Müsavat" və bitərəflər namından rəisliyə Əlimərdan bəy Topçubaşov, birinci müavinliyə doktor Həsən bəy Ağayevin namizədliyini təklif edirəm.

Sədr: - Başqa namizəd təklif edən və bu barədə söz söyləyən yoxmu? Yoxsa, Əlimərdan bəy ilə Həsən bəyin namizədlikləri qəbul olunacaq.

Əhməd Cövdət: - Müsəlman sosialistlər ittifaqı tərəfindən "Müsavat"ın göstərdiyi bu namizədlərə etiraz yoxdur.

Heybətqulu Məmmədbəyov: - "İttihad" firqəsi tərəfindən Əlimərdan bəy Topçubaşovun namizədliyinə etiraz yoxdur, fəqət Həsən bəyin göstərildiyinə rəy verməyəcəyik.

Şeyxislamov: - Sosialist "Hümmət" firqəsi tərəfindən "Müsavat"ın namizədlərinə etiraz yoxdur.

Sədr: - Şu sürətlə məsələni səsə qoymalıdır. Hər kəs bu namizədliyə razıdır, əlini qaldırsın. (İttihadi-ara ilə Əlimərdan bəy sədrliyə seçilir)".

## Məqsəd sevgili Azərbaycanın səadətidir

O gün Əlimərdan bəy Azərbaycanda olmaması səbəbindən iclasda iştirak etmir. Sədr müavininə - Həsən bəy Ağayevə söz verilir. Alqışlar altında "mövqei-sədarəti işğal" edən Həsən bəy bu tarixi gündə boynuna düşən böyük, şərəfli vəzifənin məmnunluğu ilə danışır. Parlament üzvlərinə ona etimad göstərdiklərinə, belə uca mənsəbə layiq bildiklərinə görə təşəkkür edir: "Rəis cənabları gələnə kimi onun ağır vəzifəsinin ifası öhdəmə buraxıldı. Bu ağır vəzifəni ifa edə biləcəkmiyəm, yoxmu, bunu deməyə cəsarət edəmirəm. Zira vəzifə xeyli məsuliyyətli və ağırdır. Burası hamınıza məlumdur. Fəqət hamının məqsədi sevgili Azərbaycanın səadəti, buraya toplanmamızdan murad əziz vətənimizi sahili-nicata çıxarmaq olduğundan ümidvaram acizləriniz sizinlə bərabər məqsədə nail və sizin müavinətiniz ilə vəzifəmi hüsnü-ifayə müvəffəq olacağam". Sədr müavini parlamentin məqsədlərinə asanlıqla nail olmasını arzulayır və müvəqqəti katibliyə namizəd göstərir: "Ümum parlamentlərdə qaydadır. Müvəqqət katibliyə ən gənc məbus intixab edilir və siyahıdən anlaşıldığı üzrə məbuslarımızın ən cavanı Rəhim bəy Vəkilov olduğundan onun namizədliyini təklif edirəm". Təklif qəbul olunur.

Bu gün münasibətilə Azərbaycanın müxtəlif yerlərindən gələn çoxlu təbrik teleqramlarından bir qismini Həsən bəy Ağayev oxuyur.

Parlamentdə söz alan "Fətəli Xan Xoyski mərkəz və sağların gurultulu alqışları arasında kürsüyü-xitabata çıxır". Fətəli xan həmin anları tariximizdə bu sözlərlə əbədiləşdirir: "Möhtərəm Azərbaycan Parlamenti əzası! Bu günkü gün Azərbaycan üçün böyük, əziz mübarək gündür ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyəti əlinizə aldınız. Hökumət vəkalətilə özümüzü də sizinlə bərabər təbrik edirəm".

Fətəli xan Xoyski hökumətinin çox mürəkkəb tarixi şəraitdə gördüyü işlər barədə geniş hesabat verir. O, Azərbaycan hökumətini təşkil edildiyi çox da uzaq olmayan günlərə nəzər salır. Ölkənin həm xarici, həm də daxili vəziyyətinin çox mürəkkəb olduğunu yada salır: "Bir vaxt idi ki, bir kənddən o biri kəndə getmək qorxulu idi, gecə yatanda sabaha çıxmaq ümidi yox idi. Heç kəsin irz və namusu əmniyyətdə deyil idi. Dəmir yollarında rus qoşunları qayıdarkən nə hallar oldu. Başımıza nə fəlakətlər gəldi, dəmir yolları təmamilə yatmışdı. Poçta, teleqraf yox idi, bir kağız yollamaq mümkün deyil idi. O vaxt idi ki, maliyyatdan hökumət əlində heç bir şey yox idi. Hökumətə lazım olan idarələrin hamısı başdan-başa dağılmış idi, xidmətçilər qaçmışdılar. İdarələrin adı var isə də, özü yox idi. Hərə başına beş-on adam yığıb hökumət bir qanun düzəltmiş idi. Güclü olanlar özünü ağa hesab edirlərdi. Daxili işlər böylə ikən Azərbaycan istiqlalı elan edilmiş isə də heç bir hökumət tərəfindən təsdiq edilməmişdi. O zaman bütün Azərbaycan tərəfindən seçilmiş milli komitə (soldan: doğru deyil!) bu hökuməti təyin edib idarə işlərini ona tapşırdı. Məni rəis seçərək idarəyə başladıq. Türkiyə ilə sülh əhdinaməsi tezlik ilə bağlandı. Bununla bərabər, hökumət qanun və qayda barəsində aciz idi. Zira heç bir tədbir qüvvəmiz və silahımız yox idi. Aşkar hökumət təşkil etməyə məcbur idik, lakin bunu da edə bilməz idik". Hökumət rəhbəri bildirir ki, bu vəziyyətdə Türkiyəyə müraciət edildi. Çünki: "Bu təklif ilə başqasına müraciət etmək mümkün deyil idi. İstəsək də bir fayda olmaz idi. Türkiyə həmdinimiz, həmvətənimiz idi. Ona görə ondan kömək istədik. Bu altı ay müddətindəki hökumət idarə eyləmişdir. Siz görürsünüz ki, çox şeylər tazə təşkil olubdur. Daxildə hərcimərcdən başqa heç bir şey yox idi. Hətta polis də yox idi. Ona görə hamıdan artıq polis işlərinə diqqət etdik. İndi Allaha şükür olsun ki, Azərbaycanın hər yerlərində lazımi qədər olmasa da, xalqın malını, canını müdafiə edəcək təşkilatımız var. Bu xüsusda çox sözlər ola bilər. Fəqət vaxta baxıb tərəziyə qoyulmalıdır ki, bu işləri hansı hökumət və nə vaxt etmişdir? Tarixi, sabiqəsi, əsgəri və xəzinəsi olan hökumətmi? Yaxud iki gündə təşkil olunmuş pulsuz və əsgərsiz hökumətmi? Əgər burasını nəzərə alsanız görərsiniz ki, nə qədər zəhmət lazım idi".

## Müstəqil hökumətin şüarı: Millətin hüququ, istiqlalı, hürriyyəti!

Vacib məsələlərdən biri maliyyə məsələsi idi ki, onsuz işləmək mümkün deyildi. Fətəli xan bu istiqamətdə həyata keçirdikləri tədbirlərdən də təfərrüatı ilə danışır. Gördükləri bu qədər işi Fətəli Xan Xoyski öhdələrinə düşən vəzifənin bir zərrəsi hesab edir. Xatırladır ki, həmin vaxtlar Azərbaycanın köksü, paytaxtının sahibi olan müsəlman milləti qətliam edilmiş, baş bilənlər Dağıstan, İran və Turana dağılmışdılar. O, çox əziyyətlər çəkildiyini, nəhayət, məqsədə çatdıqlarını şükranlıqla vurğulayır. İşğaldan azad edilmiş Bakıya üç gün sonra girən hökumət burda qayda-qanun yaratmaq üçün işlərə başlamışdı. Hökumət qarşısında hələ çox mühüm məsələlər dururdu. Fətəli Xan məclis üzvləri qarşısında hesabatını davam etdirir: "Xarici işlər bilirsiniz ki, nə halda idi. Zülmət zamanı qayalıq içində nazik taxta bir qayığa bənzər idi ki, hər dəqiqə qayalara toxunub dağılmaq təhlükəsi var idi. Fikir etsəniz görərsiniz ki, böylə idi. Mən tərif etmirəm. İştə bizim vəzifəmiz bu idi ki, qayığı qayalar arasından keçirə idik". Bir məsələ həll edilər, edilməz digərləri meydana çıxırdı. Fətəli xan indi də müşkülə düşdükləri o vaxtların hesabatını verir: "...bir zaman gəldi ki, hökumət nə edəcəyini bilməyirdi, ola bilir idi ki, bir addım ilə hər şey dəyişsin. Xalq yeni işlərə razı olacaqmı, yoxmu? Təzə yol ilə getmək istəyəcəkmi? Hökumətə məlum deyildi, burada xalqın öz rəyini bilmək lazım idi, bu lap axırıncı məqam idi. Binaən-ileyh hökumət parlament dəvətini lazım gördü. Fəqət tez parlament çağırmaq mümkün deyil idi. Hökumət təsis olunandan altı ay müddətində Məclisi-Müəssisan çağırmağa söz vermişdi. Bu vaxtadək hələ Məclisi-Müəssisan çağırılmamış, bu bizim təqsirimiz deyildir. Çünki torpağımızın yarısı və paytaxtımız əlimizdə yox ikən Məclisi-Müəssisan dəvəti fikrinə düşmək belə gülünc idi. Şəhər alınandan sonra da dəvət etmək və hazırlaşmaq mümkün deyil idi. Bununla belə, hələ Bakı alınmadan iki gün əvvəl Gəncədə komissiya təşkil edildi ki, Məclisi-Müəssisan dəvətinə hazırlıq işləri görsün. Məlumdur ki, Məclisi-Müəssisan əsas qanun qoymaq üçündür. Böylə bir məclisə malik olmaq üçün qabaqca Azərbaycan istiqlalının dövlətlər tərəfindən qəbul və təsdiq edilməsi lazım idi. Əlbəttə, əsas qanunu qoyub sonra da ləğv etmək böyük ayıbdır. Binaən-ileyh biz müvəqqəti Məclisi-Müəssisansız qalmağı dəvətinə tərcih etdik". Hökumət başçısı Almaniya, İngiltərə, Amerika və Fransa kimi dünyaya hökm edən ölkələrin o zamankı vəziyyətləri, yürütdükləri siyasət və bütün bunların Azərbaycan hökumətinə təsirlərindən danışır. Bununla bərabər, hökumətin öhdəsinə düşən digər vəzifə də Qafqazda qonşu dövlətlərlə əlaqələrin qurulması idi. Fətəli xan təəssüflə axır aylarda ermənilərlə müsəlmanların arasında müharibə vaqe olduğunu xatırladır. Hökumət rəhbəri ürək açan xəbərlər də verir: "Şimdi məktəblər milliləşdilər. İbtidai məktəblər və bəzi siniflər milliləşmişlər, bir çox yeni məktəblər açılmışdır. Bundan əlavə, hökumət əldən gələn qədər çalışaraq yox olan ədliyyə idarələrini təcdid etdi. İndi Allaha şükürlər hər yerdə olmaz isə də bir çox ədliyyə idarələrinə türk dili bilən adamlar təyin edilmişlər. Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu sürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur. MİLLƏTİN HÜQUQU, İSTİQLALI, HÜRRİYYƏTİ!

Fəaliyyətimizdə xətalar işləmişiksə də, həmişə fikrimiz bu olmuşdur. Hökumət çalışmışdır ki, öz nüfuzunu millətin gözündə itirməsin. Biz xahiş edirik ki, nöqsanlarımızı bizə göstərəsiniz, tənqidə ixtiyarınız var və tənqid xeyirli şeydir. Parlamentin əsas vəzifəsi də yol göstərməkdir".

Fətəli xan sonda öz hökumətinin istefasını qəbul etməyi yeni yaranmış parlamentdən xahiş edir. İstefa qəbul olunur. Məhəmməd Əmin təklif edir ki, hökumət iş başında qalsın. Təklif qəbul edilir.

Sədr digər məsələlərə keçir. Təkliflər söylənilir. Müzakirələr edilir. Son təklifi Məhəmməd Əmin Rəsulzadə söyləyir: "Məclisi bitirmədən ikinci Məclis vaxtı təyin edilsin.

Sədr: - Gələn iclasın vaxtını müəyyən ediniz.

Məmməd Əmin: - O birisi gün saat 12-də.

Sədr: - Etiraz yox isə iclas düşənbə günü, dekabrın onunda saat 12-yə təyin edilir. İlk iclasda stenoqramçı son qeydini edir: "(İclas saat 5-in yarısında qapanır)".

## İki iclas arasında...

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti ilk gündən işlərini demokratik prinsiplər əsasında qurdu. On yeddi ay boyunca 145 iclası keçirildi. Azərbaycan Parlamenti bütün fəaliyyəti ərzində "İstiqlal Bəyannaməsi"nin müəyyən etdiyi prinsiplərə sadiq qaldı. Tarixi şəraiti nəzərə alaraq, ölkənin ərazi bütövlüyünü təmin edərək, müstəqilliyini, vətəndaşlarının azadlıqlarını qoruyaraq müasir, hüquqi-demokratik dövlət yaratmaq məqsədi ilə çox mühüm qanunlar, qərarlar verdi. Onların hər biri müstəqil Azərbaycanın ilk qanun və qərarları kimi də böyük əhəmiyyət daşıyır.

Parlament haqqında qanunda erməni nümayəndələri üçün 21 yer, rus nümayəndələri üçün 10 yer, həmkarlar ittifaqı nümayəndələri üçün 3 yer ayrıldığına baxmayaraq, onlar Azərbaycan Parlamentinin ilk iclasının açılışında iştirak etmədilər. Sonralar da Azərbaycanın müstəqilliyi ölkənin daxilində və xaricində olan düşmənlərinin yuxusunu ərşə çəkdi. Onları ruhlandıran bolşevik Rusiyasının Şimali Azərbaycanı yenidən müstəmləkə ölkəsinə çevirmək istəyi idi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu arzulayan daxili düşmənlərin əməlləri də qırmızıları arxayınlaşdırırdı.

Təəssüf ki, Azərbaycanın dövlət müstəqilliyinin məhvinə çalışanlar yalnız ruslar, ermənilər deyildi. Azərbaycanlılar arasında da bolşeviklərə qucaq açanlar vardı. Bolşeviklərin qələbəsinə nail olanların əksəriyyəti sonralar elə qulluq etdikləri rejimin siyasətinin qurbanları olacaqdılar. Hələlik isə 1920-ci ilin aprelinin son günləridir. Azərbaycan Cümhuriyyətinin Parlamenti təhlükə ilə üz-üzədir. XI Ordu adlanan işğalçı qoşunların ayaq səsləri eşidilir. Bolşeviklərin təhdidləri və təzyiqləri altında Azərbaycan Parlamenti son iclasını keçirir...

## Son imtahan...

27 aprel 1920-ci il. Saat 20 dəqiqə 45... Azərbaycan Parlamentinin 145-ci, təcili fövqəladə axşam iclası keçirilir. Azərbaycan böyük sınaq qarşısındadır. Parlamentin üzvlərinin çoxu həmin gecəni ömrünün ən ağır anları kimi xatırlayacaq. Doğma millətin, saysız-hesabsız zəhmətlə, sonsuz arzularla qurduqları dövlətin müqəddəratı həll olunur. Qərar vermək çox çətindir... Amma verilməlidir...

İclasın sədri Məhəmməd Yusif Cəfərov, katibi Rza bəy Qaraşarlıdır. Sədr bu tarixi iclasıın qapalı və ya açıq olmağı haqqında fikirləri bilmək istəyir.

"Səslər - Açıq olsun... bağlı olsun... açıq olsun.

Sədr - Bəlkə bir şəxs bu haqda danışmaq istəyir?

Sözü Məhəmməd Əmin Rəsulzadə alır:

- Cənablar! Çıxardığımız tarixi qərarı millətdən bixəbər çıxarmayaq. Ölkə parlamentinin qapısını açıq qoyaq ki, hər kəs nə cür təhlükəli vəziyyət içində olduğumuzu, nə cür qərar qəbul edəcəyimizi bilsin. Ona görə də təklif edirəm ki, məclisimizin qapılarını millət üzünə bağlamayaq və millətdən bixəbər qərar qəbul etməyək.

(Şəfi bəy Rüstəmbəyov, "Azərbaycan" qəzetinin redaktoru ağlayır)".

Səslərin çoxluğu ilə iclasın açıq keçirilməsi qərara alınır. Komissiya tərəfindən onun sədri Məhəmməd Həsən Hacınski danışır. O, "Azərbaycan kommunist" firqəsindən gəlmiş, əslində, məzmununu hamının bildiyi məktubu təkrarən oxuyur. Rusca oxuduqlarını müxtəsər tərcümə edir: "Mərkəzi Azərbaycan kommunist firqəsi bizə təklif edir ki, axşam saat 7-yə qədər hökuməti onlara təslim edək. Bununla belə, əmin edirlər ki, onların şərtlərini qəbul etsək, Qızıl Ordu əsla Bakıya gəlməyəcək və Qızıl Ordunun Bakıya gəlməməsi üçün onlar əllərindən gələni edəcəklər. Onlar deyir ki, hökumət Azərbaycan kommunistlərinin əlində olarsa, Qızıl Ordu heç bir vədə buraya gəlməyəcək. Hökumət mexaniki surətdə təslim edilməlidir. Nə kimi məmurlar varsa, hamı öz yerlərində qalacaqlar. Yalnız hökumət başında olanlar kənar edilib, yerlərinə Azərbaycan kommunistləri keçir və müsəlmanlardan başqa orada kimsə yoxdur. Altıncı şərtləri budur: - əgər bu gecə bu məsələ həll olunarsa, onlar bir deklarasiya çıxarırlar ki, Azərbaycan Parlamentinə daxil olan siyasi firqələr musavi (bərabər) və azad fəaliyyət göstərəcəklər. Onlara qarşı və xüsusən, hökumət üzvlərinə qarşı heç bir xüsusi tədbir görülməyəcək və onlar təqib olunmayacaqlar. Sonra gələn Qızıl Ordunun məqsədləri məzlum millətə yardım etməkdir. Biz tərəfdən də bir neçə təklif verildi. Lakin onlar qəbul etmədilər. Onlar bir şeyi də söylədilər ki, hərgah onların təklifi qəbul olunmasa, gələcəkdə məsuliyyət parlament üzvlərinin üzərinə düşəcək".

Hacınski deyir ki, təzyiq altında belə bir millətin müqəddəratını bir firqəyə əmanət etmək olmaz. O, ölkə sərhədlərindəki vəziyyəti də tənqid edir: "Boynumuza almalıyıq ki, bu gün sərhəddə lazımi qədər düşmənə qarşı mütəşəkkil müdafiəyə hazır deyilik. Hökumətin laqeydliyi nəticəsində Qarabağ dağlarından Yalamayadək sərhəd açıq buraxılmışdır. Bununla belə, ictimaiyyətin fikrilə də razılaşmalıyıq ki, şimaldan heç bir qorxu yoxdur və orada yaşayanlar da Azərbaycan kəndliləri kimi kəndlilərdir və Azərbaycanlı kəndlilərin razılığı və istəyi olmasa, heç kəs Azərbaycana soxula bilməz".

Parlamentdə müxtəlif fikirlər səslənir. Səmədağa Ağamalıoğlu: "Təslimdən başqa çarə yoxdur, çünkü artıq iş-işdən keçib. Məsələ burasındadır ki, millətin əmin-amanlığını qorumaq lazımdır. Onlar da buna söz verirlər və deyirlər ki, Azərbaycanın istiqlaliyyəti qorunacaq və mən də yəqin edirəm ki, indiki istiqlaliyyət əvəzinə Azərbaycan digər istiqlaliyyətə nail olar. Tarix bunu göstərir ki, bir adam daimi qala bilməz. Doğrudur, bir az ağır gəlir ki, bu vaxta qədər ağalıq edəsən, sonra da deyəsən ki, Əliheydər Qarayev, indi də gəl sən otur, görək neyləyirsən. Bizdə kişilik varsa, bunu etiraf etməli və deməliyik ki, sən otur, bəlkə sənin məramnamən bizimkindən daha yaxşıdır və millətə bizdən də yaxşı xeyir verə bilərsən"

Aslan bəy Səfikürdlü: "İndi başqa bir firqə var ki, o da Azərbaycanın fəhlələri tərəfindədir. Onlar da bizim vətəndaşlarımızdır, özlərini azərbaycanlı sayırlar və hökuməti bizdən istəyirlər. Biz isə heç bir şey bilmədən hökuməti veririk öz camaatımıza - yəni, fəhlələrə və kəndlilərə ki, onlar da bunu istəyirlər. Məhəmməd Əmin demişkən, öz edamımıza özümüz qol çəkirik. Bu da doğrudur. Amma etiraf etməliyik ki, bu ixtiyarı və hökuməti öz camaatımıza veririk. Azərbaycanın ixtiyarını Azərbaycan fəhlələrinin nümayəndələrinə veririk. Bu nümayəndələr deyirlər ki, bütun məsuliyyəti biz öz üzərimizə götürürük. Biz Azərbaycan kommunistlərinin təklifini rədd etməyib, qəbul etməli və hakimiyyəti bununla birlikdə millətin ixtiyarını onlara verməliyik".

10 dəqiqəlik tənəffüsdən sonra Məhəmməd Əmin Rəsulzadə yenidən söz alır: "Bizim fraksiyamız təslim olmağın əleyhinədir. Fəqət, firqələrin əksəriyyətinin tələbinə görə və camaatımızın arasında daxili müharibə salmamaq üçün və əlavə bugünkü kommunist firqəsinin müstəqilliyimizi müdafiə edəcəklərini nəzərə alaraq bütün ixtiyarın onlara verilməsinin tərəfdarıyam, bu şərtlə ki, kommunistlər istiqlaliyyət, millət və məmləkətimizi layiqincə müdafiə etsinlər. Yox, əgər bunlara əməl olunmazsa, ixtiyarımızı geri alaraq haqqımızı özümüzdə saxlayacağıq".

Hacıkərim Sanıyev də söyləyir ki, etimad göstərilən şəxs vəzifəsini layiqincə yerinə yetirə bilməzsə, onda bu etimad geri götürülür və onlar da bu cür edəcəklər.

Bütün ixtiyaratın kommunistlərə verilməsi, hökumət və parlamentin onların rəyi əsasında təşkil olunması təklifi səsə qoyulur. Bir nəfər təklifin əleyhinə səs verir, üç nəfər bitərəf qalır, üç nəfər isə səs vermir.

## "Bəs bu parlamentin taleyi?"

Bu sualı "Əhrar fraksiyası"dan İslam bəy Qardaşov yerindən verir. Və parlamentin taleyi müzakirə olunur.

Ağa Aşurov: "Orada proletar hakimiyyəti var və özlərini kəndli və fəhlə hökuməti adlandırırlar. Biz isə burada dövləti, tacir və o şəxslərik ki, hərəsi bir yerdən gəlibdir. Siz onlarla bir yerdə işləyə bilməyəcəksiniz. Onların fikirlərinə görə bu vaxta qədər olan hökuməti parlamentə qulluqçu idi. Amma indi elə deyil. O adam sənə hökm edir, sən də qəbul edirsən. Məsələ bu növ bitir. Parlamentin qalmasını heç onlar da istəmirlər. Qəbul etsələr belə, yeni bir nəticə verməyəcəkdir".

Məhəmməd Həsən Hacınski ("Müsavat"): "Bu məsələ bizim müzakirəmizdə olanda onlar bizə belə cavab verdilər ki, inqilabi hökumət ilə parlament yaşaya bilməz. Məsələ orasındadır ki, parlament öz ixtiyarını həmin inqilab komitəsinə verir. Beləliklə, məsələ aydındır".

Muxtar Mahmudov ("Müsavat"): "Şimaldan gələn bu qüvvəni dəf etməyə təəssüf ki, cavan Azərbaycanın qüvvəsi olmadığına görə, parlament öz işini dayandırıb, hüquqlarını məsuliyyəti öz üzərinə götürən firqəyə verir. Deyirlər ki, təzə firqə bəlkə parlamenti qovub dağıtsın, lakin parlament bütün Azərbaycan millətinin nümayəndələrindən olduğu üçün onu kimsə dağıda bilməz. Nə vaxta qədər ki, parlament öz dağılması haqqında qərar çıxartmayıb, yenə parlamentliyində qalır".

Muxtar Mahmudov təslim olmağın texniki tərəflərinə toxunur, ordu və digər məsələləri həll etmək lazım olduğunu deyir: "Parlament məsələsinə gəldikdə isə, o gərək öz hüquqlarını layiqincə saxlasın və təmin etsin. Parlamentin dağılması barədə qərar çıxarmaq üçün başqa iclas lazımdır, yoxsa belə hay-küylə iş getməz".

Aslan bəy Qardaşov sualını geri götürür, rica edir ki, müzakirə olmasın. "Sədr - Beləliklə, parlamentin məsələsi bağlanır. Ona görə də iclası qapalı elan edirəm.

Saat 23-25 dəqiqədə bağlanır".

Parlament səs çoxluğu ilə, bu şərtlərlə hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul edir:

*"1. Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti mühafizə edilir;*

*2. Azərbaycan kommunist firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;*

*3. Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputatları sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir;*

*4. Hökumət idarəsinin bütün xidmətçiləri öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;*

*5. Yeni yaradılan müvəqqəti kommunist hökuməti parlamentin və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;*

*6. Qızıl Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcək;*

*7.Yeni hökumət haradan baş verməsindən asılı olmayaraq Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlər görəcək və öz sərəncamında olan bütün vasitələrlə mübarizə aparacaqdır".*

Son iclasda parlamentdə inananlar var idi ki, hökuməti Azərbaycan kommunistlərinə vermək lazımdır, əgər onlar ölkəmizin müstəqilliyini söz verdikləri kimi qorumasalar, onda camaat özü azadlığını müdafiə edəcək.

Bolşeviklərin güclü təhdidləri, təzyiqləri altında keçən son iclasın ertəsi günü - aprelin 28-də XI Ordu yolunu kəsməyə çalışan kiçik silahlı dəstənin müqavimətini qıraraq Bakıya daxil oldu. Parlamentdə bəzilərinin ümid etdikləri kimi, Azərbaycanın müstəqilliyinin geri qaytarılması isə 70 il düyünə düşdü. O azad günü görmək Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk və son iclaslarının iştirakçılarının heç birinə nəsib olmadı...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# "AZƏRBAYCAN" – 100 İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü

# Dövrün salnaməsi

## 100 il öncə millət fədailərinin yaratdıqları "Azərbaycan" qəzetinin fəaliyyətinə siyasi-tarixi baxış

> ...Mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır...
>
> **Heydər ƏLİYEV**

Tarixi hadisələrin düzgün işıqlandırılması və araşdırılması problemi bəşəriyyəti düşündürən vacib məsələlərdəndir. İlk baxışdan sadə görünən bu faktın, yəni, hər bir dövlətin müəyyən zaman kəsiyində mövcudluğu, əslində, onun ümumi tarixinin mühüm qollarından biridir desək, səhv etmərik. Bu mənada Şərqdə ilk demokratik respublika olan Azərbaycanda dövlət quruculuğu prosesindən, aparılan daxili və xarici siyasətdən, tarixi faciələrdən, soyqırımlarından, deportasiyalardan hələ də gənc nəslin, eləcə də ictimaiyyətin lazımi səviyyədə məlumatı yoxdur. Bu günün ziyalıları, alimləri tarixi faciələrimizi yazmaq, təfsilatı ilə gələcək nəsillərə, dünya ictimaiyyətinə çatdırmaq üçün öz vətəndaşlıq borclarını yerinə yetirməlidirlər.

Qürur hissi ilə deyə bilərik ki, 1918-1920-ci illərdə bu şərəfli missiyanı "Azərbaycan" qəzeti çox ləyaqətlə yerinə yetirmişdir. Yəni, müxtəlif ideyaların və fikir ayrılıqlarının mövcudluğu, xaos vəziyyətinə gətirilən bir cəmiyyətdə mətbuata təpkilərin göstərildiyi zamanda hadisələrin real şəkildə işıqlandırılması yazarlardan xüsusi cəsarət tələb edirdi. Məhz həmin dövrdə "Azərbaycan" qəzeti heç nədən çəkinmədən dövlət quruculuğu, siyasət, milli özünüdərk, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı prosesi və s. məsələlərin aynasına çevrilmişdi.

Məhz bu mətbuat orqanı Azərbaycan Xalq Cümhuriyyətinin dünya dövlətləri tərəfindən müstəqil ölkə kimi tanınmasına çalışan rəsmilərinin xarici əlaqələrin qurulmasını zəruri edən siyasət prioritetlərini dərc etməklə xalqın maariflənləndirilməsində fəal rol oynayırdı. Məsələn, "Azərbaycanın Müstəqillik Aktı"nın hüquqi cəhətdən tanınmasına göstərilən cəhdlərdən biri haqqında 1918-ci ilin dekabrında "Azərbaycan" qəzeti yazırdı ki, "...hazırda Avropa və Amerika qədər Azərbaycanın maraqlarını müdafiə edə biləcək elə bir qüvvə yoxdur" ("Azərbaycan" qəzeti, 21 dekabr 1918-ci il.). Bu məqsədlə də həmin dövrdə vaxt itirmədən çoxpartiyalılıq əsasında Parisə gedəcək nümayəndə heyətinin tərkibi müəyyənləşdirildi. Onların əsas məqsədi Azərbaycan Respublikasının dünyəvi dövlət olduğunu bütün ölkələrə çatdırmaq idi.

"Azərbaycan" qəzeti, eyni zamanda, Xalq Cümhuriyyətinin digər rəsmi xəbərlərini də dərc edirdi. Onun 26 dekabr 1918-ci il tarixli sayında Azərbaycan hökuməti tərkibinin rəsmi şəkildə təsdiqləndiyi və fəaliyyət müddətinin müəyyənləşdirildiyi üçüncü kabinə haqqında dəqiq məlumat verilir. "Üçüncü kabinə; 26.12.1918-14.03.1919. Nazirlər Şurasının sədri və xarici işlər naziri - F.Xoyski (bitərəf), daxili işlər naziri - X.Xasməmmədov, maliyyə naziri - İ.Protasov (Slavyan-Rus Cəmiyyəti), yollar naziri - X.Məlikaslanov (bitərəf), ədliyyə naziri - T.Makinski, maarif və dini etiqad naziri - N.Yusifbəyli ("Müsavat"), poçt-teleqraf və əmək naziri - Ə.Səfikürdski (sosialist), hərbi nazir - S.Mehmandarov (bitərəf), sosial-təminat naziri - R.Xoyski (bitərəf), xalq səhiyyə naziri - Y.Gindes (Slavyan-Rus Cəmiyyəti), ticarət və sənaye naziri - M.Əsədullayev (bitərəf), ərzaq naziri - K.Lizqar (Slavyan-Rus Cəmiyyəti), əkinçilik naziri - X.Sultanov ("Müsavat")" və s. Təqdim olunan siyahıya diqqət yetirdikdə cümhuriyyətin nə qədər humanist prinsiplər əsasında qurulduğu aydın görünür. Yəni, milli tərkib və partiya mənsubiyyətindəki demokratik yanaşma fikrimizin təsdiqinə heç bir şübhə yaratmır.

Xüsusi vurğulanmalıdır ki, "Azərbaycan" qəzetinin ən böyük xidmətlərindən biri də o dövrdə ordu və daxili işlər orqanlarının formalaşması, onların ölkədəki ictimai-siyasi sabitliyi qoruması və dövlət əleyhinə planlaşdırılan təxribatların, terrorçuluğun qarşısını almağa yönələn dönməz mübarizəsinin səhifələrində işıqlandırılması ilə bağlıdır. Qəzet Azərbaycanın bu günü və gələcəyi üçün həyati əhəmiyyət kəsb edən məsələləri elə bir oxunaqlı tərzdə təqdim edirdi ki, o, ictimaiyyətin maarifləndirilməsində mühüm vasitələrdən birinə çevrilirdi.

Həqiqətən, qısa müddət ərzində ordunun, xüsusi xidmət və təhlükəsizlik, daxili işlər orqanlarının həmin dövr üçün məqbul inkişaf səviyyəsinə cavab verən formada yaradılması yorulmaz xidmət tələb edən problem idi. Önəmli o idi ki, 23 ay ərzində mövcud olan hökumət dövlətin qorunub saxlanmasında, xarici təcavüzlərin, təxribatların və digər müdaxilələrin qarşısının alınmasında mühüm strateji əhəmiyyət kəsb edən bu qurumları yaratdı.

Dövlət quruculuğunun ən zəruri strategiyasını təşkil edən məsələlərdən biri kimi ordunun yaradılmasının və formalaşdırılmasının təxirəsalınmazlığı həmin dövrün real vəziyyətinin təsvirində daha aydın görünürdü. Bu barədə "Azərbaycan" qəzetinin 1918-ci il 11- 25 sentyabr tarixli sayında yazılırdı ki, Bakı şəhərinin əllərindən çıxması ilə barışa bilməyən erməni-daşnak elementləri evləri yandırır, qarşılarına çıxan azərbaycanlıları öldürür, talanlar törədirdilər. Bu isə həm azərbaycanlı əhalidə, həm də şəhərə girmiş azərbaycanlı döyüşçülərdə əks-reaksiya yaradırdı. Kütləvi anarxiyaya çevrilə biləcək bu hərəkətlərin qarşısının alınması üçün Qafqaz İslam Ordusunun Komandanlığı tərəfindən qalibiyyətli tədbirlər həyata keçirilirdi. Soyğunçuluqda, talanlarda, digər cinayət əməllərində təqsirləndirilən 100-dən çox adam güllələndi və dar ağacından asıldı. Görülən sərt tədbirlər nəticəsində tezliklə şəhərdə sakitlik bərpa olundu ("Azerbaydjan", 25.09.1918).

Daşnakların fəaliyyət planına uyğun cəhdlərinin əks olunduğu "Azərbaycan"ın 11-21 oktyabr 1918-ci il nömrələrində isə qeyd olunurdu ki, Erməni Milli Şurasının fəallarından təşkil edilən oyuncaq qurumun bütün fəaliyyəti azərbaycanlıların fiziki məhvinə, onların ata-baba məskənlərindən sıxışdırılıb çıxarılmasına istiqamətlənmişdi. Erməni millətçiləri azərbaycanlıları məcbur etmək istəyirdilər ki, Qarabağı Azərbaycandan ayrı qurum kimi tanısınlar. Bu məqsədə nail olmaq üçün onlar silahlı dəstələr yaradıb azərbaycanlıları təcrid etməyə çalışırdılar. Əskərana, Ağdama və Qaryaginə gedən yollar kəsilməklə azərbaycanlıların Aran Qarabağla əlaqələrinin qarşısına çəpər çəkilmişdi. Erməni millətçiləri planlaşdırmışdılar ki, payızın və qışın gəlməsi və yaşayışın çətinləşməsi, ehtiyacların artması ilə bağlı azərbaycanlılara təzyiqi gücləndirsinlər və onlar Qarabağ erməni qurumunu tanımaq məcburiyyətində qalsınlar.

"Azərbaycan" qəzetinin elə həmin ilin oktyabr ayında nəşr olunan bir neçə sayında ermənilərin Qarabağdakı separatçı hərəkətləri dəqiq şəkildə ictimaiyyətin diqqətinə çatdırılırdı. Bu məqalələrdə vurğulanırdı ki, çətin şəraitdə yaşayan Azərbaycan hökumətinin kömək və yardımından uzaq düşən Qarabağ azərbaycanlıları erməni millətçilərinin təcavüzlərinə, təzyiqlərinə mərdliklə sinə gərir və hətta bu təzyiqlərin qarşısını almaq, özlərinin dinc yaşayışlarını qorumaq üçün qətiyyətli tədbirlərə də əl atırdılar. Şuşada azərbaycanlılardan ibarət könüllü müdafiə dəstəsi yaradılmışdı ("Azerbaydjan" 25.09.1918).

Əsas mənbə kimi seçdiyimiz "Azərbaycan" qəzetinin sonrakı saylarında da hadisələrin necə cərəyan etdiyi canlı şəkildə təsvir olunur.

İstər Azərbaycan, istərsə də rus dillərində nəşr olunan qəzetlərdə Bakı şəhərinin azad olunması ilə bağlı maraqlı məlumatlar öz əksini tapmışdır. Yəni, şəhərin erməni terrorundan azad edilməsində həyata keçirilən bəzi tədbirlərin müsbət nəticə verdiyi belə əsaslandırılırdı ki, "Azərbaycan hökumətinin Bakıya köçməsi və dövlət işlərinin nizamlanmasına başlandığı bir vaxtda ordunun təkmilləşdirilməsi və möhkəmləndirilməsi üçün daha müsaid bir zəmin yarandı. 1918-ci il oktyabr ayının 6-da müəyyən dəyişikliklərdən sonra hökumətin tərkibində hərbi işlər üzrə baş müvəkkillik öz fəaliyyətini yenə də davam etdirirdi. Bu orqanın dəftərxanası "Metropol" mehmanxanasında yerləşdirilmişdi..."

Qəzet yazırdı ki, diqqət mərkəzində olan başlıca məsələlərdən biri də çağırış və səfərbərliklə bağlı idi. Bu iş Qafqaz İslam Ordusunun Əxzi-əsgər rəyasətinin nəzarəti altında aparılırdı. Bəzi hallarda xalqın milli xüsusiyyətlərini, dövrün və şəraitin tələblərini, ümumvətəndaşlıq borclarını nəzərə almadan aparılan bu iş müəyyən nöqsan və çatışmazlıqlarla müşayiət olunsa da, qoşun hissələrinin komplektləşdirilməsindən hiss olunacaq addımlar da atılmışdı. Bakının azad edilməsi, Türk-Azərbaycan qoşunlarının müzəffər yürüşləri gənclərin müəyyən qismində vətənpərvərlik hisslərini xeyli coşdurmuşdu və onlar könüllü surətdə xidmətə yazılırdılar. Qafqaz İslam Ordusunun Əxzi-əsgər rəyasəti bununla bağlı hətta qəzetə məlumat vermiş və xidmətə yollanmaq üçün kənd və şəhərlərdə müvafiq orqanlara müraciət edənlərin artmasından məmnun olduğunu bildirmişdi ("Azərbaycan", 20.10.1918).

Həmin dövrün strateji tələbi kimi qoşun hissələrində xüsusi peşələrə olan ehtiyacı ödəmək üçün 19 yaşından 24 yaşına kimi olan bütün çəkməçilər, nəccarlar, dülgərlər, dəmirçilər, xarratlar, nalbəndlər, bərbərlər, dənizçilər və s. məcburi surətdə xidmətə cəlb olunurdular. Bu və ya digər peşələrə sahib olan 25-30 yaş arasındakı vətəndaşlar isə könüllü surətdə xidmətə yazıla bilərdilər("Azerbaydjan", 23.10.1918.).

AXC-nin dünyəvi dövlətin təməl prinsipləri üzərində qurulmasının təsdiqini verən daha bir dövlət sənədi yenə də "Azərbaycan" qəzetində öz əksini tapmışdır. Qəzet yazır ki, Azərbaycanda hərbi çağırışın hüquqi əsaslarının müəyyənləşdirilməsi üçün 1918-ci il oktyabr ayının 11-də "Azərbaycan hökumətinin əsgəri mükəlləfiyyətinin müvəqqəti qanunu" qüvvəyə mindi. Bu qanun Azərbaycan hökumətinin hərbi qanunvericilik sahəsində qəbul etdiyi ilk böyük sənədlərdən biri idi və şübhəsiz ki, həmin dövrdə əhali arasında bu işin nizamlanmasında müəyyən əhəmiyyət kəsb edirdi ("Azerbaydjan", 11.10.2018.). Daha sonra vurğulanır ki, Əxzi-əsgər şöbələrinin nəzdində həkim-müayinə komissiyaları da təşkil edilməli idi. Bu komissiya çağırışçıları müayinə etməli, onların xidmətə yararlılığını müəyyənləşdirməli idi. Çağırışçıların hansı qoşun növünə göndərilməsi üçün həkim komissiyasının qərarı nəzərə alınmalı idi. Çağırışçı və ya onun valideynləri həkim komissiyasının qərarı ilə razılaşmadıqda 2 nəfərdən az olmayaraq başqa bir həkim komissiyasının təyin edilməsini müəyyənləşdirmək hüququ da vardı ("Azerbaydjan", 11.10.2018.).

Həmin dövrün araşdırmaları göstərdi ki, "Azərbaycan" qəzeti dövlət quruculuğunun əsas təməl prinsiplərindən sayılan ordu quruculuğunda "müstəsna əhəmiyyət kəsb edən hərbi təhsil almaq üçün məktəblərin fəaliyyətini işıqlandırmağı da unutmamışdır. Qəzetin bildirdiyinə görə, 1918-ci ilin oktyabrında Gəncədəki Milli hərbiyyə məktəbinin ilk buraxılışı oldu. Bu hadisə Azərbaycanın ordu hissələrinin milli zabit kadrlarla təmin edilməsində tarixi əhəmiyyətə malik idi. İlk milli hərbi məktəbin birinci buraxılışı təntənəli şəkildə qeyd edildi. Bu münasibətlə oktyabr ayının 26-da Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın atası Hacı Əhməd Paşa, Xüsusi Azərbaycan Korpusunun komandiri general-leytenant Ə.Şıxlinski, Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy, təhsil naziri N.Yusifbəyli və başqaları Gəncəyə gəldilər ("Azerbaydjan", 07.11.1918). Bu məktəbdə nəzərdə tutulan tədris müddəti 4 aydan artıq çəkmişdi. Məktəbi müvəffəqiyyətlə bitirənlər buraxılış imtahanları verəcəyi təqdirdə, hərbi qoşunlara göndərilməli və 6 aydan sonra onlar zabit rütbəsinə yiyələnməliydilər. Hərbi təhsillə bağlı "Azərbaycan" qəzetinin sonrakı açıqlamaları da maraqlıdır. Bu hissənin xüsusilə hərbi təhsillə bağlılığını nəzərə alaraq diqqətə çatdırmağı zəruri hesab edirik. Mənbədə qeyd olunur ki, 6 oktyabrda yunkerlər şəhər kənarındakı təlim meydanında buraxılış imtahanı verməli idilər. Burada imtahanın keçirilməsi üçün xəndəklər, səngərlər qazılmış, süni maneələr yaradılmış, zəruri olan əşya və cisimlər yerli-yerində sahmana salınmışdı. Səhər tezdən Bakıdan gələn qonaqlar təlim meydanına daxil oldular. Məktəbin ilk buraxılışını sevinclə qarşılayan xeyli şəhər əhalisi də bura toplaşmışdı. Azərbaycan Korpusunun komandiri Ə.Şıxlinski nizami sırada düzülmüş yunkerlərlə salamlaşdıqdan sonra buraxılış imtahanı başladı("Azerbaydjan", 07.11.1918). Daha sonra qeyd olunur ki, səhər saat 8-də başlayan imtahan günorta saat 2-yə kimi davam etdi. Bütün müdavimlər buraxılış imtahanlarını müvəffəqiyyətlə verdilər. Günortadan sonra şəhər rəhbərliyinin bu münasibətlə təşkil etdiyi ziyafətdə Milli hərbiyyə məktəbinin ilk buraxılışında türk zabitlərinin böyük zəhməti minnətdarlıqla qeyd olundu ("Azerbaydjan", 11.11.1918).

Sadalanan qurumların yaranmasını zəruri edən amillərin bir neçəsinin adını çəkdik və bunlardan ən başlıcası, konkret tarixi şəraitdə Azərbaycanın istiqlaliyyətinə, onun ərazi bütövlüyünə, ictimai-siyasi sabitliyinə istiqamətlənmiş xarici təhlükələrin qarşısını güclü ordu, xüsusi xidmət və təhlükəsizlik, daxili işlər orqanları olmadan almaq olmazdı.

Göründüyü kimi, bu istiqamətdə islahatlar davam etdirilmiş və mənbələrin verdiyi məlumata görə, Azərbaycan polisinin təşkilində növbəti addım atılmış, yəni, 26 dekabr 1918- ci il tarixindən Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri vəzifəsini tanınmış ictimai-siyasi xadim Xəlil bəy Xasməmmədov davam etdirmişdir. Burada daha bir önəmli cəhəti qeyd etmək lazımdır ki, polis orqanları hərbi və xüsusi xidmət orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərmişlər.

Araşdırmalardan bəlli oldu ki, 1919-cu ildə də "Azərbaycan" qəzeti özünün prinsipial mövqeyinə sadiq qalaraq fəaliyyətini davam etdirmişdir.

Qəzet özünün 15 sentyabr 1919-cu il tarixli baş məqaləsində Bakı şəhərinin bir il əvvəl azad edilməsi ilə bağlı belə yazırdı: "Əgər mayın 28-ni biz müstəqilliyimizin rəsmi elan edilməsi günü sayırıqsa, sentyabrın 15-də Azərbaycan qoşunlarının və Azərbaycan hökumətinin Bakıya daxil olmasını müstəqilliyin həqiqətən əldə edilməsi, dövlətçiliyin başlıca əsaslarının və özülünün qoyulması günü hesab edə bilərik.

Bu gün bolşevik-daşnak qüvvələri tərəfindən təkcə Azərbaycanın və digər Zaqafqaziya respublikalarının müstəqilliyi əleyhinə deyil, həm də Zaqafqaziyanın türk xalqlarının fiziki mövcudluğuna qarşı yönəldilmiş xətərnak təhlükənin ləğv edildiyi gündür" ("Azerbaydjan", 15.09.1919).

Daha sonra qəzetdə qeyd olunur ki, 1919-cu il sentyabrın 15-də həm Gəncədə, həm də Bakıda daha təntənəli bir parad keçirildi. Bu parad Bakı şəhərinin bolşevik-daşnak qüvvələrindən azad edilməsinin 1 illiyinə həsr edlmişdi. Bakıdakı parad bulvarla üzbəüz olan Naberejnıda olmalı və ona praporşiklər məktəbinin komandiri polkovnik R.Şıxlinski komandanlıq etməli idi. "Azerbaydjan" qəzeti qoşun hissələrinin parada gəlməsini belə təsvir edirdi: "Qoşunların qarşısında bir neçə generalın və ordunun yüksək çinlilərinin müşayiətilə at belində igid hərbçi, ordumuzun təşkilatçısı, tam artilleriya generalı Səməd bəy Mehmandarov gedirdi. Onlar şəhərin Şamaxı küçəsinə daxil olanda çoxsaylı publikanın gurultulu alqışları qopdu... Qoşunlar keçən küçələr adamla dolu idi. Hətta evlərin damları da "Yaşasın Azərbaycan", "Yaşasın bizim əsgərlər" şüarları qışqıran qadın və uşaqlarla tutulmuşdu" ("Azerbaydjan", 17.09.1919).

Təcavüzkar ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları da "Azərbaycan" qəzetinin diqqətindən yayınmamışdır. Bu barədə qəzet 8, 12 fevral 1919-cu il tarixli saylarında yazırdı ki, Andranikin rəhbərliyi altında erməni quldur dəstələri Krasnoselo rayonunun bir sıra müsəlman kəndlərini - Gölkənd, Toxluca, Şorca, Ardanış və s. kəndlərdə misli görünməyən vəhşiliklər törətmişlər. ...Andranikin quldur dəstəsi Şorca kəndinə hücum edərkən qaçmağa imkanı olmayan hamilə qadınları, qocaları, əlilləri, xəstələri yerindəcə güllələmiş, min bir işgəncə ilə öldürmüşdür. Bu vəhşilər uşaqları süngülərə taxıb gəzdirirmişlər.

Mənbələr göstərir ki, eyni vəziyyət Şamaxı kəndlərinin də başına gətirilmişdir. "Azərbaycan" qəzetinin 21 oktyabr 1918-ci il tarixli sayında bu barədə real faktlara əsaslanaraq qeyd olunur ki, bütövlükdə Şamaxı və onun ətraf kəndlərində 8 min nəfərə yaxın azərbaycanlı soyqırımına məruz qalmışdır. Şəhərin 58 kəndi xarabazara çevrilmişdir. Daha sonra "Azərbaycan" qəzeti yazır: "...Biz Şamaxı əks-inqilabçılarının başına nə gəldiyini bilmirik, amma onu bilirik ki, başda sosialist Əmirov və Lalayev olmaqla qırmızı sosialist dəstəsi Şamaxıda olan bütün müsəlman əhalisini kəsib doğramış, kəndləri dağıtmışlar. Lalayevin Şamaxı müsəlmanlarına qarşı törətdiyi vəhşiliklər bu müddət ərzində gördüyümüz bütün dəhşətləri kölgədə qoyur".

Mətndən aydın görünür ki, Şamaxıya göndərilən erməni silahlı dəstələri guya əks-inqilabçıları cəzalandırmışlar. Halbuki qocaların, qadınların, məsum körpələrin əksinqilabi işlə əlaqəsi ola bilməzdi. Təbii olaraq qəzet bildirmək istəmişdir ki, bu, yalnız gözdən pərdə asmaq, əsl həqiqəti gizlətmək üçün vasitə idi.

Millət fədailərinin, azadlıq mücahidlərinin AXC-nin dövlət quruculuğu, daxili və xarici siyasəti, dövrün və zamanın reallıqlarını olduğu kimi əks etdirməyi müqəddəs amalı hesab edən "Azərbaycan" qəzetində bu səpkili məqalələr çoxdur. Lakin onların hamısı haqqında bir məqalədə geniş məlumat verməyin mümkünsüzlüyü bəllidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etmişdir. Artıq bununla bağlı xeyli iş görülmüşdür. AXC-nin varisi olan "Azərbaycan" qəzetinin müsəlman Şərqində ilk demokratik respublika sayılan ölkəmizdə dövlətçiliyin formalaşması prosesində əvəzsiz rol oynaması da şəksizdir. Odur ki, bu məsələnin problem kimi elmi tədqiqat mövzusu baxımından araşdırılmasının gələcəkdə də zəruri olması qənaətindəyik.

***Habil HƏMİDOV,***
***AMEA Fəlsəfə İnstitutunun Müasir siyasətin fəlsəfəsi şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə doktoru***



# Vəzirzadə Nəcəf Bəy



Keçən həftənin postası bizə müəssif bir xəbər gətirdi. Azərbaycan teatrosu mühərrirlərindən Vəzirzadə Nəcəf Bəy mərhum olmuşdur.

Temmuzun (iyulun) 9-da Azərbaycan ədəbiyyatının əski xadimi dünyadan əlaqəsini kəsmiş, türk səhnəsi əməkdar bir xadimindən ayrılmışdır. Nəcəf Bəy rus təhsili alisini görməklə bərabər, milli hars və ürfana hizmət etmiş nadir simalardandır. Bu, keçəndə Azərbaycan mətbuatının 50-ci ildönümü münasibətiylə kəndisindən bəhs etdigimiz Məlikzadə Həsən Bəy mərhumun arqadaşlarından ilk türk dramaturqu Axundzadə Mirzə Fətəlinin müaqiblərindən (ardıcıllarından) idi.

Nəcəf Bəy 1854 sənəsində Qarabağda Şuşa şəhərində təvəllüd eyləmişdir. Orta təhsilini Bakıda, ali təhsilini də Moskvada görmüşdür. Mərhumun ixtisası ormançılıq idi. Nəcəf Bəy türkcəyi Qarabağda əski üsul mədrəsədə öyrəndiyi "Müsəlmanca oxu-yazı sayəsində edinmiş bir zat idi. O bu bilgisini müasiri Həsən Bəyin "Əkinçi" nam qəzetəsində mühərrirlik etməkdə irəlilətmiş bədə mərhum İsmayıl Mirzə Qasprinskinin "Tərcüman"ını təqiblə təkmil etmişdi. Nəcəf Bəy eyni zamanda, Mirzə Fətəlinin əsərlərindən mülhəm olaraq, ustadın izini tutmuş teatroya ayrıca bir həvəs göstərmişdi. Mərhum Həsən Bəy ilə bərabər, Mirzə Fətəlinin komedilərini ilk dəfə olaraq Bakıda tamaşa səhnəsinə vəz eyləmiş kəndisi "Hacı Qara" piyesində aktyorluq etmişdir. Bundan maəda mərhum Azərbaycan qəzetəçiligi ilə mətbəçiligi daha adam (əqli) təəssüz etmədigi günlərdə teatro əsərləri yazmağa başlamış, Mirzə Fətəlidən sonra Azərbaycanın 2-ci dramaturqluğu şöhrətinə haqlı bir istihqaq (haqq) qazanmışdır.

Mərhumun "Asari-Nəcəf Bəy" namilə məruf əsəri 1903 sənəsində mövqei-intişara konulmuşdur. Burada 5-6 piyes mündəric bulunuyordu. Nəcəf Bəyin əsərlərindən ən mərufu "Müsibəti-Fəxrəddin" ilə "Pəhlivanəni zamanə"dir. Bu iki pyesdə iki münəvvər tipi təsvir olunur. Birinci pyes Avropa təhsili almış idealist bir gənc təsvir ediyor ki, ətrafını tənvir (nurlandırmaq) etmək məqsədilə çalışarkən, mühitinə qarşı münfərid (tənha) bir vəziyyətdə qalıyor və məzlum bir surətdə məhv oluyor. İkinci pyesdə isə, mühərrir, Fəxrəddinə tamamilə müxalif ikinci bir münəvvər tipi təsvir ediyor ki, rus məktəbindən nəşəd edən bu "avoka"nın yeganə məqsədi kəndi həyat və zövqünü təmin etməkdən ibarətdir. Bu "avoka" ətrafındakı cəhl və qəfləti sui-istifadə edərək, kəndisinə sərvət və etibar qazanma surətilə müvəffəq oluyor. Mühərririn bütün təvəccöh və məhəbbəti Fəxrəddindədir. "Zamanə pəhlivan"ı Avokayı isə sevməz, kəndisindən nifrət edər. Xalq üçün çalışmaq yolunda təhsil olunan mağdurluq" Nəcəf Bəy üçün xalqın məzlumiyyət və qəflətini sui-istifadə yolu ilə hasil olan "qəddarlığa" mürəccəhdir (üstün tutulan).

Bu iki klassik əsərindən maəda Nəcəf Bəyin azçox tanınmış əsərlərindən bunları tədad edə (saya) biliriz: "Əti sənin, sümügü mənim", "Ev tərbiyəsinin bir şəkli", "Yağışdan çıxdıq, yağmura düşdük", "Daldan atılan daş topuğa dəgər", "İsmi var, cismi yox" və sairə...

Nəcəf Bəyin əsərləri sadə xalq türkcəsilə yazılmışdır. Ədəbi nöqteyi-nəzərdən mühərririn lisanını işlənmiş bir sənət əsəri olaraq qəbul etməsək də əsərlərinin xalq həyatından alınma mövzuları ilə görüşlərinin zamanına görə müvəffəqiyyətli olduğunu təslim və bu nöqteyi-nəzərdən qiyməti haiz olduğunu təsdik etmək məcburiyyətindəyiz. Nəcəf Bəyin Azərbaycan ədəbiyyatında kəndinə məxsus mövqei vardır. Tənqid və ya təqdir etdikləri tiplər həyatdan alınma tiplərdir. O, yalnız həyatda mövcud tipləri almaz, eyni zamanda həyatda tərviç etdigi tipləri də göstərir. Kəndinə məxsus bir idealizm yapar...

Nəcəf Bəy vaxtilə "Əkinçi"də, sonra "Tərcüman"da məqalələr yazmışdır. 1905 sənəsindən etibarən "Həyat", "İrşad", "Tərəqqi", sonra da "Azərbaycan" qəzetələrində "Dərviş" nami-müstəari (alınmış sözlər) ilə imzalı məqalələr nəşr eyləmişdir. Pyeslərində olduğu kibi bu məqalələrində də Nəcəf Bəyin mövzunu xalq həyatından alınma məsələlər təşkil edər, o, əksəriyyətlə "Fəxrəddin"ləri ideaslize "Avoka"ları da istehza edər dururdu.

1913 sənəsində "Səfa" cəmiyyətinin mərifətilə Bakıda Nəcəf Bəyə mütəntən (təntənəli) bir ildönümü mərasimi tərtib edilmiş, qoca ədibə sərf etdiyi əməyin mənəvi mükafatı verilmişdi. İstiqbal dövründə isə Nəcəf Bəy sinninin keçdiginə rəğmən yeni bir şövqlə təkrar qəzetəciligə atılmış nim rəsmi "Azərbaycan" qəzetəsində "Yahu" (Ya Allah) deyə "Dərviş"ligini təcdit eyləmişdi.

Qızıl istiladan sonra bittəbii qələmi qınına qoymuş, yalnız müəllimliklə ömür keçirmiş, bu surətlə olsun, milli vəzifəsini ifa etməyə baxmışdı.

Nəcəf Bəyin səhneyi-həyatdan çəkilməsi ilə şübhəsiz ki, Azəri Türk ədəbiyyatı pək dəyərli və əməkdar bir xadimindən ayrılmış, türk səhnəsi də Mirzə Fətəlidən sonra çox mühüm bir simasını qeyb etmişdir.

Bütün əsərlərində millət eşqini tərənnüm edən mühərrir üçün, qısa bir zaman üçün olsa da istiqlal və hürriyyətini dərk etdigi vətənini təkrar əsarət altında buraxaraq ölmək qədər böyük bir faciə olamaz. Nəcəf Bəyin ölümü kəndi qəhrəmanı Fəxrəddinin ölümünə nə qədər bənzər!..

***Azəri (Azərbaycanlı)***
***"Yeni Qafqasiya", 1 sentyabr 1926, №20***

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Oktyabrın 15-də vergilər naziri Mikayıl Cabbarov Şəmkir şəhərində 14 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşları qəbul edib.

Bu barədə AZƏRTAC-a nazirliyin Media və kommunikasiya mərkəzindən bildirilib.

Qəbulda Gəncə və Naftalan şəhərlərinin, həmçinin Şəmkir, Goranboy, Samux, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Ağstafa, Qazax və Kəlbəcər rayonlarının sakinləri iştirak edib.

Qəbulda vətəndaşlar əsasən, yaranmış vergi borcları, vergi orqanlarında işlə təminat, kənd təsərrüfatı məhsullarının ixracı və vergi inzibatçılığı sahəsində qarşılaşdıqları məsələlərlə əlaqədar müraciət ediblər.

Vətəndaşların müraciətləri dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin struktur bölmələrinə tapşırıqlar verilib.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova oktyabrın 15-də Abşeron rayonunda vətəndaşlarla görüşüb. Görüşdə Sumqayıt, Qubadlı, Zəngilan, Şuşa, Abşeron sakinləri iştirak ediblər. Komitə sədri Xırdalandakı Heydər Əliyev Mərkəzinin konfrans zalında vətəndaşları qəbul edib. Qəbulda vətəndaşların ərizə, təklif və tövsiyələrinə baxılıb.

Hicran Hüseynova qadın və uşaq hüquqlarının müdafiəsi, məşğulluq, sağlamlıq və digər məsələlərlə bağlı səslənən hər bir müraciəti diqqətlə dinləyib. Qəbul zamanı bir sıra şikayətlər yerindəcə təhlil olunub və həllini tapıb. Bəzi məsələlər araşdırılması üçün nəzarətə götürülüb. Vətəndaşların komitənin səlahiyyətlərinə aid olmayan müraciətləri isə müvafiq dövlət qurumlarına çatdırılmaq üçün qeydiyyata alınıb.

## “Bakı Metropoliteni” QSC istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan malların və ehtiyat hissələrinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 4 (dörd) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəflili küçəsi 20-dən, (Əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. Yük və minik avtomobil təkərlərinin satın alınması**
**LOT-2. Avtomobil, maşın və mexanizmlər üçün ehtiyat hissələrinin satın alınması**
**LOT-3. İzolyasiya mallarının satın alınması**
**LOT-4. Bərkidicilərin satın alınması**

**İştirak haqqı - LOT-1 - 400 manat**
**LOT-2 - 600 manat**
**LOT-3 - 500 manat**
**LOT-4 - 300 manat**

**Hesab: AZ98AZRT3805001944010268002**
**VÖEN1402871431**
**Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kodu: 501361**
**VÖEN: 9900006111**
**M/H: AZ02NABZ01350100000000022944**
**S.W.İ.F.T: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 noyabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **27 noyabr 2018-ci il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına “İcraya Nəzarət, kargüzarlıq və Təsərrüfat İşləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **28 noyabr 2018-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## İraqda 111 min nəfər içməli sudan zəhərlənib



İraqın cənubunda yerləşən Bəsrə əyalətində içməli sudan zəhərlənmiş adamların sayı 111 min nəfərə çatmışdır. Bu barədə BMT-nin insan hüquqları üzrə ali komissarının Bəsrədəki ofisinin direktoru Mehdi Təmimi məlumat vermişdir. Zərərçəkənlər arasında məktəblilər də var.

Ötən ay əyalətin hakimiyyət orqanları 27 min nəfərin zəhərləndiyi barədə məlumat vermişdi.

Bəsrədə və ölkənin cənubunda yerləşən digər şəhərlərdə iyul ayından bəri kommunal sahənin vəziyyətinin pisləşməsi və işsizliklə əlaqədar hökumət əleyhinə nümayişlər davam edir.

İraq hökuməti içməli su kəmərləri sisteminin və elektrik şəbəkələrinin bərpası işlərinə 17 milyon dollarıdək vəsait ayırmağı vəd etmişdir. Küveyt hökuməti İraqa dörd güclü sutəmizləyici qurğu vermək qərarına gəlmişdir.

## Ər-Riyad Qərbi sərt tədbirlərlə hədələdi



Ər-Riyad Qərbin mümkün sanksiyalarına daha sərt tədbirlərlə cavab verməyə hazırdır. Bu barədə Səudiyyə Ərəbistanı Xarici İşlər Nazirliyinin (XİN) bəyanatına istinadən “Bloomberg” agentliyi xəbər verir.

Nazirliyin bəyanatında deyilir ki, krallıq dünya iqtisadiyyatında aparıcı rol oynayır və Səudiyyə Ərəbistanı özünə qarşı hansısa addımlar atılacağı təqdirdə, daha ciddi tədbirlərlə cavab verəcək. Ər-Riyad həmçinin müxalifətçi jurnalist Camal Qaşıqçının qətli ilə bağlı ittihamları saxta adlandırmışdır.

Xatırladaq ki, Qərb ölkələri ilə Səudiyyə Ərəbistanı arasında münaqişə Qaşıqçının bu ölkənin İstanbuldakı konsulluğunda ehtimal olunan qətli ilə bağlı başlamışdır.

Krallıq haqqında tənqidi məqalələri ilə tanınan Camal Qaşıqçı oktyabrın 2-də Türkiyə vətəndaşı ilə nikah bağlamaq üçün sənədləri tərtib etmək məqsədilə konsulluğa daxil olduqdan sonra yoxa çıxmışdır. Onun xanımını binaya buraxmamışlar və ona beş saat gözlədikdən sonra Qaşıqçının konsulluğu tərk etdiyini bildirmişlər.

Sonradan Türkiyə hökuməti bildirmişdir ki, Qaşıqçının qətli onun qolundakı “Apple Watch” saatı vasitəsilə qeydə alınmışdır. Jurnalistin meyiti diplomatik nömrələri olan avtomobillərdə Türkiyədən çıxarılmışdır. Bu, Ər-Riyadın planlaşdırılmış əməliyyatı olmuşdur.

ABŞ Prezidenti Donald Tramp müxalifətçi jurnalistin qətlində Ər-Riyadın məsuliyyətinin sübuta yetiriləcəyi təqdirdə, Səudiyyə Ərəbistanını “sərt cəza ilə” hədələmişdir. Almaniya, Fransa və Böyük Britaniya da səudiyyəlilərdən izahat tələb etmişdir.

## Yaponiya Afrikada daimi hərbi baza yaradır



Yaponiya hökuməti Afrika qitəsində yerləşən Cibutidə ölkə hüdudlarından kənarda ilk daimi hərbi bazasını yaratmağı planlaşdırır. Bu barədə Müdafiə Nazirliyinin məlumatına istinadən yerli “Sankei Shimbun” qəzeti xəbər verir. Qəzet qeyd edir ki, Tokio həmin bazadan Çinin qarşısını almaq üçün istifadə etmək istəyir.

Öz növbəsində, Pekin Şərqi Asiya ilə Avropanı birləşdirən strateji əhəmiyyətli dəniz yollarının yaxınlığındakı bu regionda öz mövcudluğunu genişləndirmək niyyətindədir.

Xatırladaq ki, hazırda Somalidəki piratlarla mübarizədə iştirak edən Yaponiyanın Cibutidə müvəqqəti hərbi bazası var. May ayında ABŞ Cibutidəki Çin hərbçilərinin hərəkətlərindən şikayətlənmişdir. Pentaqonun iddiasına görə, Çinin hərbi bazasından Amerika təyyarələrinə qarşı üç dəfə lazerdən istifadə olunmuşdur.

## Yəməndə raket zərbəsi 15 nəfərin həyatına son qoydu



Yəmənin Hodeydə əyalətində mülki şəxsləri daşıyan mikroavtobuslar raket zərbəsinə məruz qalmışdır. Bu barədə BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsi məlumat vermişdir.

Məlumata görə, zərbə nəticəsində azı 15 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. Xəstəxanalara çatdırılan yaralıların çoxunun vəziyyəti ağırdır. BMT hələ ki dinc sakinləri vuranların adlarını açıqlamır.

Xatırladaq ki, Yəmən ərazisində qiyamçı hövsilərlə Səudiyyə Ərəbistanının başçılıq etdiyi koalisiya arasında qarşıdurma davam edir.

## KXDR lideri ölkədə nüvə obyektlərinin siyahısını açıqlamaqdan boyun qaçırdı



KXDR lideri Kim Çen İn bu ayın əvvəllərində ABŞ-ın Dövlət katibi Mayk Pompeo ilə görüşü zamanı Pxenyanın üzərindən sanksiyalar götürülməyənə və tərəflər Koreya müharibəsinin (1950-1953-cü illər) bitməsi barədə bəyannamə imzalanmayana kimi, Şimali Koreyanın nüvə obyektlərinin siyahısını açıqlamaqdan imtina etmişdir. Bu barədə diplomatik mənbələrə istinadən “Yomiuri Shimbun” qəzeti xəbər verir.

Məlumata görə, Pompeo oktyabrın 7-də Pxenyana səfəri zamanı Kim Çen İndən nüvə obyektlərinin siyahısını heç olmasa qismən açıqlamağı xahiş etmişdir.

KXDR lideri bu təklifə imtina ilə cavab vermişdir. Eyni zamanda, o vurğulamışdır ki, nüvəsizləşdirmə tədbirlərinin həyata keçirilməsi üçün ilk növbədə, Vaşinqtonla Pxenyan arasında etimad münasibətləri qurulmalıdır. Məsələn, Koreya müharibəsinin bitməsi barədə bəyannamə imzalanmalıdır ki, bu da öz növbəsində, Koreya yarımadasında nüvəsizləşdirmənin aparılması prosesini sürətləndirsin.

*Təkrar*

## Beyləqan Rayon İcra Hakimiyyəti

### *1 ədəd xidməti minik avtomobilinin satın alınması məqsədilə açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Beyləqan Rayon İcra Hakimiyyətindən ala bilərlər.

**LOT-1 Beyləqan Rayon İcra Hakimiyyətinə 1 ədəd xidməti minik avtomobilinin satın alınması**

**İştirak haqqı - LOT-50 manat**
**Hesabın adı: Beyləqan Rayon İcra Hakimiyyəti.**
**Hesab nömrəsi: AZ02CTRE00000000000002514131**
**VÖEN: 3900204011**
**Bankın adı: “Kapital Bank”ın Beyləqan rayon filialı.**
**Kod: 200402**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən ən azı 40 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22 oktyabr 2018-ci il saat 18:00-dək, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş, ikiqat zərfdə 30 oktyabr 2018-ci il saat 18:00-a qədər Beyləqan şəhər Heydər Əliyev pr., 25 ünvanına “Mühasibatlıq sektoruna” təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 31 oktyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxs “Tibbi sığorta haqqında”, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının qanunlarına və “Kotirovka sorğusu prosedurunun təşkili və keçirilməsinə dair Təlimat”a müvafiq olaraq fondun əməkdaşlarının tibbi sığortalanması xidmətinin satın alınması üçün sığorta şirkətinin seçilməsi üzrə

### *kotirovka sorğusu elan edir*

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 2018-ci il 25 oktyabr saat 15:00-a qədər qəbul olunur və əlaqələndirici şəxs Zaur Nəhmətova müraciət etmək olar.

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M. Şərifzadə küçəsi, 172**
**Telefon: (012) 4345011**
**Fax: (012) 4323717 e-mail: info@edf.gov.az**

***Tender komissiyası***

## BİLDİRİŞ

Lənkəran Dövlət Universiteti idarənin xərcləri, inventarın alınması, yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması və digər maşın və avadanlıqların alınması üzrə

### *kotirovka sorğuları elan edir*

İddiaçıların təklifləri 22 oktyabr 2018-ci il saat 16:00-dək qəbul olunur. İddiaçıların təklifləri 22 oktyabr 2018-ci il saat 17:00-da Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanında açılacaqdır.

**Əlaqələndirici şəxs: Quliyev Vaqif Şahvərən oğlu**
**Telefon: (025) 255 14 80**

***Tender komissiyası***

## Turan Bayramov Olimpiya çempionudur




Yeniyetmə güləşçimiz Turan Bayramov Argentinanın paytaxtı Buenos-Ayresdə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında qızıl medal qazanıb.

Olimpiadada sərbəst güləş növündə 65 kiloqram çəki dərəcəsində mübarizə aparan dünya və Avropa çempionu ilk görüşdə Yeni Zelandiya təmsilçisi Tahi Pehi Eynsli Uesterlini elə ilk hissədə məğlub edib. İdmançımız Pakistan güləşçisi İnayət Ullaha da asanlıqla qalib gəlib və A qrupunda birinci yeri tutub.

Olimpiadanın finalına vəsiqə qazanan güləşçimiz qızıl medal uğrunda görüşdə B qrupunun qalibi olan iranlı pəhləvan Məhəmməd Baqi Kərimiseyfabad ilə qarşılaşıb. Rəqibini məğlub edən Turan Olimpiya çempionu olub.

Hazırda Olimpiya millimizin hesabında 2 qızıl, 1 gümüş və 2 bürünc medal var.

Azərbaycana ilk qızıl medalı Olimpiadada 66 kiloqram çəki dərəcəsində çıxış edən cüdoçu Vüqar Talıbov qazandırıb. Ağır atlet Tərmenxan Babayev (85 kq) gümüş, taekvondoçu Cavad Ağayev (63 kq) və güləşçi Şahanə Nəzərova (43 kq) bürünc medala sahib olublar. Bədii gimnast Yelizaveta Luzanın komanda yarışlarında qazandığı qızıl medal isə qarışıq yığmaların hesabına yazılıb.

## Atəşkəs rejimi pozulmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Azərbaycan ordusunun mövqeləri atəşə məruz qalıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi qocaman jurnalist
**YUSİF KƏRİMOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatı Humanitar və sosial məsələlər şöbəsinin müdiri Musa Ələkbərova atası
**MƏHƏMMƏDƏLİ ƏLƏKBƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarə prokuroru Sabir Abdinova atası
**MƏZLUMAĞA MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8407
Sifariş 2977